Hazırda dünya elmində və dünyanın əksər ölkələrində 2030-cu ilə qədər iqtisadiyyatın baza inkişaf modeli kimi dayanıqlı inkişaf əsas götürülmüş və bu inkişafa görə iqtisadi, sosial və ekoloji aspektlərdə arzuedilən göstəricilərə nail olunması əsasında həm indiki, həm də gələcək nəsillərin tələbatlarının problemsiz ödənilməsi mümkündür. İqtisadiyyatın yeni inkişaf modelinin ("yaşıl iqtisadiyyat"ın) ən mühüm xarakterik xüsusiyyəti ekoloji-iqtisadi transformasiyanı təmin etməklə cəmiyyətdə hər bir nəfərin yüksək sosial rifahına nail olmaqdır. Bunun üçün dayanıqlı inkişaf üzrə, həm də ayrıca sahələr üzrə tədqiqatların aparılması mühüm əhəmiyyət kəsb edir. Bu sahələr sırasında aqrar-ərzaq kompleksi üzrə tədqiqatların aparılması özünün aktuallığı ilə seçilir. Belə ki, aqrar-ərzaq kompleksi həyati əhəmiyyət kəsb edən sahə kimi həm də ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasının əsası hesab edilir və iqtisadi təhlükəsizliyin təmin olunmasında vacib rol oynayır. Bununla yanaşı, aqrar-ərzaq kompleksi sisteməmələgətirici sahə kimi əhalinin məşğulluğunun təmin olunmasında və milli adət-ənənələrin yaşadılmasında mühüm rola malikdir. Bu kompleksin mühüm vəsiləsi kimi aqrar sektorun dayanıqlı inkişafı isə bütün dünya ölkələri üçün prioritet kimi qəbul edilir. "Dayanıqlı inkişaf ideyasının praktik olaraq reallaşdırılması milli iqtisadiyyatın bütün səviyyələrində və kənd təsərrüfatı da daxil olmaqla bütün sahələrində təmin edilir. Aqrar sektorun dayanıqlı inkişafı bütün dünya ölkələri üçün siyasi prioritet olmaqla, əhalinin ərzaqla təmin olunmasını, kənd əhalisinin həyat səviyyəsinin və keyfiyyətinin yüksəldilməsini, təbii potensialdan rasional istifadə və resursqoruyucu texnologiyaların tətbiqi əsasında kənd təsərrüfatı istehsalı üçün ekoloji təhlükəsiz şəraitin yaradılmasını nəzərdə tutur"[12, s. 20].

Aqrar-ərzaq kompleksinin iqtisadi-sosial-ekoloji aspektlərdə inkişafının müasir vəziyyəti

Dayanıqlı inkişafın təmin edilməsi üzrə həlli vacib olan problemlər ölkəmizdə qəbul edilən

strateji xarakterli sənədlərdə öz əksini tapmışdır. Belə ki, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in demək olar ki, hamısı (beş milli prioritet) dayanıqlı inkişafın təmin edilməsilə bağlıdır. Bu sənəddə dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, işğaldan azad edilmiş ərazilərə böyük qayıdış və təmiz ətraf mühit və yaşıl artım ölkəsi milli prioritetlər kimi qəbul edilmişdir. Qeyd edilən sənəddə iqtisadi inkişafa nailolma ilə cəmiyyətin bütün üzvlərinin sosial rifahı əlaqələndirilir: “Yüksək inkişaf üçün yalnız iqtisadi artım deyil, cəmiyyətin bütün üzvlərinin sosial rihafı əsas amildir. İqtisadiyyat inkişaf etdikcə vətəndaşların sərvət və gəlirlərinin, o cümlədən əməkhaqlarının artırılaraq layiqli səviyyəsi təmin edilməli, əməkhaqqının artımı əmək məhsuldarlığının artımı ilə uzlaşdırılmalıdır”[1]. Deyilənlərlə yanaşı, göstərilən sənəddə ölkəmizin perspektiv iqtisadi inkişafının təmiz ətraf mühitlə bağlı olduğu yazılır: “Ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin edilməlidir” [1].

Qeyd edək ki, dayanıqlı inkişaf probleminin həllinə elmi yanaşmanın əsasında həm də Birləşmiş Millətlər Təşkilatının (BMT-nin) konfransında dayanıqlı inkişaf məqsədləri (DİM) ilə bağlı qəbul edilmiş qərar dayanır. BMT-nin baş Assambleyasının 2015-ci ildə qəbul etdiyi qətnaməsində həm də “Dünyamızın dəyişdirilməsi: 2030-cu ilə qədər dayanıqlı inkişaf sahəsində gündəm” adlı sənəd qəbul edilmiş və bu sənəddə yeni iqtisadiyyatın formalaşdırılmasının konktret istiqamətləri göstərilmişdir. Bu sənədə əsasən inkişaf prosesində nəinki iqtisadi artım, eyni zamanda cəmiyyətdə insanın sosial rifahı təmin olunmalı və ətraf mühitin təmizliyi ilə bağlı risklərin ixtisarına diqqət yetirilməlidir. Dünya liderləri sözügedən sənədi əsas götürməklə dayanıqlı inkişafın 17 məqsədi, bu məqsədlərə nail olunması sahəsində vəzifələr və onların reallaşdırılması vasitələri üzrə razılığa gəlmişlər.

Hazırda ölkəmizdə kənd təsərrüfatı üzrə dayanıqlı inkişaf məqsədlərinə nailolma üzrə tədqiqatlar aparılır və layihələr reallaşdırılır. Bu tədqiqatlar zamanı dayanıqlı inkişafın ayrıca məqsədinə nailolmaya daha çox diqqət yetirilir. Bu, ölkəmiz üçün də xarakterikdir, belə ki, sözügedən məqsədlərdən ərzaq təhlükəsizliyinin təmin olunması, yoxsulluğun aradan qaldırılması, içməli su probleminin həlli və s. üzrə tədqiqatların aparılmasına və layihələrin reallaşdırılmasına ölkəmizdə daha çox diqqət yetirilmişdir. Dayanıqlı inkişaf məqsədləri üzrə kompleks tədqiqat işinə demək olar ki, rast gəlinmir. Lakin bütün bunlara baxmayaraq, Azərbaycanın Dövlət Statistika Komitəsi tərəfindən “Dayanıqlı İnkişaf Məqsədləri” üzrə tərəqqinin milli kontekstdə statistik göstəricilərlə təhlili həyata keçirilir və bu işlər BMT-nin müvafiq sənədində əks etdirilən vəzifələrlə əlaqəli yerinə yetirilir.

Ölkəmizin aqrar-ərzaq kompleksinin dayanıqlı inkişafının təmin edilməsi baxımından prioritetlərin müəyyənləşdirilməsi üçün onun iqtisadi, sosial və ekoloji səpgidə inkişafının müasir vəziyyətinə aydınlıq gətirilməsi tələb olunur. Bütövlükdə bu kompleksin dayanıqlı inkişaf səviyyəsinin ölçülməsi isə mümkün deyil. Bu, dayanıqlı inkişaf səviyyəsinin ölçülməsi üçün hamı tərəfindən qəbul edilən metodoloji və metodiki bazanın işlənib hazırlanmaması ilə əlaqədardır. “Hazırkı mərhələdə inkişafın dayanıqlılığının ölçülməsi kifayət qədər mürəkkəb problemdir, çünki onun bütün tərəflərinin nəzərə alınması zəruridir. Özünü bütün çoxcəhətliliyi ilə dayanıqlı inkişaf dinamik anlayışdır, sözügedən inkişafda iqtisadi, sosial və ekoloji hadisələr müxtəlif templərlə inkişaf edirlər”[15, 93].

Dayanıqlı inkişaf səviyyəsinin ölçülməsi üçün, ilk növbədə, metodoloji əsas yaradılmalıdır. “Möhkəm metodoloji və metodiki fundament yaratmadan, idarəetmənin bütün səviyyələrində fəaliyyətin elmi əsaslandırılması olmadan sosial-iqtisadi sistemin dayanıqlığı probleminin həlli mümkün deyil” [13, s. 8].

Aşağıdakı cədvəldə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq iqtisadi fəaliyyət növü üzrə sahə və makrosəviyyəli iqtisadi göstəricilərin dinamikası əks etdirilmişdir (cədvəl 1).

Cədvəl 1.

Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq iqtisadi fəaliyyət növü üzrə sahə və makro-səviyyəli iqtisadi göstəricilərin dinamikası

	2016	2017	2018	2019	2020	2021	2022	2023
Kənd təsərrüfatı, meşə təsərrüfatı və ovçuluqda yaradılan əlavə dəyərin ümumi əlavə dəyərdə payı, %	6,2	6,0	5,6	6,3	7,4	6,2	5,0	6,1
Bütün təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatının ümumi məhsulu, faktiki qiymətlərlə milyon manatla	5632,4	6580,0	7010,0	7836,7	8428,9	9163,4	10984,2	10210,6
bitkiçilikdə	2577,2	3019,0	3186,0	3751,2	4028,4	4511,0	5538,0	5933,9
heyvandarlıqda	3055,2	3561,0	3824,0	4085,5	4400,5	4652,4	5446,2	6276,7
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda əsas kapitala yönəldilmiş investisiya, mln. manat	325,1	617,8	764,4	769,5	520,6	341,9	408,0	578,3
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda əsas kapitala yönəldilmiş investisiyanın bütövlükdə iqtisadiyyat üzrə əsas kapitala yönəldilmiş investisiyalarda payı, %	2,1	3,5	4,4	4,2	3,0	2,0	2,3	2,7

Mənbə: cədvəl DSK-nın məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəlin məlumatlarından göründüyü kimi, 2016-cı illə müqayisədə 2023-cü ildə kənd təsərrüfatı, meşə təsərrüfatı və ovçuluqda yaradılan əlavə dəyərin bütövlükdə ölkə üzrə yaradılan əlavə dəyərdə payı 6,2%-dən 6,1%-ə qədər azalmışdır. Bu illər ərzində bütün təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatının ümumi məhsulu 1,8 dəfə, o cümlədən bitkiçilikdə 2,3 dəfə, heyvandarlıqda isə 2,1 dəfə artmışdır. Təhlil edilən illər ərzində sözügedən sahə üzrə əsas kapitala yönəldilmiş investisiya 325,1 mln. manatdan 578,3 mln. manata qədər və yaxud 77,9% artmışdır. Bu sahədə əsas kapitala yönəldilmiş investisiyanın bütövlükdə iqtisadiyyat üzrə əsas kapitala yönəldilmiş investisiyada payı 2,0-4,4% arasında tərəddüd etmişdir. 2018 və 2019-cu ildə əsas kapitala yönəldilmiş investisiyaların payı bütövlükdə ölkə üzrə əsas kapitala yönəldilmiş investisiyalarda daha yüksək olmuş və müvafiq olaraq 4,4 və 4,2% təşkil etmişdir.

2015-2022-ci illər ərzində kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq iqtisadi fəaliyyət növü üzrə ekoloji-iqtisadi göstəricilərin səviyyəsində də dəyişikliklər baş vermişdir. Həmin illər ərzində kənd təsərrüfatında bir hektar əkin sahəsinə verilən mineral gübrələrin miqdarı 23 kq-dan 65 kq-a (2,8 dəfə), gübrələnmiş sahənin əkin sahəsində payı isə 58%-dən 72 %-ə qədər (14%) artmışdır. Bu illər ərzində suvarma ehtiyacları üçün istifadə edilən su itkisinin həcmində müəyyən azalmalar (4,6%) özünü göstərmişdir. Əgər 2015-ci ildə suvarma ehtiyacları zamanı su itkisinin bu məqsədlə istifadə edilən suyun həcminə nisbəti 55,6% təşkil edirdisə, həmin göstərici 2022-ci ildə 42,1%-ə bərabər olmuş və yaxud başqa sözlə desək, 13,5% azlama qeydə alınmışdır. Təhlil edilən illər ərzində təmizlənmədən atılan çirkab suların həcmi isə 305,5 mln. kub metrdən 207,9 mln kub metrə qədər (31,9%) azalmışdır. Aqrar-ərzaq kompleksində çox vacib resurslardan biri kimi, su

resurslarının istifadəsi zamanı itkilərin azalması və ətrafa çirkab suları kimi atılan suların həcmində azalmalar bu kompleksin ekoloji aspekt baxımından inkişafında yaxşılaşmaların olduğunu göstərir. Burada onu da qeyd edək ki, bu illər ərzində həm də sudan istifadənin səmərəliliyi yüksəlmişdir. Belə ki, hər kub metr sudan istifadə zamanı 2016-cı ildə 3,7 ABŞ dolları əldə edilmişdirsə, həmin göstəricinin səviyyəsi 2022-ci ildə yüksələrək 6,57 dollara (1,8 dəfə artım) çatmışdır.

Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq iqtisadi fəaliyyət növü üzrə sosial-iqtisadi göstəricilərin dinamikası aşağıdakı cədvəlin məlumatları ilə xarakterizə edilir (cədvəl 2).

Cədvəl 2

Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq iqtisadi fəaliyyət növü üzrə sosial - iqtisadi göstəricilərin dinamikası


	2016	2017	2018	2019	2020	2021	2022	2023
Kənd əhalisinin ümumi əhalinin tərkibində payı, %	46,9	47,0	47,1	45,3	45,1	45,2	45,3	45,4
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda məşğul əhalinin bütövlükdə məşğul əhalinin tərkibində payı, %	36,3	36,4	36,3	36,0	35,9	35,9	35,8	35,8
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda məşğul olanların orta aylıq nominal əməkhaqqının ölkə üzrə orta aylıq nominal əməkhaqqına nisbəti, %	50,8	49,5	51,6	58,5	61,3	62,4	61,3	59,8
Kənd yerləri üzrə əhalinin təbii artımı, min nəfər	57247,0	48675	45839	47115	31458	26824	36654	31776
Kənd yerlərində əhalinin hər min nəfərinə düşən təbii artım, nəfər	12,6	10,6	9,9	10,5	7,0	5,9	8,0	6,9

Mənbə: cədvəl DSK-nın məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.


Cədvəlin məlumatlarından göründüyü kimi, 2016-cı illə müqayisədə 2023-cü ildə kənd əhalisinin ümumi əhalinin tərkibində payı 46,9%-dən 45,4%-ə qədər (1,5%) azalmışdır. Bu illər ərzində sözügedən iqtisadi fəaliyyət növü ilə məşğul olanların orta aylıq nominal əməkhaqqının ölkə üzrə orta aylıq nominal əməkhaqqına nisbəti 50,8%-dən 59,8 %-ə qədər yüksəlmişdir (diaqram 1).

Diaqramdan göründüyü kimi, təhlil edilən bütün illər ərzində kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda orta aylıq nominal əməkhaqqı iqtisadiyyat üzrə orta nominal aylıq əməkhaqqından aşağı olmuşdur. Ölkə üzrə məşğul əhalinin təqribən üçdə birinin bu sektorun payına düşdüyünü nəzərə alsaq, əhalinin həmin hissəsinin orta aylıq əməkhaqqının iqtisadiyyat üzrə orta aylıq nominal əməkhaqqından aşağı olmasını aydın görmək olar /diaqram 2/.

Yuxarıda deyilənlər həm də kənd yerləri üzrə ayda adambaşına gəlirlərin bütövlükdə ölkə üzrə ayda adambaşına gəlirlərinin müqayisəsində də özünü göstərir. 2018-2022-ci illər ərzində kənd yerləri üzrə ayda adambaşına gəlirlər 285,4-312,7 manat arasında dəyişdiyi halda, ölkə üzrə bu göstərici 276,0-327,6 manat arasında olmuşdur. Bu dövr ərzində kənd əhalisinin gəlirlərinin tərkibində kənd təsərrüfatı məhsullarının istehsalından əldə edilən gəlirlərin payı 25,4%-dən 22,1%-ə qədər azalmışdır. Bu, kənd ərazilərinin dayanıqlı inkişafı baxımından arzuedilən hal deyil, belə ki, kənd təsərrüfatı məhsullarının satışından daxil olan gəlirlər Azərbaycan kəndində hələlik əsas gəlir mənbəyi olaraq qalır.



Diaqram. Bütövlükdə iqtisadiyyat və kənd təsərrüfatı (meşə təsərrüfatı və balıqçılıq da daxil olmaqla) orta nominal aylıq əməkhaqqının dinamikası



Diaqram. Bütövlükdə iqtisadiyyat və kənd təsərrüfatnda (meşə təsərrüfatı və balıqçılıq da daxil olmaqla) məşğul əhalinin dinamikası

Təhlil edilən illər ərzində kənd yerləri üzrə əhalinin təbii artım göstəricisi üzrə də azalmalar müşahidə edilmişdir və bu azalma 44,5% təşkil etmişdir.

Aparılan təhlildən göründüyü kimi, dayanıqlı inkişafla əlaqəli heç də bütün göstəricilər üzrə yaxşılaşma olmasa da, inkişafın ayrı-ayrı məqsədləri üzrə yaxşılaşma müşahidə edilir. Bu, aqrar-ərzaq kompleksi üzrə dayanıqlı inkişaf vektorunun formalaşması baxımından təqdirəlayiq haldır. Dayanıqlı inkişaf üzrə göstəricilərin yaxşılaşması bu kompleksdə çalışanların daha yüksək həyat

səviyyəsinin təmin olunmasına gətirib çıxara bilər. “Eyni zamanda dayanıqlı inkişafa yönəldilmiş bütün tədbirlər kompleksinin son məqsədi insanın və vətəndaşın layiqli mövcud olma hüquqlarının həyata keçirilməsidir” [12, s.18].

Dayanıqlı inkişaf məqsədləri üzrə milli indikatorların işlənib hazırlanması və onların səviyyələrinə nailolma üzrə monitorinqlərin həyata keçirilməsi aqrar-ərzaq kompleksinin dayanıqlı inkişaf relslərinə keçirilməsinə gətirib çıxara bilər. Bunun üçün aqrar-ərzaq kompleksində dayanıqlı inkişaf problemləri müəyyən edilməli və həmin problemlərin həlli üzrə vəzifələr dəqiqləşdirilməlidir.

Aqrar-ərzaq kompleksinin dayanıqlı inkişaf problemləri və onların həlli üzrə prioritet vəzifələr

Qeyd etdiyimiz kimi, təhlil edilən illər ərzində kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq iqtisadi fəaliyyət növü üzrə sosial-iqtisadi göstəricilərin heç də hamısında yaxşılaşma müşahidə edilməmişdir. Dünyanın bütün ölkələrində olduğu kimi, ölkəmizin bu həyati əhəmiyyətə malik sahəsində də problemlər mövcuddur və bu problemlər əksər ölkələrə xas olan problemlərdir.

Ölkəmizin aqrar-ərzaq kompleksində müşahidə edilən problemləri aşağıdakı cədvəldə göstərildiyi kimi formalaşdırmaq və sistemləşdirmək olar (cədvəl 3)

Cədvəl 3.

Dayanıqlı İnkişaf Məqsədləri üzrə Azərbaycanın aqrar-ərzaq kompleksinin əsas problemləri

Qlobal gündəliyin məqsədləri	Problemlərin formalaşdırılması
1	2
DİM 1. Yoxsulluğun bütün formalarına son qoymaq	Aqrar-ərzaq kompleksinin mühüm vəsiləsi kimi kənd təsərrüfatında çalışanların gəlirlərinin aşağı səviyyədə olması
	Ev təsərrüfatının gəlirlərində kənd təsərrüfatı məhsullarının satışından daxil olan gəlirlərin payının azalması.
DİM 2. Aclığın ləğvi, ərzaq təhlükəsizliyinin təmin olunması və kənd təsərrüfatının dayanıqlı inkişafı	Əhalinin müxtəlif təbəqələrində balanslı və yaxud tamqiymətli qidalanma ilə bağlı problemin mövcudluğu.
	Bəzi ərzaq məhsullarına (balıq və balıq məhsullarına) iqtisadi əlyetərliyin məhdud olması
	Bəzi qida məhsulları bazarına standartlara cavab verməyən və keyfiyyətsiz məhsulların (yağların və süd məhsullarının) təklifi
	Ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalının (orqanik istehsalın) səviyyəsinin aşağı olması
	Kənd təsərrüfatı məhsulları istehsalçılarında geniş təkrar istehsalın və modernləşdirmənin həyata keçirilməsi üçün vəsait çatışmazlığı
	Bəzi əsas növ ərzaq məhsullarının (ət və ət məhsulları, süd və süd məhsulları) ehtiyatlarının tələbata uyğun miqdarda yaradılmaması və beynəlxalq bazarlardan asılılıq (taxıl və taxıl məhsulları üzrə).
DİM 3. Sağlam həyat tərzinin təmin olunması və rifah halının yaxşılaşdırılması	Kənd yerlərində ana ölümünün səviyyəsinin artması
	Özəl səhiyyə müəssisələrinin xidmətlərinə əlyetərliliyin məhdudluğu
DİM 5. Gender bərabərliyinə nail olmaq	Kənddə əmək şəraitinin şəhərdəki əmək şəraiti ilə müqayisədə nisbətən ağır olması

DİM 6. Hamı üçün təmiz su və sanitariyaya əlçatanlığı təmin etmək	Bəzi hallarda su resurslarından istifadə zamanı israfçılığa yol verilməsi
	Su resurslarının çatışmazlığı
	Su ilə təminatda fasilələrin yaranması
DİM 7. Sərfəli, etibarlı, dayanıqlı və müasir enerji mənbələrinə çıxışın təmin olunması	Enerji effektivliyinin aşağı olması və ümumi enerji istehsalında bərpa olunan mənbələrdən alınan enerjinin payının azalması.
	Bir sıra hallarda enerji ilə təminatda fasilələrin yaranması
DİM 8. Davamlı, inklüziv və dayanıqlı iqtisadi artım, hamı üçün layiqli iş	Gənc və ixtisaslı kadrların axıcılığının müşahidə edilməsi.
DİM 9. İnfrastrukturun inkişafı, inklüziv və dayanıqlı sənayeləşmə və innovasiyalara dəstək	Kənd təsərrüfatı və ərzaq məhsullarının müasir tələblərə cavab verən satış infrastrukturunun zəif inkişafı.
	Xırda kənd təsərrüfatı istehsalçılarının əlverişli satış kanallarına və bazarlara əlyetərliliyinin olmaması
	İnnovasiya və elmi-tədqiqat fəaliyyətinin yüksək olmaması
	Kənd təsərrüfatı məhsullarının emalı sənayesinin zəif inkişafı
DİM 10. Ölkədaxili bərabərsizliyin aradan qaldırılması	Kənd yerlərində həyat keyfiyyətinin şəhərdəki həyat keyfiyyətindən aşağı səviyyədə olması.
	Ölkə daxilində tarazlı inkişafla bağlı problemlər; sahibkarlıq fəaliyyətilə məşğul olan strukturların daha çox paytaxtda cəmlənməsi.
DİM 11. Yaşayış məntəqələrinin açıqlığının, təhlükəsizliyinin, davamlılığının və ekoloji dayanıqlılığının təmin olunması	Urbanizasiya, şəhər ətrafında və kənd yerlərində kortəbii tikililərin artması
	Bəzi hallarda şəhərlərdə yaşıllıqların məhvi
DİM 12. İstehsal və istehlakın səmərəli modellərinə keçidin təmin olunması	Ərzağın istehsalı və istehlakının müxtəlif mərhələlərində itkilərə yol verilməsi
	Təkrar xammalın emalının zəif olması.
	Təhlükəli tullantıların həcminin artması
DİM 13. İqlim dəyişikliyi və onun təsirlərinə qarşı təcili tədbirlər	Kənd təsərrüfatının iqlim dəyişikliyinə neqativ təsiri; iqlim dəyişikliyinin kənd təsərrüfatına neqativ təsiri .
DİM 14. Dəniz ekosisteminin mühafizəsi	Bəzi hallarda dəniz ekosistemində çirklənmələrin müşahidə olunması; Xəzər dənizində suyun səviyyəsinin azalması.
DİM 15. Yer ekosistemin mühafizəsi, meşələrdən səmərəli istifadə, bioloji müxtəlifliyin itirilməsinin qarşısının alınması	Texnoloji prosesin pozulması nəticəsində təbii mühitin çirklənməsi; bioloji müxtəlifliyin azalması və bitkilərin zərərvericilərə və xəstəliklərə qarşı həssaslığının artması.
	Torpaqların deqradasiyasının artması.

Mənbə: müəlliflər tərəfindən tərtib edilmişdir.

Cədvəlin məlumatlarından göründüyü kimi, aqrar-ərzaq kompleksində özünü göstərən problemlər dayanıqlı inkişaf məqsədlərinin on dördü ilə (DİM 1, 2, 3, 5, 6, 7, 8, 9, 10, 11, 12, 13, 14, 15) əlaqəli problemlərdir. Bu problemlərin həlli məqsədilə dayanıqlı inkişaf məqsədləri üzrə

gündəlikdə vəzifələr müəyyənləşdirilmişdir. Bu vəzifələrin ölkəmiz üçün daha adekvat olanlarının yerinə yetirilməsi həmin problemlərin qismən və yaxud tamamilə aradan qaldırılması deməkdir.

Əvvəldə qeyd etdiyimiz kimi, aqrar-ərzaq kompleksinin dayanıqlı inkişafı iqtisadi dayanıqlığı, ekoloji tarazlığı və yaxud bütövlüyü, həmçinin sosial rifahı nəzərdə tutur. Sözügedən kompleksin dayanıqlı inkişafı təhlil edilən zaman hər üç aspektə diqqət yetirilməli və bununla əlaqədar vəzifələr dəqiqləşdirilməlidir.

Dayanıqlı inkişafın birinci məqsədi (DİM1) yoxsulluğun bütün formalarına son qoymaqdır. Bunun üçün aqrar-ərzaq kompleksinin mühüm vəsiləsi kimi kənd təsərrüfatında çalışanların bütövlükdə gəlirlilik səviyyəsi, eyni zamanda onların məhsul satışlarından əldə etdikləri gəlirlər çoxaldılmalıdır. İstehsalçıların məhsul satışından əldə etdikləri gəlirlərin çoxaldılması onların istehsala olan marağının davamlı olması deməkdir. Təəssüflə qeyd etmək lazımdır ki, ölkəmizdə bu sahədə mövcud problem qalmaqda davam edir, belə ki, ərzaq zəncirində kənd təsərrüfatı məhsulları istehsalçıları gəlir əldə etmək baxımından zəif vəsilə kimi çıxış edir ki, bu da onların istehsala marağını azaldır və aqrar-ərzaq kompleksinin dayanıqlı inkişafına neqativ təsir göstərir. Ərzaq kimi istifadə edilən kənd təsərrüfatı məhsulları istehsalçılarının əldə etdikləri gəlirlər bir sıra hallarda onları qane etmir, eyni zamanda həmin məhsulların istehlak qiymətlərinin yüksəlişi istehlakçıların narazılığına səbəb olur. Belə vəziyyət marketinq sisteminin funksionallığının təmin olunmamasının göstəricisidir və bu problemin aradan qaldırılması üçün kənd təsərrüfatı və ərzaq məhsullarının satış infrastrukturu inkişaf etdirilməlidir. Sözügedən infrastrukturun inkişafı 9-cu məqsəddə göstərilir və həmin məqsədin 9.3 vəzifəsinin yerinə yetirilməsini tələb edir. Kənd təsərrüfatı və ərzaq məhsullarının satış infrastrukturunun yaradılması (məsələn, inkişaf etmiş ölkələrdəki kimi, sivil ərzaq bazarlarının təşkili) məhsul istehsalçılarının bilavasitə istehlakçılara çıxışı və onlara daha münasib qiymətə məhsulların təklifi deməkdir. Bu, indiki şəraitdə ərzaq zəncirində iştirakçılar arasında gəlirlərin daha ədalətli bölgüsü və həmin zəncirin fəaliyyətinin dayanıqlılığının təmin edilməsi deməkdir. Məhsul istehsalçılarının gəlirlərinin dayanıqlılığının təmin edilməsi həm də DİM 2 və DİM 12 məqsədləri üzrə vəzifələrin yerinə yetirilməsini tələb edir. Belə ki, məqsəd 2-nin 2.3 vəzifəsi xırda ərzaq istehsalçılarının gəlirlərinin artırılmasını, məqsəd 12-nin 12.3 vəzifəsi isə ərzaq sistemində itkilərin və tullantıların azaldılmasını nəzərdə tutur. Ərzaq sistemində itkilərin azaldılması da sivil satış sisteminin təşkilindən asılıdır.

Ərzaq məhsullarının istehsalı və bölüşdürülməsi sistemində hazırda qərarlaşmış situasiya bu sistemdə həm problemlərin, həm də imkanların mövcudluğunu göstərir. Bu problemlərin həlli sözügedən sistemin və bütövlükdə aqrar-ərzaq kompleksinin dayanıqlı inkişafına töhfə deməkdir.

Sosial dayanıqlılıq aqrar-ərzaq kompleksində məşğul olanların əsas hüquqlarının və layiqli həyat şəraitinin təmin olunmasını nəzərdə tutur. Dayanıqlı inkişafın bu aspekti məqsəd 8-in 8.5 vəzifəsinin icra edilməsini (tam və məhsuldar məşğulluğa nailolma və hamı üçün layiqli həyat şəraiti) nəzərdə tutur. Bu sahədə məşğulluğun yüksəldilməsi aqrar-ərzaq kompleksinin harmonik inkişafının təmin olunmasından asılıdır. Belə ki, hazırda kənd təsərrüfatında çalışanlar emal və qida sənayesində çalışanlardan dəfələrlə çoxdur. Bütün bunlarla yanaşı, kənd yerlərinə gənclərin işə düzəlməsi heç də asan məsələ deyil. Bu sahədə müşahidə edilən problemin aradan qaldırılması üçün iqtisadi rayonlarda emal və qida sənayesi müəssisələri yaradılmalı və həmin müəssisələrlə yerli xırda əmtəə istehsalçıları arasında kooperasiya və inteqrasiya əlaqələri formalaşdırılmalı və inkişaf etdirilməlidir. Bu, iqtisadi və sosial aspektdə dayanıqlı inkişafa müəyyən təkan verə bilər. Belə ki, bu halda bir tərəfdən yerli xırda məhsul istehsalçılarının zəruri gəlirlilik səviyyəsi (iqtisadi aspekt) təmin oluna, başqa bir tərəfdən emal müəssisələrinin yaradılmasına nailolma və onların kənd təsərrüfatının güclü lokomotivinə çevrilməsi məşğulluğun təmin olunma səviyyəsinin yüksəlişinə (sosial aspekt) gətirib çıxara bilər.

Ekoloji dayanıqlılıq təbii resurslardan səmərəli və dayanıqlı istifadəni və bu zaman ətraf mühitə antropogen təsirlərin minimuma endirilməsini nəzərdə tutur. Məqsəd 2 üzrə 2.4 (ərzağın dayanıqlı istehsalı) və 2.5 vəzifələri (biomüxtəliflik), məqsəd 6 üzrə 6.4 vəzifəsi (sudan istifadənin səmərəliliyi), məqsəd 12 üzrə 12.1 (dayanıqlı istehsal və istehlak), 12.2 vəzifələri (təbii resurslardan

səmərəli istifadə), həmçinin 13 (iqlim dəyişikliyi), 14 (dəniz ekosistemlərinin qorunması) və 15-ci (meşə və torpaq) məqsədlər üzrə müxtəlif vəzifələr aqrar-ərzaq kompleksinin dayanıqlı fəaliyyətilə əlaqədardır və həmin vəzifələrin yerinə yetirilməsinə xüsusi fikir verilməlidir.

Gündəliyin 13-cü məqsədi iqlim dəyişikliyi ilə bağlı məsələləri əhatə edir və onun nəticələri ilə bağlı məsələlərin həllini nəzərdə tutur. Bütövlükdə dünyada və Azərbaycanda iqlim dəyişikliyi ekstremal hava şəraitinin formalaşmasına və bununla əlaqədar istiliklə bağlı streslərin çoxalmasına gətirib çıxarmışdır. Belə hava şəraiti aqrar-ərzaq kompleksinə təsirsiz ötüşmür, belə ki, təbii fəlakətlərin və quraqlığın, həmçinin torpaq sürüşmələrinin artması təbii resursların deqradasiyasına gətirib çıxarır ki, bu da dayanıqlı inkişafa mənfi təsir göstərir. Bu istiqamətdə Azərbaycanın aqrar-ərzaq kompleksi üçün yerinə yetirilməli olan ən mühüm vəzifə ətraf aləmə antropogen təsirlərin mümkün qədər azaldılması və yaxud tamamilə aradan qaldırılmasıdır.

Ölkəmiz üçün dəniz ekosisteminin təmizliyinin qorunub saxlanılması son dərəcə aktual olan vəzifələrdəndir. 14-cü məqsəd çərçivəsində nəzərdə tutulan bu vəzifənin yerinə yetirilməsi Azərbaycanın potensial tutumu çox olan balıq və balıq məhsulları bazarına məhsul təklifinin artımına, əhalinin bu məhsullara tələbatının daha dolğun ödənilməsinə və keyfiyyətli qidalanmaya gətirib çıxara bilər. Bu baxımdan bu məqsəd çərçivəsində vəzifələrin yerinə yetirilməsi həm də 2-ci məqsəd üzrə müəyyənləşdirilmiş problemin (tamqiymətli qidalanma probleminin) həlli deməkdir. Təəssüflər olsun ki, bu sahədə də hələlik problemlər mövcuddur, belə ki, Xəzər dənizinə çirkab sularının axıdılması halları son dövrlər də müşahidə edilir və dənizin səviyyəsində azalmalar özünü göstərir. Gündəliyin 14-cü məqsədi çərçivəsində nəzərdə tutulan vəzifələrin bu sahədə ölkəmizin milli siyasəti ilə uzlaşdırılması Xəzər dənizinin resurslarının qorunub saxlanılmasına və onlardan daha rasional istifadəyə gətirib çıxara bilər.

İqlim dəyişikliyi ilə yaranmış problemin həlli, eyni zamanda kənd ərazilərinin inkişaf etdirilməsi, bioloji müxtəlifliyin qorunub saxlanılması və torpaqların deqradasiyasının qarşısının alınması meşələrdən səmərəli istifadəni şərtləndirir və yer ekosisteminin mühafizəsini tələb edir. Sadalanan məsələlərin həlli ilə bağlı vəzifələr 15-ci məqsəd çərçivəsində nəzərdə tutulmuşdur. Bu vəzifələr sırasında ölkəmiz üçün torpaqların deqradasiyasının qarşısının alınması (2015-2022-ci illərdə 9,6%-dən 10,4%-ə qədər artmışdır) daha aktualdır. Çünki torpaq kənd təsərrüfatında əvəzolunmaz və başlıca istehsal vasitəsidir. Lakin, təəssüflə qeyd etmək lazımdır ki, ölkəmizdə torpaqların deqradasiyasının yüksəldiyi son dövrdə - 2020, 2021 və 2022-ci illərdə onların mühafizəsi və səmərəli istifadəsinə vəsait ayrılmamışdır. 2015-2022-ci illər ərzində ətraf mühitin mühafizəsinə və təbii resurslardan səmərəli istifadə üçün əsas kapitala yönəldilmiş vəsaitin əhəmiyyətli hissəsi (2020, 2021 və 2022-ci illərdə 100%-i) su ehtiyatlarının mühafizəsi və onların səmərəli istifadə edilməsi üçün ayrılmışdır.

Ümumiyyətlə götürüldükdə isə, ölkəmizdə torpaqlardan və su resurslarından istifadənin yaxşılaşdırılması bu sahədə məqsədyönlü investisiya siyasətinin olmasını və texniki baxımdan müdafiə tədbirlərinin işlənib hazırlanmasını və reallaşdırılmasını tələb edir.

Nəticə

Aqrar-ərzaq kompleksi həyati əhəmiyyətə malik sahə kimi ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsinin əsası hesab edilir. Bu sahənin dayanıqlı inkişafından əhalinin müxtəlif təbəqələrinin balanslaşdırılmış qidalanması, məşğuliyyətinin təmin olunması və kənd əhalisinin başqa sosial problemlərinin həll olunması birbaşa asılıdır. Bunun üçün sözügedən sahənin dayanıqlı inkişaf məqsədləri üzrə problemlərinin dəqiqləşdirilməsinə, onların sistemləşdirilməsinə və aradan qaldırılması üçün vəzifələrin müəyyən edilməsinə ehtiyac yaranır. Aparılan tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanın aqrar-ərzaq kompleksində müşahidə edilən problemlər dayanıqlı inkişafın on dörd məqsədilə əlaqəlidir. Bunlar yoxsulluğun bütün formalarına son qoymaq, ərzaq təhlükəsizliyinin təmin olunması və kənd təsərrüfatının dayanıqlı inkişafı, infrastrukturun inkişafı, inklüziv və dayanıqlı sənayeləşmə və innovasiyalara dəstək və s. üzrə olan məqsədlərdir. Bu məqsədlər bir-biri ilə qarşılıqlı əlaqəlidir və məqsədlərdən birinə nailolma üzrə vəzifələrin

yerinə yetirilməsi başqa məqsədlərə nail olmanı asanlaşdırır. Bu məqamlar milli iqtisadiyyatın ayrı-ayrı sahələrinin dayanıqlı inkişaf konsepsiyasının işlənib hazırlanması zamanı nəzərə alına bilər. Bütün bunlarla yanaşı, aqrar-ərzaq kompleksində müşahidə edilən problemlərin müəyyənləşdirilməsi və sistemləşdirilməsi nəinki həmin problemlərin aradan götürülməsinə, eyni zamanda sözügedən sahədə dayanıqlı inkişafla bağlı vəziyyətin aydınlaşdırılması məqsədilə indikatorların işlənib hazırlanmasına imkan verə bilər.

ƏDƏBİYYAT

1. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Azərbaycanın demoqrafik göstəriciləri, DSK, statistik icmal, Bakı-2024. Azərbaycanın kənd təsərrüfatı, DSK, statistik icmal, Bakı-2024. Azərbaycanın milli hesabları, DSK, statistik icmal, Bakı-2024. Azərbaycanda ətraf mühit, DSK, statistik icmal, Bakı-2024.
2. Dayanıqlı İnkişaf Məqsədləri, DSK, statistik icmal, Bakı-2024.
3. Ev təsərrüfatlarının tədqiqinin yekunları, DSK, 2024.
4. Qasımlı, V. Ə. Yaşıl iqtisadiyyat / V. Ə. Qasımlı, R. Z. Hüseyn, R. F. Hüseynov,, R. B. Həsənov, C. R. Cəfərov, A. B. Bayramova. – “Azprint” nəşriyyatı, Bakı, 2022, 280 s.
5. Зеленая экономика и цели устойчивого развития для России: коллективная монография / Под науч. ред. С. Н. Бобылева, П. А. Кирюшина, О. В. Кудрявцевой. – М.: Экономический факультет МГУ имени М. В. Ломоносова, 2019. – 284 с.
6. Зомонова, Э. М. Стратегия перехода к «зеленой» экономике: опыт и методы. Аналитический обзор. Новосибирск, ГПНТБ СО РАН, 2015. 283 с.
7. Ольховая, Г.В. Устойчивость сельского хозяйства как социо–эколого-экономической системы: региональный аспект // Ольховая Г. В., Шамилева Э. Э. – Экономика строительства и природопользования №3 (80), 2021, стр. 64–77. URL: https://cyberleninka.ru/article/n/ustoychivost-selskogo-hozyaystva-kak-sotsio-ekologo-ekonomicheskoy-sistemy-regionalnyy-aspekt
8. Пархоменко, Н.В. Устойчивое развитие сельского хозяйства: проблемы достижения и механизмы поддержания / Н. В. Пархоменко, Л. В. Щукина. – Гомель: ГГТУ им. П. О. Сухого, 2016. – 178. URL: https://elib.gstu.by/bitstream/handle/220612/15122/ustojchivoe_razvitie.pdf?sequence=8&isAllowed=y
9. Ускова, Т.В. Управление устойчивым развитием региона: монография / Т. В. Ускова – Вологда: ИСЭТ РАН, 2009.- 355 с. URL: http://library.vscc.ac.ru/Files/books/1276149294UST_RAZV_USKOVA.PDF
10. Цели в области устойчивого развития. ООН. URL: https://www.un.org/sustainabledevelopment/ru/ sustainable-development-goals/
11. Чередниченко, О.А. Устойчивое развитие агропродовольственного сектора: российские приоритеты и направления адаптации Повестки дня – 2030 // Чередниченко О. А., Довготько Н. А., Яшалова Н. Н. – Экономические и социальные перемены: факты, тенденции, прогноз. Том 11, №6, 2018, стр. 89–108. URL: http://library.vscc.ac.ru/Files/articles/1556001661_89108.pdf

Исмаил Махмуд оглу Хеирхабаров
доцент кафедры «Бизнес и логистика»
Азербайджанского Государственного
Экономического Университета (UNEC)
E-mail: xeyirxeberov@list.ru

Проблемы устойчивого развития агропродовольственного комплекса Азербайджана и пути их преодоления

Резюме

Цель исследования. Целью исследования является выявление и систематизация проблем, связанных с обеспечением устойчивого развития агропродовольственного комплекса, а также определение первоочередных задач по устранению этих проблем.

Методология исследования. В ходе исследования использовались системный и комплексный подход, методы индукции и дедукции, экономико-статистический анализ.

Прикладная значимость исследования. Использование предложений и рекомендаций, отраженных в исследовании, в предприятиях и хозяйствах, входящих в агропродовольственный комплекс, а также при подготовке программных документов, обеспечивающих устойчивое развитие данного комплекса, может обеспечить достижение желаемого развития в части удовлетворения потребностей нынешнего и будущих поколений.

Результаты исследования. Результатом исследования являются разработанные предложения и рекомендации по обеспечению устойчивого развития агропродовольственного комплекса.

Оригинальность и научная новизна исследования. Выявление проблем, препятствующих обеспечению устойчивого развития агропродовольственного комплекса, а также разработанные предложения и рекомендации по их устранению свидетельствуют об оригинальности и научной новизне исследования.

Ключевые слова: зеленая экономика, агропродовольственный комплекс, устойчивое развитие, цели устойчивого развития, сельское хозяйство.

Ismail Mahmud Kheyirkhabarov
associate professor of the "Business and
Logistics" department Azerbaijan State
Economic University (UNEC)
E-mail: *: xeyirxeberov@list.ru*

Problems of sustainable development of the agri-food complex of Azerbaijan and ways to overcome them

Summary

The purpose of the study. The purpose of the study is to identify and systematize problems related to the sustainable development of the agri-food complex, as well as to determine priority tasks for eliminating these problems.

Research methodology. A systematic and comprehensive approach, induction and deduction methods, and economic-statistical analysis were used during the research.

The applied significance of the research. The use of the proposals and recommendations reflected in the research in enterprises and farms included in the agri-food complex, as well as in the preparation of program documents to ensure the sustainable development of the said complex, can enable the desired development in terms of meeting the needs of present and future generations.

Research results. The proposals and recommendations provided for ensuring the sustainable development of the agri-food complex are the results of the research.

Originality and scientific novelty of the research. The identification of problems that present themselves as barriers to ensuring the sustainable development of the agri-food complex and the proposals and recommendations provided for their elimination demonstrate the originality and scientific novelty of the research.

Keywords: green economy, agri-food complex, sustainable development, sustainable development goals, agriculture.

UOT: 332.1:338.24:R11; R12; R58

Eldəniz Məzahir oğlu MƏHƏRRƏMOV
Azərbaycan Kooperasiya Universitetinin dosenti,
iqtisad üzrə fəlsəfə doktoru.
AZ1124, Azərbaycan Respublikası,
Bakı şəhəri, N.Nərimanov küç.93,
E-mail: emeherremov79@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2025.004.319

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA AQRAR SAHƏNİN İNKİŞAFININ DÖVLƏT TƏNZİMLƏNMƏSİ YOLLARI

Xülasə

Tədqiqatın məqsədi Qarabağ və Şərqi Zəngəzurda aqrar sahənin inkişafının dövlət tənzimlənməsi yollarının təkmilləşdirilməsi istiqamətində yeni mexanizmlərin hazırlanmasıdır. Yeni yaradılmış iqtisadi rayonlarda aparılan quruculuq və dirçəliş tədbirləri intensivləşməkdədir. Keçmiş məcburi köçkünlər öz doğma yurdlarına qayıtmaqdadırlar. Bu baxımdan region üçün ənənəvi və səmərəli olan iqtisadiyyat sektoru kimi aqrar sahənin inkişafının dövlət tənzimlənməsinin daha səmərəli təşkilinə ehtiyac vardır.

Tədqiqatın metodologiyası formasında əsasən analiz, sintez, müqayisə və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Bunlarla bərabər, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar sahənin inkişaf etdirilməsi üzrə elmi əsərlərə istinad edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti nöqteyi-nəzərindən qeyd etmək olar ki, məqalədə verilmiş nəticələrdən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar sahənin daha səmərəli fəaliyyət mexanizmlərinin hazırlanmasında istifadə edilməsi mümkündür.

Tədqiqatın nəticələri baxımından bunu qeyd etmək olar ki, göstərilən yeni iqtisadi rayonlarda aqrar sahənin inkişafı ilə bağlı tədbirlər kompleksinin hazırlanmasında məqalənin yekun müddəalarından istifadə etmək məqsədəuyğundur.

Tədqiqatın orijinallığı və elmi yeniliyi kimi qeyd edə bilərik ki, hazırkı dövrdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişaf etdirilməsi mexanizmlərinin maksimum səmərəli və məhsuldar olmasının vacibliyi əsaslandırılmışdır. Regionun inkişaf xüsusiyyətlərinə və resurs təminatına uyğun olaraq bu iqtisadi rayonların iqtisadiyyat quruculuğunda aqrar sahənin rolu təhlil olunmuş və praktiki baxımdan fərqlənən daha səmərəli fəaliyyət mexanizmləri və istiqamətləri verilmişdir. Regionda aqrar sahənin mümkün resurslarının təsərrüfat dövriyyəsinə cəlb edilməsinin vacibliyi diqqətə çatdırılmış və müvafiq fəaliyyət mexanizmləri ilə bağlı təkliflər ümumiləşdirilmişdir.

Açar sözlər: Qarabağ, Şərqi Zəngəzur, iqtisadi rayonlar, aqrar sahə, aqrar sahənin inkişaf problemləri, aqrar sahənin resursları.

Giriş

Müasir qlobal çağırışlar şəraitində iqtisadiyyat sahələrinin inkişaf etdirilməsi kompleks və sistemli yanaşmanı şərtləndirir. Bununla bağlı olaraq, resurslardan səmərəli və məhsuldar istifadə olunması mexanizmlərinin hazırlanması və tətbiqi məsələləri ön plana keçir. Qlobal səviyyədə iqtisadiyyatın səmərəliliyi baxımından kifayət qədər problemlər vardır və belə problemli iqtisadiyyat sahələrindən biri də aqrar sahədir. Dünya ölkələrinin bir çoxunda qlobal ərzaq təhlükəsizliyi problemləri özünü büruzə verməkdədir. Bu bir tərəfdən qlobal iqlim dəyişikliklərinin təsirindən kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsində yaranan çətinliklərlə bağlıdırsa, digər tərəfdən, müasir yüksək texnologiyaların əlçatanlığının əksər ölkələr üçün mümkün olmaması ilə əlaqəlidir. Eyni zamanda, bütövlükdə aqrar sahənin elmi əsaslarla inkişaf etdirilməsi davamlı tədqiqatlar və iri məbləğdə investisiyalar tələb edir. Buna görə də dövlətlərin aqrar siyasətində bu məsələlərin nəzərə alınması və inkişaf istiqamətlərinin adekvat olaraq müəyyənləşdirilməsi tələb olunur.

Azərbaycan müstəqil dövlət kimi öz iqtisadiyyatının strukturunu müəyyənləşdirir və onun təkmilləşdirilməsi ilə bağlı tədbirlər görür. Xüsusilə, iqtisadi rayonların sosial-iqtisadi inkişafına konseptual yanaşmalar mövcuddur və 2004-cü ildən başlayaraq 4 məqsədli Dövlət Proqramı həyata keçirilmişdir. Amma, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bu məsələlər xüsusi yanaşmaları və fərqli fəaliyyət mexaznizmlərinin olmasını şərtləndirir [2]. Ümumən qeyd edə bilərik ki, Azərbaycan dövləti işğaldan azad olunmuş ərazilərin bərpası və dirçəldilməsi istiqamətlərində müəyyən konsepsiya formalaşdırmışdır və özünəməxsus inkişaf modeli tətbiq etmişdir. Yəni, heç bir beynəlxalq maliyyə institutundan, dünya banklarından və ölkələrindən asılı olmayan fəaliyyət modelinə üstünlük vermiş və işğaldan azad olunmuş ərazilərin dirçəldilməsində dövlət büdcəmizin vəsaitləri hesabına maliyyələşdirilən investisiya-innovasiya və sosial-iqtisadi inkişaf layihələrinə üstünlük ön plana çəkilmişdir.

2021-ci ildən başlayaraq dövlət büdcəsindən bununla bağlı məqsədli vəsait ayrılır. Keçmiş məcburi köçkünlərin doğma yurdlarına Böyük Qayıdışının təmin edilməsi üzrə I Dövlət Proqramının həyata keçirilməsinə ümumilikdə 30,5 milyard manat sərf olunacaqdır. Bu proqram çərçivəsində istehsal, sosial, xidmət sahələrinin inkişafı da diqqət mərkəzində saxlanılmaqdadır və əhalinin məşğulluq məsələlərinə də ciddi önəm verirlər. Qeyd olunanlar baxımından aqrar sahənin inkişafı və bununla bağlı səmərəli tədbirlərin görülməsi müstəsna əhəmiyyət kəsb edir [8]. Eyni zamanda, ölkə prezidentinin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan 2030: sosial-iqtisadi inkişaf haqqında Milli Prioritetlər”də iqtisadiyyatımızın şaxələndirilməsi, yaşıl iqtisadiyyatın formalaşdırılması və işğladan azad olunmuş ərazilərin iqtisadiyyat quruculuğunun səmərəli təşkili hədəfləri yer almışdır [1].

Yeni şəraitdə Qarabağ və Şərqi Zəngəzurda aqrar sahənin inkişafının dövlət tənzimlənməsi proseslərinin tədqiqi

Qeyd edək ki, müasir dövrdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışının təmin edilməsi ilə yanaşı, aqrar sahənin inkişaf etdirilməsi tədbirlərinə başlanılmışdır. Ərazilərin minalardan təmizlənməsi, infrastrukturun yaradılması, əkin sahələrinin təhlükəsizliyinin və səmərəliliyinin təmin olunması tədbirləri görülmüşdür. Artıq mümkün olan ərazilərdə kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsinə start verilmişdir. Xüsusilə, ərzaqlıq buğda əkininə prioritetlik verilməkdədir. Laçında aqrar sahənin kompleks və elmi əsaslarla inkişaf etdirilməsi üçün aqrokompleks yaradılmışdır və burada fəaliyyətin təşkili təmin edilmişdir. Yenə Laçında balıqçılığın inkişaf etdirilməsi infrastrukturu formalaşdırılmışdır. Laçın və Kəlbəcər rayonlarında heyvandarlığın inkişafı üzrə mümkün tədbirlər reallaşdırılmaqdadır. Təsərrüfatlar yaradılır və bununla bağlı dövlət tərəfindən fermer təsərrüfatlarına və yerli sakinlərə, ailə təsərrüfatlarına dəstək verilməkdədir.

Qeyd edək ki, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtmasını özündə ehtiva edən I Dövlət Proqramında 100 yaşayış məntəqəsinə Böyük Qayıdış reallaşdırılacaqdır. Bunlardan 8 şəhər, 8 qəsəbə və 84 kənd yaşayış massivlərini qeyd etmək olar. Maraqlıdır ki, kənd yaşayış məntəqələrinin məskunlaşması zamanı həmin ərazilərdə fermer təsərrüfatlarının yaradılması şəraiti də təmin edilir. Digər tərəfdən, bu yaşayış məntəqələrində evlə təmin olunanlar həm də torpaq sahələri ilə təmin edilirlər. Bunlarla bərabər, dövlət strukturları tərəfindən əvvəldə qeyd etdiyimiz kimi birinci növbədə kənd infrastrukturu yaradılır, suvarma sistemləri təşkil edilir və eyni zamanda, deqradasiya olunmuş torpaq sahələrinin təsərrüfat dövriyyəsinə qaytarılması tədbirləri görülür. Burada əkiləcək kənd təsərrüfatı məhsullarının məhsuldarlıq imkanları araşdırılır və fermer təsərrüfatlarına, həmçinin ailə təsərrüfatlarına müəyyən məsləhətlər verilir. Kənd təsərrüfatı texnikası və avadanlıqları ilə güzəştli təmin edilmə mexanizmlərinin hazırlanması və tətbiqi də diqqət mərkəzindədir.

Dövlətimiz tərəfindən işğaldan azad olunmuş ərazilərdə yeni yaradılmış iqtisadi rayonlarda kənd təsərrüfatının yenidən qurulması, kadastr sisteminin tətbiq edilməsi və real kənd təsərrüfatı torpaqlarının potensialının müəyyənləşdirilməsi, bu sahələrdə daha münasib məhsul əkib-becərməyin strukturunun müəyyənləşdirilməsi tədbirləri ön plana çıxmışdır. Bundan əlavə, məlumdur

ki, aqrar sahənin fəaliyyətinin daha səmərəli təmin edilməsi üçün müvafiq kommersiya qurumlarına və tədarük kanallarının (təchizat və satış) təşkilinə, istehsal olunmuş məhsulun itkisiz yığılması, anbarlaşdırılması və emal sahələrinə çatdırılması mexanizmlərinin işlənilməsi, hazırlanması və tətbiqinə zərurət vardır.

Məlumdur ki, dövlət tərəfindən işğladan azad olunmuş ərazilərdə dövlət dəstəyi mexanizmlərinin əhatəsi genişdir, o cümlədən vergi güzəştləri mövcuddur, sığorta faizləri üzrə subsidiyalar var, güzəştli maliyyə-kredit resurslarına çıxış təmin olunub və digər stimullaşdırıcı, dəstəkləyici alətlər dövriyyədədir. Bu baxımdan, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar sahənin inkişaf etdirilməsinin intensivləşdirilməsi üçün daha çox fəaliyyət istiqamətlərinin dövriyyəyə cəlb edilməsi vacibdir. Yəni, bu ərazilərdə dövlət – özəl sektor əməkdaşlığının qanunvericilikdə nəzərdə tutulan mexanizmlərindən səmərəli istifadə edilməsinə ehtiyac qalmaqdadır.

Hesab edirik ki, daha çox stimullaşdırıcı layihələr hazırlanmalı, qrant müsabiqələr keçirilməli və kiçik – orta sahibkarlıq subyektlərinin aqrar sahədə fəallığının artırılması tədbirləri görülməlidir. Kənd Təsərrüfatı Nazirliyinin müvafiq strukturları tərəfindən işğaldan azad olmuş ərazilərdə xüsusi mütəxəssis qruplarının formalaşdırılması və bu sahədə fəaliyyət göstərmək niyyətində olanlara praktiki köməklik göstərilməsi məqsədəuyğundur.

Digər tərəfdən, məlumdur ki, dünya təcrübəsində bölgələrdə kənd təsərrüfatının və aqrar sahənin inkişafına yönəlik layihələr və tədbirlər kompleksi həyata keçirilir. Məsələn, yerli bazarın mühüm ərzaq məhsulları ilə təminatı istiqamətində məhsul istehsalının stimullaşdırılması, yaxud aqrar ixrac məhsullarının çeşidinin artırılması layihələrinin icrasına dəstək mexanizmlərinin artırılması və s. bu kimi motivasiyaedici tədbirlər kimi baxıla bilər. Bundan əlavə, artıq ölkəmizdə qüvvədə olan Vergi Məcəlləsində Kənd təsərrüfatı sferasında bir sıra istiqamətlər üzrə vergidən azadolma, yaxud müəyyən güzəştləri vardır. Məsələn, kənd təsərrüfatı məhsullarının istehsalçıları vergidən azaddırlar, həmçinin ölkə üzrə buğdanın idxal edilməsi və satışı əlavə dəyər vergisindən (ƏDV) azaddır. Ümumiyyətlə, ölkəyə toxum və tinglərin gətirilməsi, həmçinin damazlıq heyvanların idxal edilməsi də ƏDV-yə cəlb olunmur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında böyük perspektivi olan arıçılıq sahəsinin inkişafı üçün də müəyyən stimullaşdırıcı mexanizmlər tətbiq edilmişdir. Buna arıçılıq üçün avadanlıqların idxalı və satışının ƏDV-dən azad edilməsini göstərmək olar. Ölkəmizdə aqrotexniki xidmətlərdən də ƏDV tutulmur. Bu amillər baxımından “İşğaldan azad olunmuş regionlarda dövlət tənzimləmə tədbirlərinin vaxtında həyata keçirilməsi, xüsusilə sabitliyin pozulması ehtimalının mövcud olduğu böhrandan sonrakı şəraitdə daha çox aktualdır. Ona görə aqrar sahədə institusional tənzimləmə tədbirləri iqtisadi və inzibati tədbirlərdən daha tez tətbiq edilmə tələbini formalaşdırır və hazırkı şəraitdə onların qarşılıqlı istifadəsi zəruridir. İşğaldan azad edilən regionların sosial-iqtisadi inkişafının tənzimlənməsinin səmərəli olması üçün mütəmadi korrektə edilən mexanizmlərə ehtiyacı var. Bu baxımdan aqrar sahədə forsaytın tətbiq edilməsi proqnozlardan fərqli olaraq, sistematik düzəlişlər edilərək regionlarda vəziyyəti dəqiq görməyə imkan verir” [5, s. 109]. Eyni zamanda, hesab edirik ki, postkonflikt ərazilərdə aqrar sahənin inkişaf etdirilməsi baxımından zəruri olan mexanizmlərin sistemli şəkildə nəzərə alınması vacibdir [7].

Bunlarla bərabər, aqrar sahənin inkişafı baxımından, Qarabağ və Şərqi Zəngəzurun mövcud potensialı yaxın gələcəkdə daha yaxşı nəticələr verəcəkdir. İqtisadi rayonların yenidən qurulması, onların sosial-iqtisadi və kompleks inkişafının təmin edilməsi yaxın gələcəkdə ölkənin digər iqtisadi rayonlarında da idarəetmə mexanizmlərinin təkmilləşdirilməsinə və əlavə tədbirlərin görülməsinə ciddi əsaslar yaradacaqdır. Analoji prosesləri dərinləşdirmək məqsədilə Azərbaycanın iqtisadi rayonlarında mühüm ərzaq məhsullarının məhsuldar sortlarının yetişdirilməsi, seleksiya işlərinin davam etdirilməsi, həmin sahədə qabaqcıl dünya təcrübəsinin tədqiqi, öyrənilməsi və tətbiqi zəruridir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında təbii sərvətlərdən və torpaq fondlarından səmərəli istifadə etməklə aqrar sahənin fəaliyyətini müasirliyin tələblərinə uyğunlaşdırmaq üçün ərazilərin resurs potensialını və xüsusilə aqrar sahənin inkişafı üçün mövcud imkan və ehtiyatlar diqqətlə öyrənilməli, məqsədli dövlət proqramları hazırlanmalı və kompleks tədbirlər

görülməli, ölkəmizin iqtisadi rayonlarında mühüm ərzaq məhsulu olan buğdanın istehsal sahələrinin genişləndirilməsi və məhsuldarlığının artırılması problemlərinə kompleks və ardıcıl yanaşma təmin edilməli, müxtəlif kənd təsərrüfatı sahələrinin inkişafında qabaqcıl beynəlxalq təcrübə qiymətləndirilməli və yüksək texnologiyaların tətbiqi prioritet olmalı, yaxın gələcəkdə yüksək texnologiyalara əsaslanan emal üçün kənd təsərrüfatı holdinqləri yaradılmalı və ölkəmizdə çoxfunksiyalı şəbəkə emal müəssisələri kompleksi istifadəyə verilməlidir [11, s. 53].

Qarabağ və Şərqi Zəngəzurda aqrar sahənin inkişafında dövlət tənzimlənməsi mexanizmlərinin tətbiqi istiqamətləri

Qeyd edək ki, hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqro-emal müəssisələrinin yaradılması proseslərinə başlanılmış və bununla bağlı tədbirlərin genişləndirilməsi diqqət çəkir. Bu sırada mühüm məsələlərdən biri fermer təsərrüfatlarının və aqroemal müəssisələrinin nəqliyyat-logistika infrastrukturuna çıxışının təmin olunması, toxum və kənd təsərrüfatı gübrələri ilə təminatın gücləndirilməsi və istehsal olunmuş aqrar məhsulların yerli, regional, ölkə və beynəlxalq bazarlara çıxışının yüksək səviyyədə təmin edilməsi müstəsna əhəmiyyət kəsb edir. Məlumdur ki, hər iki iqtisadi rayonda su resurslarının kifayət qədər mənbəyi vardır və buna görə də su resurslarından səmərəli istifadə edilməsi infrastrukturunun yaradılması və suvarılacaq torpaq sahələrinin uçotunun dəqiq aparılması ilə yanaşı, digər zəruri tədbirlərin görülməsi də vacibdir. Yeni yaradılmış iqtisadi rayonlarda hələ ki, müvafiq dövlət strukturlarının əlaqəli fəaliyyəti geniş xarakter almayıb və bələdiyyə institutu tam olaraq formalaşdırılmayıb. İdarəetmə strukturu yenidir və əsas diqqət keçmiş məcburi köçkünlərin Böyük Qayıdışdan sonra yarana biləcək gündəlik qayğılarına, problemlərinə yönəldilib. Bu isə təbiidir və qanunauyğundur, amma fikrimizcə, tədricən yerli hakimiyyət orqanları öz fəaliyyətlərini gücləndirdikcə aqrar sahənin inkişafı üçün daha səmərəli və çoxşaxəli dəstək mexanizmlərinin həyata keçirilməsi mümkün olacaqdır.

Оригинальность и научная новизна: Научная новизна исследования заключается в том, что впервые конкурентоспособность пищевой промышленности Азербайджана оценена в сравнительном ключе с опытом разных стран и проведен аналитический анализ на основе институционально-стратегических подходов. Оригинальным вкладом также является предложение конкретных инструментов оценки для формирования конкурентных стратегий местных производителей.

Ключевые слова: конкурентоспособность, пищевая промышленность, модель Портера, технологии, инновации.

Ulvi Elchin Bilal
Doctoral student of Azerbaijan Cooperative University
Email: bilalulvi@gmail.com

Increasing the competitiveness of food producers: conditions and factors

Summary

The main objective of the study: The main objective of this study is to determine the conditions and factors affecting the competitiveness of food industry producers on a scientific basis, to analyze local and international experience in this direction and to propose effective mechanisms that can be applied in Azerbaijan.

Research methodology: Analytical approaches such as systematic analysis, comparative assessment, SWOT, Benchmarking and Porter model were applied during the study. Factors affecting the competitiveness of food producers were assessed using statistics and source-based research. Both quantitative and qualitative methods were applied in the analysis of data.

Applied significance: The research results are of practical importance for manufacturers operating in the food industry in making strategic decisions, in preparing economic promotion and development programs of state bodies, as well as in the application of new product and market-oriented innovative approaches.

Results obtained: As a result of this scientific work, it was determined that the level of technology and innovation has a significant impact on competitiveness; human resource potential and production efficiency directly affect production costs and product quality; infrastructure and logistics capabilities determine product market access and export potential; state support programs are a key condition for the development of the sector; the application of analytical assessment models (SWOT, Porter, etc.) is important in optimizing decisions.

Originality and scientific novelty: The scientific novelty of the research is that for the first time, the competitiveness of the food industry of Azerbaijan has been assessed in a comparative manner with the experiences of different countries and an analytical analysis has been conducted based on institutional-strategic approaches. The original contribution is also the proposal of specific assessment tools for the formation of competitive strategies of local manufacturers.

Key words: competitiveness, food industry, Porter model, technology, innovation.

III BÖLMƏ.
SÜNİ İNTELLEKT, RƏQƏMSAL İQTİSADİYYAT, İNNOVASİYA, MALİYYƏ VƏ NƏQLİYYAT LOGİSTİKASI

UOT 004.3

Aygün Eldar qızı QULİYEVA
i.e.d., prof., Azərbaycan Kooperasiya Univesitetinin
Beynəlxalq əlaqələr və təlim tərbiyə işləri üzə prorektoru
https://doi.org/10.30546/4.71.73001.2025.004.507

RƏQƏMSAL DÖVLƏTDƏN İNNOVATİV İDARƏETMƏYƏ: SÜNİ İNTELLEKT VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIĞIN YENİ MƏRHƏLƏSİ

Xülasə

Tədqiqatın məqsədi - Azərbaycanda rəqəmsal hökumətdən intellektual dövlət modelinə keçid prosesinin təhlil edilməsi və bu keçiddə süni intellektin və beynəlxalq sazişlərin əsas hərəkətverici qüvvələr kimi rolu ön plana çıxarılmasıdır.

Tədqiqatın metodologiyası - bu məqalədə keyfiyyət yönümlü və təsviri-analitik tədqiqat dizaynından istifadə olunur. Diqqət süni intellektin və beynəlxalq sazişlərin Azərbaycanda elektron hökumətin gələcəyini necə formalaşdırmasına yönəldilir. Təhlil keyfiyyət yönümlü sənəd analizi əsasında aparılır və üçsəviyyəli çərçivədən istifadə olunur; burada infrastruktur və məlumat bazası, idarəetmə və tənzimləmə, həmçinin sosial–iqtisadi nəticələr birgə nəzərdən keçirilir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – tədqiqat işindəki araşdırma, təhlil və tövsiyələrdən gələcək işlərdə, ictimai xidmətlərdə süni intellektin real sosial iqtisadi göstəricilərə necə təsir etdiyini təhlil etmək üçün istifadə edilə bilər.

Tədqiqatın nəticələri - nəticə etibarilə belə qənaətə gəlinir ki, mərhələli tətbiq, insan kapitalının inkişafı və ehtiyatlı tənzimləməni birləşdirən “etibarlı süni intellekt” yanaşması intellektual dövlət modelinə keçid üçün ən perspektivli istiqamət kimi çıxış edir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – dövlət idarəçiliyində yaxşı idarə olunan süni intellekt gözləmə müddətini qısaltmağa, daha rahat girişə və sosial proqramların daha yaxşı hədəflənməsinə səbəb ola bilər.

Açar sözlər: Azərbaycan; süni intellekt; elektron hökumət; intellektual dövlət; dövlət idarəçiliyi; beynəlxalq sazişlər.

Giriş

Son iki onillik ərzində bir çox ölkələrdə rəqəmsal hökumətin əsas təbəqəsi formalaşdırılmışdır. Əksər hallarda ilkin islahatlar mövcud inzibati prosedurların onlayn mühitə keçirilməsinə və vətəndaşların standart sənədlər və məlumatları əldə edə bildiyi vahid portalların yaradılmasına yönəlmişdir [13, 22, 23]. Bu mərhələdən irəli gələrək, hazırda müzakirə olunan yeni mərhələdə süni intellekt mövcud rəqəmsal infrastruktura əlavə edilir və gündəlik idarəetmə proseslərində işlərin yönləndirilməsi, risklərin aşkarlanması və sadə qərarların dəstəklənməsi üçün səssiz şəkildə istifadə olunur.

İntellektual dövlət ideyası məhz bu yeni mərhələ ilə əlaqələndirilir. Bu anlayış adətən belə bir vəziyyət kimi təsvir olunur ki, məlumat yönümlü alətlər və öyrənən sistemlər siyasət dövrünün bütün mərhələlərində – problemin müəyyənləşdirilməsi və gündəliyin formalaşdırılmasından tutmuş nəticələrin qiymətləndirilməsinədək – mövcud olur [2, 15, 16]. Bu konsepsiya baxımından süni intellektdən gözləntinin ondan ibarət olduğu qeyd edilir ki, hökumətlər daha çevik reaksiya

versin, daha dəqiq hədəflənmiş proqramlar hazırlasın və xidmətləri daha proaktiv formada təqdim etsin [15, 16, 17]. Eyni zamanda, qeyri-şəffaf alqoritmlər və gizli qərəz riskləri xüsusi vurğulanmış və getdikcə genişlənən ədəbiyyatda hüquqları qoruyan, ictimai etimadı saxlayan məsuliyyətli idarəetmə çərçivələrinin zəruriliyi ön plana çəkilmişdir [18].


Azərbaycan rəqəmsal hökumət nailiyyətləri və SI-ə hazırlıq səviyyəsi

Bu qlobal kontekstdə Azərbaycan rəqəmsal hökumət sahəsində əhəmiyyətli irəliləyiş əldə etmiş ölkə kimi təqdim olunur. “Azərbaycan 2030: Sosial-iqtisadi inkişaf üzrə milli prioritetlər” sənədində rəqəmsal transformasiya, innovasiya və insan kapitalı gələcək iqtisadi siyasətin mərkəzinə yerləşdirilmişdir [19]. Bu baza əsasında Rəqəmsal Transformasiya üzrə Dövlət Proqramı və daha geniş GovTech gündəmi hazırlanmış, Rəqəmsal Hökumət Hazırlıq Qiymətləndirilməsi alətindən istifadə etməklə boşluqlar və prioritetlər müəyyən edilmişdir [22].

Modelin əsas sütunlarını ASAN Xidmət mərkəzləri və DOST şəbəkəsi təşkil etmişdir. ASAN Xidmət vasitəsilə vətəndaşların çoxsaylı inzibati xidmətləri ala bildiyi vahid əlaqə nöqtəsi yaradılmış və bu modelin xırda korrupsiya hallarının azaldılması və dövlətlə daha şəffaf qarşılıqlı əlaqənin təmin edilməsi ilə açıq şəkildə əlaqələndirildiyi bildirilmişdir. DOST mərkəzləri isə əmək və sosial müdafiə sahəsində fəaliyyətə başlamış və hazırda bir pəncərə prinsipi ilə təxminən 160 sosial xidməti təqdim edir, xüsusilə vətəndaş məmnuniyyətinə və rüşvətin qarşısının alınmasına diqqət yetirilir [4, 11]. Bu baxımdan, hər iki institut regionda “vahid pəncərə” konsepsiyasının praktiki nümunələri kimi tez-tez göstərilir.

Bu islahatlar beynəlxalq reytinqlərdə də əks etdirilmişdir. BMT-nin 2024-cü il Elektron Hökumət Sorğusunda Azərbaycan təqribən 0.7607 indeks balı əldə etmiş, 2022-ci illə müqayisədə doqquz pillə irəliləmiş və ilk dəfə çox yüksək göstəricili ölkələr qrupuna daxil olaraq 193 dövlət arasında 74-cü yeri tutmuşdur [23, 8]. Həmçinin qeyd edilmişdir ki, çox yüksək qrupda yerləşən dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələrin payı 3 faizdən 19 faizə yüksəlmiş və Azərbaycan bu dəyişikliyin əsas iştirakçılarından biri kimi qeyd olunmuşdur[5].

Təhlilin başlanğıc nöqtəsi kimi Azərbaycanın qlobal elektron hökumət reytinqlərində mövqeyi götürülür. Birləşmiş Millətlər Təşkilatının Elektron Hökumət Bilik Bazası məlumatına əsasən, Azərbaycanın Elektron Hökumətin İnkişafı İndeksi (EGDI) göstəricisi 2022-ci ildə 0.6937 səviyyəsindən 2024-cü ildə 0.7607 səviyyəsinə yüksəldilmişdir. Həmin dövrdə ölkənin reytinq sırası 83-cü yerdən 74-cü yerə dəyişdirilmiş və ilk dəfə olaraq “çox yüksək EGDI” kateqoriyasına daxil edilmə təmin edilmişdir. Bu irəliləyiş milli mediada Azərbaycan üçün tarixi nəticə kimi xarakterizə edilmişdir. Qlobal səviyyədə isə orta indeks daha mülayim templə, 2022-ci ildə 0.6102-dən 2024-cü ildə 0.6382-yə qədər artırılmışdır. Bu dəyərlər Şəkil 1-də ümumiləşdirilir.



Şəkil 1. Azərbaycan və qlobal orta elektron hökumət indeksi

Mənbə: UN E Government Survey data and national reporting.

Xidmət arxitekturasına gəldikdə, ASAN mərkəzləri, DOST mərkəzləri və elektron portallar vasitəsilə genişmiqyaslı “vahid pəncərə” modeli formalaşdırılmışdır. ASAN Xidmət dövlət xidmətlərinin göstərilməsində mühüm innovasiya kimi təqdim olunmuş və digər ölkələr üçün paylaşılması mümkün olan model kimi təhlil edilmişdir. Sistem elə təşkil edilmişdir ki, müxtəlif xidmətlər fiziki və ya rəqəmsal mühitdə eyni məkanda göstərilsin. Bu üsulla bir çox ayrıca dövlət orqanı ilə birbaşa təmas azaldılmış və qeyri-rəsmi ödənişlər üçün imkanlar məhdudlaşdırılmışdır. DOST mərkəzləri əmək və sosial müdafiə sahəsində əlavə olunmuş və onların daha sürətli və daha şəffaf sosial xidmətlərin göstərilməsi baxımından əhəmiyyətli rol oynadığı barədə məlumat verilmişdir.

Süni intellektə hazırlıq səviyyəsinə münasibətdə, 2025–2028-ci illər üçün Milli Süni İntellekt Strategiyasının qəbul edilməsi yeni mərhələnin başlanğıcı kimi şərh olunur. İctimai şərhlərdə bu strategiya rəqəmsal transformasiyanın növbəti mərhələsi və intellektual texnologiyaların inkişafı üçün əsas çərçivə kimi təsvir edilmişdir. Paralel olaraq süni intellektlə bağlı milli standartlar tətbiq olunmağa başlanmışdır. Süni intellekt idarəetmə sistemləri üzrə AZS ISO IEC 42001 dövlət standartı TK 05 texniki komitəsində aparılan baxışdan sonra Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən təsdiq edilmişdir. Bu standartın süni intellekt texnologiyalarının tətbiqində risklərin idarə olunması, etik prinsiplər və şəffaflıq üçün tələblərin müəyyən edilməsi məqsədilə istifadə olunduğu bildirilməkdədir. Bu yolla dövlət qurumlarında təhlükəsiz və məsuliyyətli süni intellekt istifadəsinə artıq diqqət yönəldildiyi görünür.

Dövlət idarəçiliyində süni intellekt: sosial-iqtisadi inkişaf üçün imkanlar

Siyasətə dair ədəbiyyatda süni intellektin dövlət sektorunda tətbiqi məhsuldarlıq və effektivlik artımı ilə əlaqələndirilmişdir. OECD tərəfindən aparılan təhlillərdə göstərilmişdir ki, rutin tapşırıqların avtomatlaşdırılması, yoxlamaların daha yaxşı hədəflənməsi və fırıldaq hallarının daha dəqiq aşkarlanması inzibati xərcləri və vergi və ya sosial ödəniş sistemlərindəki itkiləri azalda bilər [13, 14]. Dünya Bankının tədqiqatlarında isə iddia edilmişdir ki, rəqəmsal hökumət və GovTech islahatları biznes qurumları üçün tranzaksiya xərclərini azaltmaqla və biznesə başlamaq və ya icazə almaq üçün tələb olunan müddəti qısaltmaqla iqtisadi dayanıqlığı dəstəkləyə bilər.

Süni intellekt həm də artırılmış şəffaflıq və iştirakçılıqla əlaqələndirilmişdir. Məsələn, real vaxt analitikası və açıq məlumat portalları büdcə icrasını və xidmətlərin nəticələrini vizuallaşdırmaq üçün istifadə olunmuş və bu, bəzi kontekstlərdə vətəndaş nəzarətinin güclənməsi və etimad səviyyəsinin artması ilə əlaqələndirilmişdir (7). Bundan əlavə, fərdiləşdirilmiş rəqəmsal köməkçilər və çat-botlar Estoniya, Finlandiya və Sinqapur kimi ölkələrin təcrübəsində zaman və hərəkət imkanları məhdud olan qruplar üçün xidmətlərə çıxışı asanlaşdırmaq məqsədilə tətbiq edilmişdir.

BMT-nin elektron hökumət sorğularına əsaslanan dəlillər göstərmişdir ki, elektron hökumətin inkişaf indeksi üzrə daha yüksək göstəricilərə malik ölkələrdə məhsuldar güclər və insan inkişafı sahəsində daha yaxşı göstəricilər daha tez-tez müşahidə olunur, baxmayaraq ki, səbəb-nəticə əlaqəsi tam şəkildə sübuta yetirilməmişdir. Süni intellektə dair müzakirələr üçün fon təşkil edən elektron hökumət performansının qlobal bölgüsü Cədvəl 1-də ümumiləşdirilir.

Cədvəl 1.

2024-cü ildə EGDI səviyyələrinin qlobal bölgüsü

EGDI qrupu	Ölkələrin sayı	BMT üzvləri arasında payı (%)
Çox yüksək EGDI	76	39
Yüksək EGDI	62	32
Orta EGDI	44	23
Aşağı EGDI	11	6

Mənbə: UN E Government Survey 2024.

Bununla belə, süni intellektin faydalarının avtomatik olmadığı, mövcud idarəetmə mexanizmlərindən, kadr potensialından və məlumatların keyfiyyətindən ciddi şəkildə asılı olduğu dəfələrlə vurğulanmışdır.

Beynəlxalq SI idarəetməsi və ikitərəfli sazişlər

Süni intellekt üzrə beynəlxalq əməkdaşlıq idarəetmənin yeni formalaşan təbəqəsi kimi xarakterizə edilmişdir. OECD-nin Süni İntellekt Məcmuəsində bir çox ölkənin milli süni intellekt strategiyaları qəbul etdiyi və etibarlı süni intellekt, alqoritmik şəffaflıq və dövlət sektorunda istifadə üzrə işçi qruplara qoşulduğu sənədləşdirilmişdir. BMT səviyyəsində isə süni intellekt üçün qlobal idarəetmə çərçivəsi ilə bağlı müzakirələr aparılmış və bu müzakirələr tez-tez rəqəmsal ictimai mallar və dayanıqlı inkişaf məqsədləri ilə əlaqələndirilmişdir.

Məcburi hüquqi tənzimləməyə gəldikdə, Avropa İttifaqının Süni İntellekt Aktı xüsusi diqqət cəlb etmişdir. Bu Akt risk əsaslı model təqdim etmiş, burada qəbuledilməz tətbiqlərin qadağan olunması, yüksək riskli sistemlər üçün ciddi uyğunluq qiymətləndirmələrinin tələb edilməsi və aşağı riskli istifadə halları üçün əsasən könüllü kodekslərin nəzərdə tutulması təsbit edilmişdir. Yüksək riskli müddəaların tətbiqinin müəyyən dərəcədə təxirə salınması və əlaqəli rəqəmsal qanunvericiliyə planlaşdırılan düzəlişlərlə bağlı xəbərlər tənzimləyici yük və innovasiya stimulları arasında tarazlığın necə təmin edilməli olduğu barədə yeni müzakirə açmışdır.

İkitərəfli və regional sazişlərdə süni intellekt və rəqəmsal infrastruktur getdikcə daha çox ayrıca bölmələr kimi daxil edilir. Azərbaycan üçün bir sıra sənədlər xüsusilə əhəmiyyətli olmuşdur. 2025-ci ildə Azərbaycan və Amerika Birləşmiş Ştatları arasında imzalanmış Anlaşma Memorandumu çərçivəsində Süni İntellekt üzrə tərəfdaşlıqlar və rəqəmsal infrastruktur investisiyaları üç prioritet sütundan biri kimi müəyyən edilmişdir. Birləşmiş Ərəb Əmirlikləri ilə əməkdaşlıq, o cümlədən hərtərəfli iqtisadi tərəfdaşlıq sazişləri və Presight AI kimi şirkətlərlə imzalanmış memorandumlar, mətbuatda məlumat mərkəzləri və analitik həllər üçün kapital və ekspertiza cəlb etməyin yolu kimi təqdim edilmişdir. Ədəbiyyatda bu cür sazişlər kiçik dövlətlərin texnologiya və standartlara çıxış əldə etməsinə, eyni zamanda milli siyasət seçimləri üçün müəyyən manevr imkanını qoruyub saxlamasına yardım edən alətlər kimi şərh edilir.

2025–2028-ci illər üçün Milli Süni İntellekt Strategiyası gələcək tətbiqlər üçün əsas milli siyasət çərçivəsi kimi götürülür. Bu sənəddə və ona dair rəsmi açıqlamalarda süni intellekt innovasiya aləti və etik prinsiplərə əsaslanan təhlükəsiz və inklüziv rəqəmsal iqtisadiyyatın qurulması vasitəsi kimi təqdim edilir, xüsusilə etikaya və vətəndaşların gücləndirilməsinə vurğu edilir [10, 3]. İcra prosesi informasiya və kommunikasiya texnologiyaları üzrə TK 05 texniki komitəsinin işi ilə əlaqələndirilmişdir və bu komitəyə süni intellektlə bağlı standartların hazırlanması və təsdiqi üzrə məsuliyyət verilmişdir [1].

Eyni zamanda beynəlxalq sazişlər bu planların reallaşdırılacağı məkanı formalaşdırmaq üçün istifadə edilir. Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan arasında bağlanmış Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi çərçivəsində Presight şirkəti ilə bir sıra Anlaşma Memorandumları imzalanmışdır. Bu memorandumlarda milli süni intellekt strategiyasının icrasına dəstək, konsaltinq xidmətlərinin göstərilməsi, hökumət və təhsil sahəsində süni intellekt texnologiyalarının tətbiqinə yardım, habelə kadr potensialının və innovasiya proqramlarının inkişafına dəstək kimi öhdəliklər təsbit olunur [6, 9, 20].

Bununla yanaşı, mühüm hadisələrdən biri də ABŞ ilə strateji işçi qrupu barədə Anlaşma Memorandumunun imzalanması olmuşdur. Bu memorandumda və rəsmi mətbuat açıqlamalarında əməkdaşlığın daha geniş iqtisadi və təhlükəsizlik gündəmi çərçivəsində rəqəmsal infrastruktur və süni intellekt sahələrinə şamil ediləcəyi qeyd edilir [21, 12]. Bu tərəfdaşlıqlar bir yerdə nəzərdən keçiriləndə, Azərbaycanın formalaşmaqda olan beynəlxalq süni intellekt idarəetmə şəbəkələri daxilində məqsədyönlü mövqeləndirilməsi müşahidə olunur və eyni zamanda dizayn və icra mərhələlərində milli seçimlər üçün müəyyən manevr imkanları saxlanılır.

Nəticə

Nəticədə əsas tapıntılar bir araya gətirilə bilər. Azərbaycan üçün çox yüksək elektron hökumət performansı və yetkin bir pəncərə xidməti modelləri ilə güclü rəqəmsal hökumət bazası sənədləşdirilmişdir. Bu təməl üzərində süni intellekt strategiyası və yeni milli standartlar tətbiq edilmiş və

əhəmiyyətli beynəlxalq tərəfdaşlıqlar qurulmuşdur. Bütövlükdə bu inkişaflar rəqəmsal hökumətdən ağıllı dövlət modelinə keçid üçün əlverişli bir mövqeyə çatıldığını göstərir. Eyni zamanda, süni intellekt təbəqəsinin hələ də inkişaf etdiyi və vacib idarəetmə və etika suallarının açıq qaldığı göstərilmişdir.

Sosial-iqtisadi inkişafa gəldikdə, təhlil göstərir ki, dövlət idarəçiliyində yaxşı idarə olunan süni intellekt gözləmə müddətini daha qısaltmağa, daha rahat girişə və sosial proqramların daha yaxşı hədəflənməsinə səbəb ola bilər. Bu şəkildə vətəndaş məmnuniyyətində, biznes mühitində və regional xidmət təminatında irəliləyişlər gözləmək olar. Zamanla resurslardan daha səmərəli istifadə və korrupsiya risklərinin azaldılması daha yüksək etimada və investisiya üçün daha cəlbedici mühitə töhfə verə bilər. Bununla yanaşı, bu faydaların məlumatların qorunmasına, ədalətə və insan nəzarətinə diqqət yetirilməsindən asılı olduğu da vurğulanmışdır. Əgər bu məsələlər həll olunmazsa, inklüzivliyə və legitimliyə mənfi təsirlər yarana bilər və onları aradan qaldırmaq çətin olacaq.

Nəhayət, gələcək tədqiqatlar üçün bəzi məhdudiyyətlər və istiqamətlər qeyd edilə bilər. Hazırkı tədqiqat siyasət sənədlərinə, hesabatlara və ikinci dərəcəli statistikaya əsaslanmışdır. Vətəndaşlardan, dövlət qulluqçularından və firmalardan birbaşa dəlillər toplanmadığı üçün qavrayışlar və yaşanan təcrübələr ətraflı şəkildə qeyd edilməyib. Gələcək işlərdə, ictimai xidmətlərdə süni intellektin zamanla real sosial-iqtisadi göstəricilərə və etimada necə təsir etdiyini ölçmək üçün sorğular, müsahibələr və eksperimental layihələrdən istifadə edilə bilər. Azərbaycan yolunun spesifik xüsusiyyətləri daha aydın başa düşülməsi üçün regiondakı digər ölkələrlə müqayisəli kəmiyyət tədqiqatları da aparıla bilər. Bu yolla, ağıllı dövlət gündəliyinin necə irəli sürülməsi ilə bağlı qərarları dəstəkləmək üçün daha zəngin dəlil bazası yaradıla bilər.

ƏDƏBIYYAT

1. Azerbaijan Institute of Standardization. (2025). *AZS ISO IEC 42001:2025 Information technologies artificial intelligence management system.* Available at: https://www.azstand.gov.az/
2. Berryhill, J., Kok Heang, K., Clogher, R., & McBride, K. (2019). *Hello, world: Artificial intelligence and its use in the public sector* (OECD Working Papers on Public Governance, No. 36). OECD Publishing. Available at: https://www.oecd.org/
3. Digital Watch Observatory. (2025). *National strategies for artificial intelligence: The case of Azerbaijan.* Available at: https://dig.watch/
4. DOST Agency. (n.d.). *DOST centers.* Retrieved 2025. Available at: https://dost.gov.az/
5. eReforms. (2024). *Azerbaijan promoted to the very high EGDI category.* State Agency for Public Service and Social Innovations. Available at: https://ereforms.gov.az/
6. GCC Business News. (2024). *Presight and Azerbaijan sign agreements to advance the national AI strategy.* Available at: https://gccbusinessnews.com/
7. Matias Pereira, J. (2025). *Use of artificial intelligence in global public administrations: Advances and perspectives.* In *Governance in the public sector.* Available at: https://www.researchgate.net/
8. Mediamark Digital. (2024). *Azerbaijan achieves a historic milestone in a prestigious international ranking.* Available at: https://mediamark.digital/
9. Middle East AI News. (2024). *Presight supports Azerbaijan’s AI ambitions under CEPA framework.* Available at: https://www.middleeastainews.com/
10. Ministry of Digital Development and Transport of the Republic of Azerbaijan. (2025, March 19). *Azerbaijan begins adopting national standards for artificial intelligence implementation.* Available at: https://mincom.gov.az/
11. Ministry of Labour and Social Protection of Population of the Republic of Azerbaijan. (2024). *The Ministry once again took first place in the ASAN Service Index assessment.* Available at: https://sosial.gov.az/
12. Morocco World News. (2025). *United States and Azerbaijan sign memorandum on strategic*

working group. Available at: https://www.moroccoworldnews.com/
13. OECD. (2019). *Using digital technologies to improve the design and enforcement of public policies* (OECD Digital Economy Paper No. 274). Available at: https://www.oecd.org/
14. OECD. (2023). *Governing with AI: Opportunities and challenges for the public sector.* OECD Publishing. Available at: https://www.oecd.org/
15. OECD. (2024a). *Governing with artificial intelligence: Are governments ready?* (OECD Artificial Intelligence Papers, No. 20). OECD Publishing. Available at: https://www.oecd.org/
16. OECD. (2024b). *Futures of global AI governance: Co-creating an approach for transforming economies and societies.* OECD Publishing. Available at: https://www.oecd.org/
17. OECD. (2025). *Governing with artificial intelligence: The state of play and way forward in core government functions.* OECD Publishing. Available at: https://www.oecd.org/
18. Papagiannidis, S., Mikalef, P., & Conboy, K. (2025). Responsible artificial intelligence governance: A review and research framework. *Journal of Strategic Information Systems, 34*, 101885. Available at: https://www.sciencedirect.com/
19. President of the Republic of Azerbaijan. (2021). *Azerbaijan 2030: National priorities for socio-economic development.* Available at: https://president.az/
20. See the Future Today. (2024). *Presight and Azerbaijan deepen collaboration on AI projects.* Available at: https://seethefuturetoday.com/
21. U.S. Department of State. (2025). *Joint statement on the strategic working group between the United States and Azerbaijan.* Available at: https://www.state.gov/
22. World Bank. (2021a). *South Caucasus GovTech for Azerbaijan: A whole-of-government approach as a key foundation for the digital economy in Azerbaijan.* World Bank. Available at: https://www.worldbank.org/
23. World Bank. (2021b). *GovTech Maturity Index: The state of public sector digital transformation.* World Bank. Available at: https://openknowledge.worldbank.org/

Айгюн Эльдар кызы Гулиева
доктор экономических наук, профессор
проректор Азербайджанского Университета Кооперации

От цифрового государства к инновационному управлению: искусственный интеллект и новый этап международного сотрудничества

Резюме

Цель исследования - проанализировать процесс перехода от цифрового правительства к модели интеллектуального государства в Азербайджане и выдвинуть на первый план роль искусственного интеллекта и международных соглашений как основных движущих сил в этом переходе.

Методология исследования - в данной статье используется качественно-ориентированный и описательно-аналитический дизайн исследования. Основное внимание уделяется тому, как искусственный интеллект и международные соглашения формируют будущее электронного правительства в Азербайджане. Анализ проводится на основе качественно ориентированного анализа документов и использует трехуровневую структуру, в которой инфраструктура и база данных, управление и регулирование, а также социально–экономические результаты рассматриваются совместно.

Практическая значимость исследования - исследования, анализы и рекомендации в исследовательской работе могут быть использованы для анализа того, как искусственный интеллект влияет на реальные социально-экономические показатели в будущих исследованиях, государственных службах.

Результаты исследования - в заключение делается вывод о том, что наиболее перспективным направлением перехода к модели интеллектуального государства выступает подход “надежный искусственный интеллект”, сочетающий поэтапное внедрение, развитие человеческого капитала и осторожное регулирование.

Оригинальность исследования и научная новизна исследования – хорошо управляемый искусственный интеллект в государственном управлении-могут привести к сокращению времени ожидания, более удобному доступу и лучшему таргетингу социальных программ.

Ключевые слова: Азербайджан; искусственный интеллект; Электронное правительство; интеллектуальное государство; государственное управление; международные соглашения

Aygun Eldar Guliyeva
Doctor of Economic Sciences, Professor
Vice-Rector of the Azerbaijan Cooperation University

From the digital state to innovative management: artificial intelligence and a new stage of international cooperation

Summary

The purpose of the study - is to analyze the process of transition from digital government to intellectual state model in Azerbaijan and bring to the fore the role of artificial intelligence and international agreements as the main driving forces in this transition.

Research methodology - this article uses quality-oriented and descriptive-analytical research design. The focus is on how artificial intelligence and international agreements shape the future of e-government in Azerbaijan. The analysis is carried out on the basis of quality–oriented document analysis and uses a three-level framework; here, infrastructure and database, management and regulation, as well as socio-economic results are jointly considered.

Applied significance of the study – the research, analysis and recommendations in the research work can be used in future work, in public services to analyze how artificial intelligence affects real social economic indicators.

The results of the study - as a result, it is concluded that the approach of “reliable artificial intelligence”, combining phased implementation, development of human capital and careful regulation, acts as the most promising direction for the transition to the model of an intellectual state.

Originality and scientific novelty of the study - well-managed artificial intelligence in public administration can lead to shortening the waiting time, more convenient access and better targeting of social programs.

Keywords: Azerbaijan; artificial intelligence; e-government; intellectual state; Public Administration; international agreements

UOT 336

Xanoğlan Əndəlif oğlu HÜSEYNOV
Azərbaycan Kooperasiya Universiteti,
"Maliyyə və bank işi" kafedrasının dosenti, i.f.d.
E-mail: xanoglan.huseynov@aku.edu.az
https://doi.org/10.30546/4.71.73001.2025.004.348

AZƏRBAYCAN RESPUBLİKASININ DAYANIQLI VƏ DAVAMLI İNKİŞAFINDA MAKROİQTİSADİ SABİTLİYİN ROLU

Xülasə

Tədqiqatın məqsədi dayanıqlı və davamlı inkişafın təmin edilməsində makroiqtisadi sabitliyin rolunun araşdırılması və bu məqsədlə müvafiq tövsiyələrin verilməsindən ibarətdir.

Tədqiqatın metodologiyası: Məqalədə statistik metodlar, analiz, ümumiləşdirmə metodlarından istifadə olunmuşdur.

Tədqiqatın tətbiqi əhəmiyyəti: Məqalədə irəli sürülən tövsiyələrin tətbiqi ölkədə dayanıqlı və davamlı inkişafın təmin edilməsində faydalı ola bilər.

Tədqiqatın nəticələri: Dayanıqlı və davamlı inkişafın təmin edilməsində makroiqtisadi sabitliyin rolu və əhəmiyyəti qeyd edilmiş və bəzi tövsiyələr verilmişdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi. Ölkəmizin dayanıqlı və davamlı inkişafı üçün makroiqtisadi sabitliyin təmin edilməsi yolları qeyd edilmişdir.

Açar sözlər: dayanıqlı və davamlı inkişaf, valyuta ehtiyatları, manatın sabitliyi, işsizlik, yoxsulluq, inflyasiya, neft-qaz və qeyri-neft sektoru.

Giriş

Dünyada baş verən iqtisadi proseslərə rəğmən dayanıqlı və davamlı inkişaf və onun təmin olunması problemləri elmi dairələrin, tədqiqatçıların və dövlətin daim diqqət mərkəzinə çevrilmişdir.

Müasir dövrdə dayanıqlı və davamlı inkişaf dövlətin fəaliyyətinin və makroiqtisadi proseslərin əsasını təşkil edir.

Hazırda ölkəmizin uzunmüddətli sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq iqtisadiyyatın dinamik inkişafını və rəqabətqabiliyyətliliyini yüksəltmək dövlətin qarşısında duran mühüm vəzifələrdən biridir.

Milli iqtisadiyyatın inkişaf etdirilməsi məqsədilə respublikamızda reallaşdırılan iqtisadi siyasət çərçivəsində dayanıqlı və davamlı inkişaf, iqtisadiyyatın modernləşdirilməsi, makroiqtisadi sabitliyin möhkəmləndirilməsi və qeyri-neft sektorunun inkişafı sahəsində müxtəlif tədbirlər həyata keçirilmişdir. Bu tədbirlərin icrası davamlı iqtisadi inkişafın təmin edilməsi üçün real zəmin yaratmışdır.

Ölkəmizdə qeyri-neft sektorunun inkişafında kənd təsərrüfatı, turizm, emal sənayesi və informasiya-kommunikasiya texnologiyalarının və s. inkişafı prioritet təşkil edir.

Davamlı inkişaf ilk növbədə cəmiyyətdə yoxsulluğun və işsizliyin azaldılmasını nəzərdə tutur. BMT-nin təşəbbüsü ilə 2000-ci ildə keçirilmiş "Minilliyin Forumu"nda yoxsulluğun azaldılması məsələsinə xüsusi diqqət verilərək davamlı inkişafın əsas meyarı kimi qiymətləndirilmişdir.

İqtisadi inkişafın mühüm şərtlərindən biri səmərəli investisiya siyasətinin həyata keçirilməsindən ibarətdir. Bu baxımdan investisiyalar davamlı iqtisadi inkişafın təmin olunmasının əsas vasitələrindən biridir.

Ölkəmizdə səmərəli investisiya siyasətinin həyata keçirilməsi, investorların hüquqlarının qorunması, əlverişli investisiya mühitinin formalaşdırılması, makroiqtisadi sabitliyin təmin edilməsi sahəsində görülən tədbirlər investorların marağının təmin edilməsinə, xarici investorların cəlb edilməsinə və investisiya qoyuluşunun həcminin artmasına şərait yaratmışdır.

***

XX əsrin sonlarında dayanıqlı və davamlı cəmiyyətə keçid haqqında bir çox təlim və konsepsiyalar yaranmışdır. Hələ 1984-cü ildə BMT Baş Katibinin təşəbbüsü ilə BMT-nin nəzdində “Ətraf mühit və inkişaf” üzrə Beynəlxalq Komissiya yaradılmışdır. Komissiyanın əsas vəzifəsi dünya ölkələrinin davamlı inkişafını nəzərdə tutan ətraf mühit və inkişaf üzrə uzunmüddətli strateji proqram hazırlamaqdan ibarəti idi [4, s. 17-18].

1987-ci ildə 23 ölkənin ekspertlərinin köməyilə “Bizim umumi gələcəyimiz” adlı konsepsiya hazırlanmış və BMT-yə təqdim edilmişdir. Bu konsepsiyanın əsas məğzi “gələcək nəsillərin həyatını təhlükə altına qoymadan sosial, iqtisadi və ekoloji cəhətdən indiki nəsillərin tələbatının normal ödənilməsi”ndən ibarətdir. Məqsəd gələcək nəsillərin öz tələblərini yerinə yetirmək qabiliyyətinə xələl gətirmədən indiki ehtiyacı ödəməkdir [5, s. 191].

1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilmiş ətraf mühit və inkişaf üzrə BMT-nin konfransı müasir cəmiyyətin davamlı inkişafa keçid konsepsiyasını qəbul etmişdir. Bu sənəd təkcə ərtaf mühitin mühafizəsilə məhdudlaşmır, eyni zamanda ayrı-ayrı ölkələrdə uzunmüddətli iqtisadi, sosial və ekoloji inkişaf strategiyasını nəzərdə tutan bütöv bir “Davamlı inkişaf” adlı konsepsiyanı təşkil edir.

Qəbul edilən sənədlərdən göründüyü kimi, əsas diqqət ətraf mühitin mühafizəsi və biomüxtəlifliyin qorunub saxlanmasına yönəlsə də, bütövlükdə əsas istiqamət planetdə normal həyatın saxlanması, təbii iqtisadi resurslardan qənaətlə və səmərəli istifadəni əhatə edir.

BMT-nin konfransından sonra 2000-ci ildə “Minilliyin Forumu” keçirilmiş və bu Forumda iştirak edən dünyanın 147 ölkəsinin dövlət və hökumət nümayəndələri qlobal miqyasda davamlı inkişafa nail olmaq məqsədilə “Minilliyin Bəyannaməsi”ni qəbul etmişlər. O vaxt Azərbaycan dövlətinin başçısı kimi Ümummilli Lider Heydər Əliyev də bu Forumda çıxış edərək bu məsələyə öz münasibətini bildirmişdir.

“Minilliyin Bəyannaməsi”ndə dünya əhalisinin həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilən problemlərin həlli əsas prioritet kimi nəzərdə tutulmuşdur. Bu məqsədlər aşağıdakı kimi qruplaşdırılmışdır: ifrat yoxsulluğun və aclığın aradan qaldırılması; ümumi ibtidai təhsilə nail olmaq; gender bərabərliyini təmin etmək; uşaq ölümü hallarını azaltmaq; infeksiya xəstəliklərinə qarşı mübarizə aparmaq; ətraf mühitin davamlılığını təmin etmək; davamlı inkişaf üçün qlobal tərəfdaşlığı genişləndirmək [4, s. 36].

Bundan sonra dünya ölkələrində davamlı inkişafa keçid prosesinə başlanmış və 2015-ci ildə BMT-nin Baş Asambleyasının tövsiyəsilə Dünya Sammiti 2015-2030-cu illər üzrə 17 məqsəd irəli sürmüş və 193 ölkə davamlı inkişafla bağlı öhdəlik götürmüşdür.

Davamlı inkişafa dair aparılan tədqiqatlardan belə nəticəyə gəlmək olar ki, davamlı iqtisadi inkişaf resursların indiki və gələcək nəsillər arasında ədalətli bölgüsünə, yəni indiki nəslin tələbatının gələcək nəsillərin tələbatı hesabına ödənilməməsi kimi ideyaya əsaslanır.

Davamlı inkişafın əsas problemləri iqtisadi inkişaf, yoxsulluq, işsizlik, ətraf mühitin mühafizəsi və ərzaq təhlükəsizliyidir [2, s. 20].

Prof. N.Müzəffərli yazır: “İqtisadiyyatın kənar mənfi təsirlərə müqavimət göstərmək qabiliyyəti dayanıqlı inkişafı, yalnız cari inkişaf məqsədlərinə deyil, həm də gələcək inkişaf imkanlarını kifayət qədər yüksək səviyyədə saxlamağa (təbii resursları və onlardan əldə olunan gəlirləri hazırkı və gələcək nəsillər arasında paylaşdırmaq baxımından) hədəflənən inkişafı davamlı inkişaf adlandıra bilərik” [3, s. 225-226].

Hazırda iqtisadi cəhətdən inkişaf etmiş bəzi ölkələrlə müqayisə edilən Azərbaycan Respublikasında yoxsulluğun və işsizliyin azaldılması, iqtisadi artım, təbiətin mühafizəsi kimi göstəricilər davamlı inkişafı şərtləndirən mühüm amillərdən birini təşkil edir.

Beynəlxalq konvensiyalara qoşulan, dünya təsərrüfatına inteqrasiya olunan Azərbaycanda yoxsulluqla mübarizə, işsizliyin azaldılması, iqtisadi artım sosial-iqtisadi siyasətin əsas məqsədinə çevrilmişdir.

Dövlət başçısı tərəfindən 20 fevral 2003-cü ildə təsdiq olunmuş “2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf” və 15 sentyabr 2008-ci

ildə təsdiq edilmiş “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf” Dövlət Proqramları uğurla icra edilmişdir. Nəticədə ölkədə yoxsulluğun səviyyəsi 2003-cü ildəki 49%-dən 2005-ci ildə 29,3%-ə, 2010-cu ildə 9,4%-ə, 2016-cı ildə 5,9%-ə, 2018-ci ildə 5,1%-ə düşmüşdür. Bu göstərici 2020-ci ildə 6,2%, 2021-ci ildə isə 5,9% təşkil etmişdir [4, s. 37].

Respublikamızda davamlı iqtisadi inkişaf üzrə strateji məqsədlərə nail olunması, səmərəli investisiya siyasətinin həyata keçirilməsi və investisiyaların iqtisadi inkişafa cəlb edilməsində əlverişli investisiya mühitinin yaradılması mühüm əhəmiyyət kəsb edir.

Biznes mühitinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlər nəticəsində Dünya Bankı tərəfindən hazırlanan “Doing Business 2020” hesabatına görə ölkəmiz dünyanın 20 ən islahatçı ölkələri sırasında yer almışdır. Kreditlərin alınması üzrə 190 ölkə arasında birinci, biznesə başlama üzrə doqquzuncu olmuşdur.

2003-cü illə müqayisədə iqtisadiyyata yönəldilən investisiyaların ümumi həcmi 3,7 dəfə, o cümlədən xarici investisiyalar 2,7 dəfə, strateji valyuta ehtiyatları 41 dəfədən çox artaraq 01 iyul 2023-cü ildə 65 mlrd. dollara çatmışdır. Bu dövrdə pensiyaların orta məbləği 8 dəfə, minimum əməkhaqqı 4,5 dəfədən çox artmışdır. Ölkədə 1,5 milyondan çox yeni iş yerləri açılmış, yoxsulluğun səviyyəsi 49,0 faizdən 5,9 faizə düşmüşdür.

Təcrübə göstərir ki, xarici investorlar investisiya qoyuluşlarını həyata keçirən zaman əsasən risklərin üç növünü – makroiqtisadi sabitliyi (iqtisadi artımı, inflyasiya səviyyəsini və valyuta məzənnəsinin dəyişilməsini və s.), investisiya mühitinin və vergi qaydalarının dəyişməsini, iqtisadiyyatın tənzimlənməsini və korrupsiya səviyyəsini, ölkədə siyasi sabitliyi və s. nəzərə alırlar [4, s. 164-165].

Ölkəmizdə hər üç istiqamətdə lazımi tədbirlər həyata keçirilmiş və investorların cəlb edilməsi üçün əlverişli şərait yaradılmışdır. Manatın sabitliyi təmin edilmiş, ölkənin valyuta ehtiyatları artmış, tədiyyə balansının müsbət saldosu çoxalmışdır. Təkcə 2024-cü ildə ölkənin valyuta ehtiyatları 5 mlrd. dollardan çox artaraq 72 mlrd. dollara çatmışdır [7, s. 16].

Ümumi daxili məhsulda qeyri-neft sektorunun payı xeyli artmış, ölkə iqtisadiyyatının neft-qaz sektorundan asılılığı azalmışdır. Belə ki, 2022-ci ilə nisbətən 2023-cü ildə neft-qaz sektorunun həcmi 1,7% azaldığı halda, qeyri-neft qaz sektorunun həcmi 3,7% artmışdır ki, bu da ümumi daxili məhsulun həcmində qeyri-neft qaz sektorunun xüsusi çəkisinin 2022-ci ildəki 52,1%-dən 2023-cü ildə 63,1%-ə qalxmasına şərait yaratmışdır. 2025-ci ildə ÜDM-də qeyri-neft sektorunun 75%-dən çox olacağı nəzərdə tutulur [7, s. 6].

Ölkə iqtisadiyyatına yönəldilən daxili və xarici investisiyaların həcmi ildən-ilə artmışdır ki, bu da ölkənin dayanıqlı və davamlı inkişafı üçün əlverişli şərait yaradır. Bunu aşağıdakı cədvəl məlumatlarından daha aydın görmək olar (cədvəl 1).

Cədvəl 1.

2015-2023-cü illərdə Azərbaycan iqtisadiyyatına yönəldilən investisiyaların həcmi

Göstəricilər	2015	2020	2021	2022	2023	2015-ci ilə nisbətən 2023-cü ildə
Cəmi (mln. man.)	20057,4	22484,0	25313,8	29135,1	32080,9	1,6 dəfə
O cümlədən						
Xarici investisiyalar (mln. man.)	10998,9	10413,2	12751,9	14879,3	14671,2	1,3 dəfə
Xüsusi çəkisi, %-lə	54,8	46,3	50,3	51,1	45,7	-9,1
Daxili investisiyalar (mln. man.)	9058,5	12070,8	12561,9	14255,8	17409,7	1,9
Xüsusi çəkisi, %-lə	45,2	53,7	49,6	48,9	54,3	+9,1

Mənbə: www.stat.gov.az (9, s. 789)

Göründüyü kimi, Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşunun həcmi ildən-ilə artaraq 2023-cü ildə 32,1 mlrd. manata çatmışdır ki, bu da 2015-ci ilə nisbətən 1,6 dəfə və ya 60% çoxdur. Eyni zamanda son dörd ildə Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işlərinə 19 mlrd. manat vəsait yönəldilmiş, 2025-ci ilin dövlət büdcəsində isə bu məqsəd üçün 4 mlrd. manat vəsait nəzərdə tutulmuşdur [7, s. 6].

Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə üçün əsas kapitala 2023-cü ildə 595,0 mln. manat vəsait yönəldilmişdir ki, bu da 2022-ci ilə nisbətən 3,7 dəfə çoxdur. Cari ilin dövlət büdcəsində 17%-dən çox investisiya xərcləri nəzərdə tutulmuşdur [7, s. 6].

İqtisadiyyata investisiya qoyuluşunun həcminin artması iqtisadi artıma, yeni iş yerlərinin açılmasına, işsizliyin azalmasına müsbət təsir etmişdir. Bunu aşağıdakı cədvəl məlumatlarından daha aydın görmək olar (cədvəl 2).

Cədvəl 2.

Göstəricilər	2020	2021	2022	2023	2024
1. Ümumi daxili məhsulun artım tempi, %-lə, əvvəlki ilə nisbətən	95,8	105,6	104,7	101,1	104,1
2. İşsizliyin səviyyəsi, %-lə	79	6,0	5,7	5,5	5,4
3. Yoxsulluğun səviyyəsi, %-lə	6,2	5,9	5,5	5,2	5,0
4. Orta aylıq nominal əməkhaqqı (manatla)	707,7	732,1	840,0	933,9	996,8
5. Orta aylıq əməkhaqqının artım tempi, əvvəlki ilə nisbətən, %-lə	111,4	103,4	114,7	111,2	108,0
6. İstehlak qiymətləri indeksi, əvvəlki ilə nisbətən, %-lə	102,8	106,7	113,9	108,3	102,2

Mənbə: www.stat.gov.az (9, s. 55-56, 83, 163, 300) [9, s. 2].

Cədvəldən göründüyü kimi ölkəmizdə əhalinin həyat səviyyəsi əvvəlki illərə nisbətən yüksəlmiş, işsizliyin və yoxsulluğun səviyyəsi aşağı düşmüş, əhalinin gəlirləri artmışdır. Belə ki, 2023-cü ildə respublikamızda işsizliyin səviyyəsi 5,5%, yoxsulluğun səviyyəsi 5,2% təşkil etmiş, istehlak qiymətlərinin 8,3% artımına qarşı orta aylıq əməkhaqqı 11,2% artmış və ya orta aylıq əmək haqqı istehlak qiymətlərinin artımını 30%-ə qədər üstələmişdir. 2025-ci ilin yanvar ayından minimum əməkhaqqı 55 manat artaraq 400 manata, minimum pensiya isə 40 manat artaraq 320 manata çatmış və ya orta hesabla 14-15% artmışdır [7, s. 1]. “Dayanıqlı inkişaf 2023” hesabatına görə Azərbaycan 73,5 bal toplayaraq 166 ölkə arasında 53-cü pillədə qərarlaşmışdır [1, s. 184].

İqtisadi artım həyat səviyyəsinin yüksəldilməsi üçün vacib şərtdir. İqtisadiyyat böyüdükcə iş yerlərinin sayı artır, işsizlik azalır, gəlirlər artır və yoxsulluğun səviyyəsi aşağı düşür. Səhiyyəyə və təhsilə sərmayə qoymağa imkan yaranır [5, s. 193].

İşğaldan azad olan torpaqlarda həyata keçirilən quruculuq işləri ölkə iqtisadiyyatında qeyri-neft sektorunun inkişafına və bu sahədə müəyyən uğurların əldə olunmasına şərait yaradacaqdır. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”dən biri olan işğaldan azad olmuş ərazilərə “Böyük Qayıdışa dair Birinci Dövlət Proqramı”nın icrası bu sahədə müsbət nəticələrin əldə olunmasını təmin edəcək, işğaldan azad olunmuş ərazilərin iqtisadi və sosial dirçəlişini təmin etməklə dayanıqlı və davamlı inkişafa əsaslanan rəqabətqabiliyyətli sahələrin inkişafına, təbii sərvətlərin səmərəli və qənaətli istifadəsinə və ətraf mühitin mühafizəsinə əsaslanan ekoloji təhlükəsizliyin təmin olunmasına, işsizliyin və yoxsulluğun azaldılmasına şərait yaradacaqdır.

Qarşıya qoyulan layihələrin həyata keçirilməsi məqsədilə 2021-2023-cü illərin Dövlət Büdcəsindən işğaldan azad olunmuş ərazilərə 12,1 mlrd. manat vəsait ayrılmışdır [1, s. 246].

Lakin bütün bunlarla yanaşı dünyada baş verən iqtisadi proseslər və qiymətlərin artması ölkə

iqtisadiyyatına da öz mənfi təsirini göstərmişdir. Belə ki, son illər qeyri-neft-qaz sektorunun inkişaf tempi neft-qaz sektorunun inkişafını dəfələrlə üstələsə də (2024-cü ildə müvafiq olaraq 7,3% və 0,5% olmuşdur) ölkə iqtisadiyyatının idxaldan asılılığı hələ də qalmaqda davam edir. Neft-qaz sektoru ixracın 90%-ə qədərini təşkil edir ki, bu da ölkə iqtisadiyyatının dayanıqlı və davamlı inkişafının beynəlxalq bazarda neft-qazın qiymətindən asılı olduğunu göstərir. Ölkə iqtisadiyyatının diversifikasiyası sahəsində bir sıra tədbirlərin görülməsinə baxmayaraq bu sahədə hələ də kifayət qədər uğur əldə edilməmişdir.

Dayanıqlı inkişaf üçün əsas vacib məsələ iqtisadiyyatın perspektiv inkişaf istiqamətləri üzrə hədəflərin düzgün seçilməsi və həmin hədəflərə uyğun strategiyanın formalaşması hesab olunur [6, s. 202].

Ölkə üzrə investisiya qoyuluşlarının iqtisadiyyatın ayrı-ayrı sahələri və regionlar üzrə paylanmasında da disproporsiyalar mövcuddur. Belə ki, vəsaitlərin əsas hissəsi Bakı şəhəri və ona yaxın ərazilərin payına düşür. Xarici investisiyalı müəssisələrin qeyri-neft sektorunda və digər regionlarda fəaliyyətinin təmin edilməsi üçün dövlət səviyyəsində tənzimləmə və təşviq tədbirlərinin gücləndirilməsinə ehtiyac vardır.

Bildiyimiz kimi respublikamız zəngin təbii sərvətlərə, xammal potensialına və əmək ehtiyatlarına malikdir ki, bu resursların dövriyyəyə cəlb edilməsilə ölkənin xarici bazarlara çıxış imkanlarını xeyli artırmaq olar.

Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun inkişafında kənd təsərrüfatı, turizm, emal sənayesi və informasiya-kommunikasiya texnologiyaları və s. prioritet təşkil edir. Ölkəmizdə məşğul əhalinin 40%-ə qədəri bilavasitə kənd təsərrüfatı və turizm sahələrində çalışır. Lakin 2024-cü ilin statistik məlumatlarına görə bu sahələrin inkişafında hələ kifayət qədər yüksək nailiyyətlər əldə edilməmişdir. Belə ki, 2024-cü ildə ümumi daxili məhsul istehsalında kənd və meşə təsərrüfatının payı 5,7%, turizm xidməti 2,4%, informasiya və rabitə sahəsi isə 1,9% təşkil etmişdir. [8, s. 2]

Nəticə

Dayanıqlı və davamlı inkişafa dair aparılan tədqiqatlardan belə nəticəyə gəlmək olar ki, davamlı iqtisadi inkişaf resursların indiki və gələcək nəsillər arasında ədalətli bölgüsünə, yəni indiki nəslin tələbatının gələcək nəsillərin tələbatı hesabına ödənilməsi kimi ideyaya əsaslanır.

Davamlı inkişafın əsas problemləri iqtisadi inkişaf, yoxsulluq, işsizlik, ətraf mühitin mühafizəsi və ərzaq təhlükəsizliyidir.

İqtisadi cəhətdən inkişaf etmiş bəzi ölkələrlə müqayisə edilən Azərbaycan Respublikasında yoxsulluğun və işsizliyin azaldılması, iqtisadi artım və ətraf mühitin mühafizəsi kimi göstəricilər dayanıqlı və davamlı inkişafı şərtləndirən mühüm amillərdən birini təşkil edir. Yoxsulluqla mübarizə, işsizliyin azaldılması, iqtisadi artım sosial-iqtisadi siyasətin əsas məqsədinə çevrilmişdir.

Səmərəli investisiya siyasətinin həyata keçirilməsi, biznes mühitinin yaxşılaşdırılması, makroiqtisadi sabitliyin təmin edilməsi nəticəsində iqtisadiyyata yönəldilən investisiyaların həcmi 2003-cü ilə nisbətən 3,7 dəfə, o cümlədən xarici investisiyalar 2,7 dəfə artmışdır. Ümumi daxili məhsulda qeyri-neft sektorunun payı xeyli artmış, ölkə iqtisadiyyatının neft-qaz sektorundan asılılığı azalmışdır.

Yoxsulluğun səviyyəsinin aşağı salınması və işsizliyin azaldılması ilə əlaqədar qəbul edilmiş Dövlət Proqramlarının icrası nəticəsində 2003-2023-cü illərdə yoxsulluğun səviyyəsi 49%-dən 5,2%-ə, işsizliyin səviyyəsi isə 5,5%-ə düşmüş, orta aylıq əməkhaqqı 933,9 manata çatmışdır.

Lakin bütün bunlarla yanaşı dünyada baş verən iqtisadi proseslər və qiymətlərin artması ölkə iqtisadiyyatına da öz mənfi təsirini göstərmişdir. Belə ki, son illər qeyri-neft sektorunun inkişaf tempi neft-qaz sektorunun inkişafını xeyli üstələsə də (2024-cü ildə müvafiq olaraq 7,3% və 0,5% təşkil etmişdir) ölkə iqtisadiyyatının idxaldan asılılığı hələ də qalmaqda davam edir. Neft-qaz sektoru ixracın 90%-ə qədərini təşkil edir ki, bu da hələ də ölkə iqtisadiyyatının dayanıqlı və davamlı inkişafının beynəlxalq bazarda neft-qazın qiymətindən asılı olduğunu göstərir.

Ölkə iqtisadiyyatının diversifikasiyası sahəsində bir sıra tədbirlərin görülməsinə baxmayaraq

hələ də bu sahədə lazımi uğur əldə edilməmişdir. Belə ki, 2024-cü ildə Ümumi daxili məhsul istehsalında kənd təsərrüfatının payı 5,7%, turizm xidməti 2,4%, rabitə və informasiya texnologiyaları 1,9% təşkil etmişdir.

ƏDƏBİYYAT

1. Azərbayan Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabat. Bakı, 2024.
2. Ə.Nuriyev. Davamlı və tarazlı regional inkişaf. Bakı, 2017.
3. N.Müzəffərli. İqtisadiyyatın sosialyönümlülüyü sağçı və solçu sistemlərdə. Bakı, 2014.
4. E.İbrahimov. Azərbaycan Respublikasında iqtisadiyyatın davamlı inkişafının strateji istiqamətləri. “Kooperasiya” nəşriyyatı. Bakı, 2023.
5. K.Büyüker. Davamlı inkişaf təşəbbüslərinin iqtisadi artıma təsiri. “Kooperasiya” elmi-praktiki jurnalı, 2024, № 3.
6. S.Məmmədov. Milli iqtisadiyyatın strukturunda həyata keçirilən şaxələndirmənin dayanıqlı inkişafın təmin edilməsində rolu. “Kooperasiya” elmi-praktiki jurnalı, 2024, № 3.
7. “Respublika” qəzeti, 28 yanvar, 2025-ci il, s. 1,6.
8. “Azərbaycan” qəzeti, 26 yanvar, 2025-ci il.
9. www.stat.gov.az
10. www.cbar.gov.az

Ханоглан Андалиф оглы Гусейнов
Азербайджанский Университет Кооперации, доцент
E-mail: xanoglan.huseynov@aku.edu.az

Роль макроэкономической стабильности в устойчивом и долгосрочном развитии Азербайджанской Республики

Резюме

Цель исследования изучение роли макроэкономической стабильности в обеспечении устойчивого и долгосрочного развития и предоставление соответствующих рекомендаций для этой цели.

Методология исследования. В статье использованы статистические методы, методы анализа и обобщения.

Прикладная значимость исследования. Реализация рекомендаций, выдвинутых в статье, может быть полезна для обеспечения устойчивого и стабильного развития страны.

Результаты исследования выявили пути обеспечения макроэкономической стабильности для обеспечения устойчивого и стабильного развития.

Оригинальность и научная новизна исследования. Намечены пути обеспечения макроэкономической стабильности для устойчивого и стабильного развития нашей страны.

Ключевые слова: устойчивое и непрерывное развитие, валютные резервы, стабильность маната, безработица, нищета, инфляция, нефтегазовый и ненефтяной секторы

Khanoglan Andalif Huseynov
Azerbaijan Cooperation University, Associate Professor
E-mail: xanoglan.huseynov@aku.edu.az

The role of macroeconomic stability in the sustainable and ongoing development of the Republic of Azerbaijan

Summary

The purpose of the study is to investigate the role of macroeconomic stability in ensuring sustainable and ongoing development and to make appropriate recommendations for this purpose.

Research methodology. The article uses statistical, analysis and generalization methods. Practical significance of the study.

The implementation of recommendations provided in the article can be useful in ensuring sustainable and ongoing (continuous) development in the country.

Research results indicate ways to ensure macroeconomic stability for the achievement of sustainable and ongoing development.

Originality and scientific novelty of the study. The study highlights ways of ensuring macroeconomic stability for sustainable and ongoing development of our country.

Keywords: sustainable and ongoing (continuous) development, foreign exchange reserves, stability of manat, unemployment, poverty, inflation, oil and gas and non-oil sectors.

UOT 33.338.4

Rövşən Ağahüseyn oğlu HƏSƏNOV
Azərbaycan Kooperasiya Universiteti, i.f.d.
e-mail: rh767986@gmail.com,

Şakur Oruc oğlu SƏFƏROV
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının
iqtisadiyyat üzrə fəlsəfə doktoru
e-mail: shakirsafarov02@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.004.353

AZƏRBAYCANIN QLOBAL TİCARƏT ŞƏBƏKƏSİNDƏ MÜHÜM BEYNƏLXALQ NƏQLİYYAT VƏ LOGİSTİKA MƏRKƏZİNƏ ÇEVRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi - Azərbaycan Respublikasının beynəlxalq nəqliyyat sistemini, logistika infrastrukturunu və tranzit imkanlarını təhlil etmək, inkişaf etdirilməsi üçün görülən tədbirləri və perspektivləri təqdim etməkdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti - Azərbaycan Respublikasının strateji mövqeyi, beynəlxalq nəqliyyat dəhlizlərindəki rolu və tranzit potensialı ölkənin iqtisadi, sosial və geosiyasi inkişafına birbaşa təsir edir. Beynəlxalq daşımalar sahəsində qarşıya qoyulan vəzifələr Azərbaycanın qlobal ticarət sistemində rolunu artırmaq, nəqliyyat və logistika sahəsində lider mövqeyə yüksəlmək məqsədini daşıyır.

Tədqiqatın metodologiyası - Azərbaycan Respublikasının beynəlxalq daşımalar sisteminin inkişaf etdirilməsi istiqamətində aparılan araşdırmalar və icra olunan layihələr spesifik metodoloji yanaşmalar tələb edir. Bu metodologiya, nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi, tranzit potensialının artırılması və beynəlxalq ticarətdə mövqeyin gücləndirilməsi üçün hərtərəfli yanaşmanı təmin edir.

Tədqiqatın nəticələri - Azərbaycan Respublikasının beynəlxalq nəqliyyat və logistika sistemində apardığı islahatlar və həyata keçirdiyi layihələr ölkənin bu sahədə mühüm uğurlar əldə etməsinə şərait yaratmışdır. Geniş nəqliyyat infrastrukturunun qurulması, tranzit potensialının artırılması və beynəlxalq standartlara uyğun xidmətlərin təmin edilməsi Azərbaycanın qlobal nəqliyyat şəbəkəsində əsas iştirakçılardan birinə çevrilməsinə imkan tanıyır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - Azərbaycan Respublikasının beynəlxalq nəqliyyat və logistika sistemində həyata keçirdiyi tədbirlər və layihələr ölkənin qlobal ticarət şəbəkəsində mühüm bir mərkəzə çevrilməsinə şərait yaratmışdır. Azərbaycanın geosiyasi mövqeyi, Asiya və Avropa arasında əhəmiyyətli bir nəqliyyat körpüsü kimi yerləşməsi ölkənin tranzit və logistika sahəsindəki potensialını artırmışdır. Bu potensialın reallaşdırılması məqsədilə həyata keçirilən islahatlar beynəlxalq ticarət əlaqələrinin genişlənməsi və dünya bazarlarında mövqeyinin möhkəmlənməsi üçün strateji əhəmiyyət kəsb edir.

Açar sözlər: beynəlxalq nəqliyyat sistemi, logistika infrastrukturu, tranzit potensialı, strateji mövqe, nəqliyyat dəhlizləri, beynəlxalq daşımalar, iqtisadi inkişaf.

Giriş

Nəqliyyat həyatımızda mühüm rol oynamaqla, onun iqtisadi, ictimai və siyasi rolu böyükdür. O, dövlətin iqtisadi bütövlüyünün təmin edilməsinə, regionlarda sosial-iqtisadi inkişaf potensialının artmasına, əhalinin rifah halının yüksəlməsinə, ölkənin bütün regionlarını bütövlüklə əlaqələndirməsinə, biznes və investisiya mühitinin formalaşmasına imkan yaradır. Nəqliyyat vasitələrinin köməyi ilə xammal və materiallar istehsala, istehsal olunan mallar isə istehlakçılara çatdırılır, iqtisadi əlaqələrin təmin edilməsində mühüm əhəmiyyət kəsb edir. Nəqliyyat modlarının köməyi

ilə yükləri və sərnişinləri dünyanın istənilən yerinə asanlıqla çatdırmaq olur. Nəqliyyat sistemi ölkənin milli iqtisadiyyatında mühim yer tutmaqla hər bir ölkənin yerləşdiyi coğrafi mövqeyinə, iqtisadi inkişaf səviyyəsinə görə bir-birindən fərqlənir. Demək olar ki, ölkəmizdə nəqliyyatın bütün sahələri, quru, su, hava və boru-kəməri nəqliyyatları mövcuddur.

Azərbaycanın nəqliyyat və logistika infrastrukturunun inkişafı: Beynəlxalq dəhlizlər, dəniz və boru kəməri layihələri

Ölkəmizdə malların orta və uzun məsafələr üzərindən yükdaşımaları həcminə görə dəmiryol nəqliyyatı 1-ci yer tutur. Daşımaların iş fəaliyyəti, ümumi istifadəli dəmir yollarında qatarların hərəkəti, manevr işi ilə əlaqəli olan yüklərin vaqonlara, konteynerlərə yüklənməsi, yerləşdirilməsi, bərkidilməsi və yüklərin boşaldılması “Azərbaycan Dəmir Yolları” QSC tərəfindən aparılır. ADY-də yükdaşıma fəaliyyətinin müxtəlif növləri (dalan dəmir yoluna vaqonların verilməsi, marşrut üzrə daşınacaq yüklərin mühafizəsi, vaqon tərəzisinin yoxlanılması, plombların satışı, çən vaqonlarının daxildən yuyulub deqazasiya edilməsi və xaricdən yuyulması, stansiya xidmətləri, lokomotiv və vaqon təmiri) üzrə kontragentlərə xidmətlər həyata keçirir. Ölkəmizdə daşınan yüklərin dövriyyəsinə nəzər salsaq yüklərin əsas hissəsini neft məhsulları, taxıl və çörək məhsulları, mineral tikinti materialları, kimyəvi və mineral gübrələr təşkil edir.

ADY transformasiya çərçivəsində rəqəmsal texnologiyalardan istifadə etməklə yükləmə və boşaltma əməliyyatlarını qısa boşaltma vaxtı ilə və yüksək məhsuldarlıqla həyata keçirir. Bu yaxınlarda Asiya İnkişaf Bankı 47 milyon ABŞ dolları həcmində Azərbaycanda dəmir yolları sisteminin rəqəmsallaşmasına dəstək üçün kredit ayırmışdır [1].

ADY yükdaşımalarının keyfiyyətli və vaxtında icrası üçün inkişaf etmiş ölkələrin son istehsalı olan konteynerlər, lokomotivlər, yük vaqonları almaqla hərəkət tərkibi parkını yeniləməkdə davam edir. Sərnişindaşımada ətraf mühitə tullantıları azaltmaq üçün yeni nəsil elektrik qatarlarından istifadə edilir. ADY ənənəvi şirkət nümunəsindən müasir, inteqrə olunmuş, keyfiyyətli xidmətlər göstərən rəqəmsallaşma və logistika sahəsində regionun lider şirkətinə, fəaliyyətini ISO 9001: 2015 beynəlxalq standartlarının tələblərinə uyğun korporativ quruma çevrilməyi, reputasiya və nüfuz qazanmağı hədəfləmişdir [2].

Dəmir yollarına yatırılan irihəcmli kapital qoyuluşları və investisiya layihələri mərhələli şəkildə həyata keçirilir, köhnəlmiş infrastruktur problemi aradan qaldırılaraq infrastruktur yenidən qurulur, innovativ texnologiyalar tətbiq etməklə idarəetmə sistemi optimallaşdırılır, əməliyyatların səmərəliliyi və rəqəmsallaşması uğurla həyata keçirilir. Ərazi bütövlüyümüzü bərpa etdikdən dərhal sonra ölkə başçısının tapşırıqlarına uyğun olaraq işğaldan azad edilmiş ərazilərdə dəmir yolu infrastrukturunun yenidən qurulması, şaxələndirilməsi və təzə xətlərin çəkilməsi əsas prioritetlərdən biri kimi müəyyənləşdirilərək işlərin icrasına start verilmişdir. Bərpa proqramı çərçivəsində “Bərdə-Ağdam”, “Horadiz-Ağbənd” dəmir yolu xətlərinin yenidən qurulması, “Füzuli-Şuşa” yeni dəmir yolu xəttinin inşası və zəruri infrastrukturun yaradılması istiqamətində işlər davam etdirilir.

Dünyanın 100 layihəsi siyahısına daxil olan “Bakı-Tbilisi-Qars” dəmir yolu xəttinin fəaliyyətə başlaması Azərbaycanın xarici siyasət kursunda dövlət təhülkəsizliyinin və suverenliyinin möhkəmləndirilməsinə, eləcə də, ölkəmizə qoyulan investisiyaların həcminin artmasına, ixracyönümlü iqtisadiyyatın inkişaf etdirilməsinə, ixrac, idxal və tranzit malların daşınmasında xarici iqtisadi əlaqələrin genişləndirilməsinə, beynəlxalq miqyasda nüfuzunun yüksəldilməsinə və investorların cəlb olunmasına əhəmiyyətli təsir etməkdədir.

Təsadüfi deyil ki, Davos Forumunun hesabatına əsasən, dəmir yollarının səmərəliliyinə görə ölkəmiz 11-ci yerdədir [3]. Avropa və Asiya qitələrini birləşdirən bu dəmir yolu xətti yüklərin daşınmasına sərf edilən vaxtı 2 dəfədən çox azaltmağa imkan verir. Blok-qatarlar Çindən Azərbaycana orta hesabla 8-10 gün, Gürcüstanın limanlarına isə 12 gün ərzində çatdırılır. BTQ Avrasiya regionunda yerləşən ölkələr arasında iqtisadi inkişafın və beynəlxalq ticarət həcminin artmasına kömək edir.

Beynəlxalq dəhlizlər və infrastruktur müxtəlif ölkələrin iqtisadiyyatına daha sıx inteqrasiyaya imkan yaradır ki, nəticədə bölgədəki iqtisadi sabitliyə və inkişafa töhfə verir. Çin, Mərkəzi Asiya

və Cənub-Şərqi Asiya, o cümlədən digər qonşu ölkələrin BTQ vasitəsilə Avropaya yüklərin daşınması, yeni bazarlara asanlıqla çıxış əldə edə bilməsi Azərbaycanı regional nəqliyyat habına çevirmiş, siyasi və iqtisadi dividentlər qazandırmışdır. Layihə çərçivəsində gələcəkdə Qars və İstanbul şəhərlərinə sərnişin daşımaların həyata keçirilməsi mümkün olacaqdır. 2023-cü il sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Qarsdan Naxçıvana uzunluğu 224 kilometr, 5 stansiyadan ibarət olacaq (Qars-İğdır-Aralıq-Dilucu-Sədərək-Naxçıvan-Culfa) dəmir yolu xəttinin çəkilməsini nəzərdə tutan Qars-Naxçıvan dəmir yolu layihəsinə dair niyyət protokolu imzalamışdır [9].

“Şimal-Cənub” və “Bakı-Tbilisi-Qars” nəqliyyat dəhlizlərinin inteqrasiyası istiqamətində önəmli addımlar atılır ki, bu da respublika ərazisində yeni nəqliyyat qovşağının yaranmasına səbəb olacaqdır. Qlobal və regional nəqliyyat və logistika zəncirinin bir hissəsi kimi rəqabətə davam gətirmək məqsədilə, ölkəmizdən keçən Şimal-Cənub Beynəlxalq Nəqliyyatı Dəhlizi çərçivəsində İran İslam Respublikasının Astara şəhərində illik 4 milyon ton yük əməliyyatlarının aparılması üçün “Astara” dəmir yolu terminalı istifadəyə verilmişdir [7]. Ölkəmiz “Beynəlxalq Dəmir Yolu Yük Daşımaları” (SMQS) haqqında imzalanmış sazişin və “Beynəlxalq Dəmiryol Daşımaları haqqında Konvensiya”nın (KOTİF) üzvüdür.

Müstəqillik qazandıqdan sonra ölkəmizin ilk, ən iri milli aviaşirkəti və milli aviadaşıyıcısı “Azərbaycan Hava Yolları” Dövlət Konserni 7 aprel 1992-ci il tarixində təsis edilmiş, 2008-ci il tarixində adı dəyişdirilərək "Azərbaycan Hava Yolları" (AZAL) Qapalı Səhmdar Cəmiyyəti kimi adlandırılmışdır. Bu gün müasir donanma, uçuşlarının təhlükəsizliyinin təmin edilməsi, səyahətçilərin rahatlığı üçün bilet satışı, təyyarə göyərtəsində göstərilən xidmətlərin yüksək səviyyəsi, personalın nəzakətli davranışı və peşəkarlığı, gözləmə yerlərinin konfortluğu, gömrüksüz ticarət mağazalarının (duty free) və ödənişsiz WiFi zonalarının olması, uçuşların geniş coğrafiyası, yoxlama məntəqəsində sərnişin yoxlamasının sürəti, dünyanın müxtəlif ölkələrinə gündəlik göndərişlər, uğurlu tarif siyasəti milli aviadaşıyıcıya regionun qabaqcıl aviadaşıyıcılar siyahısında olmağa imkan vermişdir. Halhazırda ölkəmizdə Bakı, Naxçıvan, Gəncə, Lənkəran, Qəbələ, Zaqatala kimi beynəlxalq, yerli əhəmiyyətə malik Yevlax və aviasiya uçuşları üçün bağlı olan Xocalı aeroportları mövcuddur.

Ölkəmizdə nəqliyyat-logistika infrastrukturunun yaxşılaşdırılması və ən yüksək səviyyədə hava nəqliyyatı xidmətlərinin göstərilməsi istiqamətində aparılan tikinti işləri ilə, işğaldan azad olunmuş Füzuli, Zəngilan və Laçın şəhərlərində müasir, dünya tələblərinə cavab verən, ICAO və IATA standartlarına uyğun beynəlxalq hava limanları tikilərək istifadəyə verilmişdir. Azərbaycan Hava Yolları” QSC aviaşirkəti İCAO, İATA, ECAC, Dövlətlərarası Aviasiya Komitəsi kimi tanınmış mülki aviasiya birliklərinin tam səlahiyyətli üzvüdür. Azərbaycanın geostrateji mövqeyi, Avropa ilə Asiya qitələri arasında yerləşməsi ölkəmizi əlverişli nəqliyyat-tranzit qovşaqlarından birinə çevirmişdir. Xarici daşımaların fəaliyyətində Bakı-Həştərxan, Bakı-Mahaçqala, Bakı-Ənzəli, Bakı-Bekdaşı, Bakı-Türkmənbaşı, Bakı-Aktau mənzillərini qeyd etmək olar.

Nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, Azərbaycan Respublikasının ərazisindən keçən tranzit yükdaşımalarının artan tələbatının qarşılanması, tranzit potensialının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi və nəqliyyat dəhlizlərinin formalaşdırılması ilə bağlı həyata keçirilən qlobal miqyaslı təşəbbüslərdən biri Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin qovşağında yerləşən müasir dövrün ən son mühəndislik yeniliklərindən olan 25 milyon tona qədər yük daşıma gücünə malik Bakı Beynəlxalq Dəniz Ticarət Limanının (BBDTL) tikintisidir. Bu, “Şərq-Qərb” və “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən və ilk azad ticarət zonası olaraq Azərbaycanın tranzit imkanlarının genişlənməsində, regionun nəqliyyat və logistika mərkəzinə çevrilməsində həlledici rol oynayır.

BBDTL kompleksi beynəlxalq dəhlizlər üzrə ölkəmizə daxil olan yüklərin toplanması funksiyasını yerinə yetirir və multimodal daşımaların ayrılmaz tərkib hissəsi olan BTQ dəmir yolu xətti ilə Avropa istiqamətinə və ya gəmilərlə şərq istiqamətinə səmərəli daşınmasını təmin edir. BBDTL ölkəmizdə dəniz daşımalarının inkişafına öz bəhrəsini verir. Azərbaycan Respublikası 1995-ci ilin may ayından Beynəlxalq Dəniz Təşkilatına (IMO), 4 mart 2016-cı il tarixində Okean və dəniz

mühitinin mühafizəsi, çirklənməsi və qəzaların qarşısının alınması məqsədilə “Birləşmiş Millətlər Təşkilatının Dəniz hüququ haqqında Konvensiyası”na, 4 mart 2016-cı il tarixində “Birləşmiş Millətlər Təşkilatının Dəniz hüququ haqqında Konvensiyası”-na qoşulmuşdur [5].

Azərbaycanda nəqliyyat sisteminin bir qolu olan boru kəməri nəqliyyatının yaranması neft sənayesinin inkişafı və təşəkkülü dövründə başlamışdır. Təbii ki, burada əsas səbəb ölkəmizin ixrac potensialının əsasını qaz, neft və neft məhsullarının təşkil etməsidir. Boru kəmərinin tikintisi böyük maliyyə yatırımları tələb etməsinə baxmayaraq, ölkəmiz üçün neft və təbii qazın nəqlində böyük strateji əhəmiyyətə malikdir. Ölkəmizdə bir neçə mühüm perspektivli qlobal neft-qaz kəməri layihələri həyata keçirilmişdir.

1878-ci ildə Nobel qardaşlarının sifarişi ilə Balaxanı mədənlərindən Qara şəhərdəki Bakı neftayırma zavoduna buxar mühərrikli nasoslarla təchiz olunan 12 km uzunluğunda ilk neft kəməri inşası gerçəkləşdirilmişdir. 1907-ci ildə Bakı-Batumi magistral neft kəmərinin çəkilməsi ilə Bakı nefti dünya bazarına çıxarılmışdır. Bu günkü Azərbaycanda neft Bakı-Novorossiysk, Bakı-Supsa və Bakı-Tbilisi-Ceyhan (1767 km) boru kəmərləri ilə, kommersiya təyinatlı təbii qaz isə Bakı-Tbilisi-Ərzurum, TAP (Trans Adriatik Boru Kəməri) və TANAP (Trans Anadolu Qaz Boru Kəməri) vasitəsi ilə dünya bazarlarına çatdırılır [10].

Avtomobil nəqliyyatı ilə ölkədaxili və beynəlxalq yüklərin daşınması AR qanunvericiliyinə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq konvensiyalara uyğun həyata keçirilir. Ölkəmizdə yüklərin daşınmasının tənzimlənməsində "Yol hərəkəti haqqında" və "Avtomobil nəqliyyatı ilə yüklərin daşınması qaydaları" tətbiq edilir. Bu qanunlar avtonəqliyyat vasitələri ilə yüklərin beynəlxalq və ölkədaxili daşınmasının təşkilini, müxtəlif növ yüklərin daşınmaya qəbul edilmə tələblərini, nəqliyyat vasitələrinin yol hərəkətində iştirak etməyə buraxılmasını, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinin başlıca prinsipləri və s. ilə bağlı tələbləri müəyyən edər. Ölkəmizdə avtomobil yolları sahəsində idarəetmənin, habelə nəzarət mexanizmlərinin daha da təkmilləşdirilməsi, həyata keçirilən işlərin səmərəliliyinin artırılması və sistemliliyinin təmin edilməsi məqsədilə AR Prezidentinin 2017-ci il 18 oktyabr tarixli, 1638 saylı Fərmanı ilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) yaradılmışdır [8].

Azərbaycan Respublikası yüklərin daşınmasını tənzimləyən bir sıra beynəlxalq konvensiyaların iştirakçısıdır. Ölkəmiz 1993- cü ilin noyabr ayında “Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı”na (İRU) üzv olmuş və 2000-ci il 11 fevral tarixində “Beynəlxalq avtomobil daşımaları müqaviləsi”nə (CMR) dair Konvensiyanı imzalamışdır. Bu konvensiya daşıyıcılarla yükgöndərənlər arasında müqavilə münasibətlərini, yaranan iddia və məhkəmələrin baxılma qaydasını tənzimləyir, malların itirilməsi və ya zədələnməsinə görə məsuliyyəti müəyyən edir. Tranzit yükdaşımaların, habelə ölkə iqtisadiyyatının artım tempi nəzərə alınmaqla avtomobil magistrallarının genişləndirilməsi, trafik sıxlığının azaldılması, səyahət vaxtının minumuma endirilməsi, mövcud beynəlxalq və yerli əhəmiyyətli yolların yenidən qurulması ilə irihəcmli investisiyalar qoyulmuşdur.

Azərbaycan Respublikasında son dövrlərdə havaların normadan artıq isti keçməsi və yağıntı miqdarının azalması ilə əlaqədar çaylarda sululuq səviyyəsinin aşağı düşməsi çay nəqliyyatının rolunda azalmalara gətirib çıxarmışdır. Kür Azərbaycanın yeganə çay gəmiçiliyi yolu omaqla, yerli əhəmiyyətli yüklər kiçik çay gəmilərilə Kür çayının mənsəbindən Yevlax şəhərinə qədər daşınır. “AAYDA”,“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC, “ADY” QSC, “Azərbaycan Hava Yolları” QSC, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC, “Dövlət Gömrük Komitəsi” və digər dövlət qurumları arasında beynəlxalq daşımaların daha səmərəli həyata keçirilməsində koordinasiyalı işin qurulması, o cümlədən rəqəmsal sistemlərin qonşu ölkələrin şəbəkələri ilə inteqrasiya prosesini həyata keçirə bilməsi üçün dünya bazarında rəqabət apara bilən milli beynəlxalq nəqliyyat logistika şirkətlərinin yaradılması vacibdir.

Ölkəmizin sosial-iqtisadi və qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, dünya iqtisadiyyatına inteqrasiyası və xarici ticarətin diversifikasiyası kimi milli məqsədlərə nail olunması məqsədilə yük sahibləri üçün satış bazarlarının nəqliyyat və logistika xidmətlərinin tam çeşidinə çıxış imkanları və nəqliyyat əlçatanlığı artırılmalıdır. “Lapis-Lazuli” (Lazurit) marşrutu üzrə

tranzit və nəqliyyat əməkdaşlığına dair Əfqanıstan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə arasında beştərəfli saziş 2017-ci il noyabrın 15-də Aşqabadda imzalanıb. Sənəddə iştirakçı ölkələrin nəqliyyat infrastrukturunun modernləşdirilməsi, həmçinin gömrük rəsmiləşdirilməsi proseduralarının asanlaşdırılması nəzərdə tutulur. Saziş razılıq əldə edən tərəflərin ərazisindən yüklərin fasiləsiz daşınmasına, nəqliyyatın tranzit hərəkəti ilə bağlı məsələlərin və proseduraların sadələşdirilməsinə şərait yaradır, nəqliyyat vasitələrinin, yüklərin və sərnişinlərin təhlükəsizliyini təmin edir.

Nəqliyyat dəhlizinin “Lazurit” adlanması iki min il əvvəl bu marşrutla əfqan lazuriti və digər yarımqiymətli daşların Qafqaza, Balkan ölkələrinə, Şimali Afrikaya və Avropaya daşınması ilə əlaqəlidir. 2018-ci ildə Əfqanıstanın Herat şəhərində Lazurit dəhlizi üzrə yükdaşımalara start verilib. Lazurit dəhlizi layihənin üzv ölkələrinə regional və kontinental ticarət bazarlarına çıxışları şaxələndirmək üçün şərait yaradacaq. Bu da, öz növbəsində, həm bu dəhliz vasitəsilə yük daşıyan ölkələrin, həm də ərazisindən malların tranziti üçün istifadə olunacaq dövlətlərin iqtisadi inkişafına, həmçinin sürətli və ucuz daşımalar hesabına alıcı ölkələrə malları daha ucuz qiymətə əldə etməyə imkan verəcək.

Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafı: Bakı-Tbilisi-Qars dəmir yolu və Ələt İqtisadi Zonası

2017-ci ildə istifadəyə verilən regionumuzun ən iri infrastruktur layihələrindən biri hesab olunan illik 5 milyon ton yükdaşırma gücünə malik “Bakı-Tbilisi-Qars” dəmir yolu xəttinin fəaliyyətə başlaması, həmin marşrut üzrə Çindən Avropaya “Orta Koridor” Dəmir İpək Yolu vasitəsi ilə yükdaşımalarının həyata keçirilməsi Azərbaycanın qitələrarası tranzit imkanlarını genişləndirməkdə davam etdirir. Ölkəmizdə mükəmməl nəqliyyat infrastrukturu yaradılıb və təqdirəlayiq haldır ki, nəqliyyatın bütün sahələrində yeni layihələr reallaşdırılıb.

Təsadüfi deyildir ki, Azərbaycanın yol infrastrukturu beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilib. Elə Davos Ümumdünya İqtisadi Forumunun hesabatında avtomobil yollarının keyfiyyətinə görə Azərbaycan dünyada 34-cü, dəmir yollarının səmərəliliyinə görə isə 11-ci yerdədir. İllik yükdaşırma gücü ilkin mərhələdə 500 000 ton, daha sonra isə 1,5 milyon tona qədər artacağı planlaşdırılan Ələt İqtisadi Zonasında yeni hava limanının tikilməsi nəzərdə tutulur. Bu da öz növbəsində iqtisadi zonalara texnologiya və xammalın daha asan şəkildə gətirilməsinə, istehsal edilən malların xarici bazara çıxarılmasına və tranzit yüklərin daşınmasına kömək olacaq.

44 günlük Vətən müharibəsindəki zəfərdən sonra ölkəmizin ən böyük hədəflərindən biri Zəngəzur dəhlizinin açılması və nəqliyyat-kommunikasiya, logistika imkanlarının genişləndirilməsidir. Zəngəzur dəhlizinin açılması qlobal iqtisadiyyatda ən iri iqtisadiyyata malik ölkələrin, Avropanın, Çinin də marağındadır. Bu, strateji baxımdan iqtisadi inteqrasiyanın genişlənməsinə böyük imkanlar açır.

Zəngəzur dəhlizi Azərbaycanın Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyinin möhkəmləndirilməsinə, beynəlxalq ticarət proseslərinin intensivləşdirilməsinə şərait yaradır. Gələcəyə hesablanmış bu dəhliz vasitəsilə Azərbaycanın onun ayrılmaz tərkib hissəsi olan, uzun illər blokadada qalmış Naxçıvan Muxtar Respublikası ilə birləşdirilməsi təmin edilicək. Bu dəhliz vasitəsilə Azərbaycan qardaş ölkə Türkiyə Cümhuriyyətinə və Avropa ölkələrinə qısa müddətdə yüklərin daşınmasına, bölgənin inkişafının sürətlənməsinə, regionun tranzit və logistik əhəmiyyətinin artırılmasına nail olacaqdır. Bu layihənin perspektivliyini artıran digər bir məsələ qardaş ölkələrin Zəngəzur dəhlizi vasitəsi ilə coğrafi baxımdan birlik və bərabərliyə qovuşmasıdır [4].

Beynəlxalq nəqliyyat və logistika infrastrukturunun inkişafı Azərbaycanın qlobal ticarətdəki rolunun gücləndirilməsinə müsbət təsir göstərir. Bu, iqtisadi artım imkanlarını genişləndirəcək, qarşılıqlı əlaqələrin inkişafına təkan verəcək, malların daşınma vaxtını və xərclərini azaldacaq, habelə beynəlxalq ticarət əməliyyatlarının səmərəliliyini artıracaqdır. Bu məqsədlə nəqliyyat və logistika xidmətləri üçün sərmayə qoyuluşunun stimullaşdırılması mexanizmlərinin hazırlanması, investisiya dəstəyinin gücləndirilməsi və maliyyə dayanıqlılığına nail olunması məqsədilə investorlar üçün əlverişli rəqabət mühitinin təşviq olunmasına, demonopolizasiya prosesinin həyata

keçirilməsinə, ekoloji təmiz və müasir tələblərə cavab verən rəqabətqabiliyyətli nəqliyyat vasitələrinin istifadəsinə, sərhəd-keçid prosedurlarının sadələşdirilməsinə və fəaliyyətinin avtomatlaşdırılmasına, yükdaşımaların qəbul prosedurlarının təkmilləşdirilməsinə, güzəştli şərtlərlə kreditlərin və lizinqlərin verilməsinə, nəqliyyat təşkilatlarına subsidiyaların ayrılmasına, vergi və digər dövlət ödənişləri üzrə güzəştlərin müəyyən edilməsinə yönəldilmiş tədbirlər davam etdirilməlidir.

Nəqliyyat infrastrukturu layihələrini həyata keçirmək və müəyyən edilmiş strateji hədəflərə nail olmaq üçün böyükhəcmli investisiyalar tələb edilir. Nəqliyyat sənayesinin inkişafı ilə bağlı uzunmüddətli məqsədləri dəstəkləmək üçün layihələrin uzunmüddətli maliyyələşdirilməsi imkanlarını asanlaşdıran maliyyə qurumları müəyyən edilməli, büdcə vəsaitləri əsas mənbə olmamalı, əksinə, özəl investisiyaların axını üçün stimul yaradılmalıdır [6]. Beynəlxalq daşımalarda malların uzaq və çətin mövqedə yerləşən ərazilərə etibarlı və sürətli çatdırılmasının həyata keçirilməsi üçün nəqliyyatın müxtəlif modlarının koordinasiyalı inkişafı və onların qarşılıqlı əlaqəsinin təşkil edilməsi mühüm rol oynayır. Nəqliyyat modlarını effektiv şəkildə birləşdirməklə nəqliyyat vasitələrinin səmərəli idarə olunmasına, nəqliyyat sıxlığının qarşısını almağa, yüklərin çatdırılması prosesini optimallaşdırmağa, malların birbaşa alıcıya çatdırılmasına və s. imkan yaranır.

Logistika əməliyyatlarının effektiv idarə edilməsi prosesində mərkəzləşdirilmiş idarəetməyə ehtiyac var. Buna görə də, ölkəmizdə logistika sahəsində informasiya-analitik sistemin yaradılması və inkişaf etdirilməsi, o cümlədən bu sahədə kiberhücumlar və kibercinayətkarlıq təhlükəsizliyini təmin etmək üçün effektiv strategiyaların işlənib hazırlanması xüsusi aktuallıq kəsb edir. Malların və nəqliyyat vasitələrinin hərəkətinin gömrük tənzimlənməsində səmərəlilik beynəlxalq nəqliyyat xərclərinin azaldılmasında, beynəlxalq ticarətin sürətləndirilməsi və iqtisadi imkanların genişləndirilməsində mühüm amildir.

Elektron gömrük bəyannaməsi və avtomatlaşdırılmış gömrük tənzimləməsi istiqamətində həyata keçirilən texnoloji həllər qaçaqmalçılıq və qeyri-qanuni ticarətin, lazımsız gecikmələrin və əlavə məbləğlərin qarşısını alır, malların idxalı, ixracı və tranziti prosedurları barədə sənədləşmə tələblərinin azaldılmasını və məlumatların internet vasitəsilə əldə edilməsini təmin edir, malların müvəqqəti saxlanılması xərclərini optimallaşdırır, gömrük rəsmiləşdirmələrinin vaxtını azaldaraq sərhədlər boyunca yük axınını sürətləndirir. Bu məqsədə çatmaq üçün aşağıdakı təkliflər nəzərə almalıdır:

- Ölkəmizdə beynəlxalq nəqliyyat dəhlizləri boyunca logistika mərkəzlərinin və gömrük anbarlarının sayları artırılmalı;
- Gömrük sahəsində islahatlar aparılmalı, gömrük prosedurları təkmilləşdirilməli;
- Gömrük əməliyyatlarının şəffaflığını artırmaq üçün gömrük rüsumlarının yığımının “ASAN xidmət” mərkəzləri vasitəsilə həyata keçirilməsi təmin edilməlidir.

Nəticə

Azərbaycan Respublikasının beynəlxalq nəqliyyat və logistika sistemində aparılmış tədbirlər və layihələr ölkənin qlobal ticarət şəbəkəsində mühüm bir mərkəzə çevrilməsinə şərait yaratmışdır. Azərbaycan, geosiyasi mövqeyinə əsaslanaraq, Asiya və Avropa arasında nəqliyyat körpüsü kimi strateji əhəmiyyətə malikdir. Həyata keçirilən islahatlar və inkişaf layihələri sayəsində nəqliyyat infrastrukturu modernləşdirilib, tranzit potensialı artırılıb, beynəlxalq standartlara uyğun xidmətlər təmin edilib. Bu tədbirlər ölkənin qlobal ticarətdə mövqeyinin möhkəmləndirilməsinə, iqtisadi artımın təmin edilməsinə və regionda lider mövqeyə yüksəlməsinə töhfə verir.

Azərbaycanın nəqliyyat sahəsindəki irəliləyişləri və layihələri beynəlxalq əməkdaşlığın genişlənməsinə şərait yaradır. “Şərq-Qərb” və “Şimal-Cənub” nəqliyyat dəhlizlərinin inkişafı ilə ölkə Avrasiyanın nəqliyyat və logistika mərkəzinə çevrilməkdədir. Həmçinin Zəngəzur dəhlizi və digər strateji layihələr Azərbaycanın nəqliyyat sahəsindəki əhəmiyyətini daha da artırır. Bu nəticələr beynəlxalq ticarətin sürətləndirilməsi, malların daşınma vaxtının və xərclərinin azaldılması, həmçinin qlobal iqtisadi inteqrasiyanın genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Azərbaycanın əldə etdiyi nailiyyətlər və gələcəkdə reallaşdırılacaq layihələr, ölkənin iqtisadi inkişafı və beynəlxalq arenadakı nüfuzunu gücləndirmək məqsədinə xidmət edir.

ƏDƏBİYYAT

1. Dünya Bankı, Beynəlxalq nəqliyyat infrastrukturunun inkişafı, 2020.
2. Asiya İnkişaf Bankı, Azərbaycanın dəmir yolu sisteminin rəqəmsallaşma layihələri üzrə hesabat, 2022.
3. Davos Ümumdünya İqtisadi Forumu, Beynəlxalq daşımalar üzrə rəqabətqabiliyyətlilik hesabatı: Azərbaycan, 2022.
4. Azərbaycan Respublikası Prezidenti Yanında Strateji Araşdırmalar Mərkəzi, Zəngəzur dəhlizi və regional inteqrasiya perspektivləri, 2023.
5. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı QSC, Trans-Xəzər nəqliyyat dəhlizinin inkişafı haqqında illik hesabat, 2022.
6. Beynəlxalq Nəqliyyat Forumunun İllik Məruzəsi, Beynəlxalq tranzit yükdaşımalarının perspektivləri, 2020.
7. Şimal-Cənub Nəqliyyat Dəhlizi Təşkilatı, Logistika və nəqliyyat zəncirlərində inteqrasiya tədbirləri, 2021.
8. CMR Konvensiyası üzrə hesabat, Beynəlxalq avtomobil daşımaları müqaviləsi çərçivəsində hüquqi və iqtisadi aspektlər, 2020.
9. Bakı-Tbilisi-Qars Layihəsi, Dəmir yolu nəqliyyatının beynəlxalq ticarətə təsiri, 2021.
10. TANAP və TAP boru kəmərləri konsorsiumu, Qlobal enerji daşımaları və Azərbaycanın rolu, 2023.

Ровшан Агагусей оглы Гасанов
Азербайджанский Университет Кооперации
Кандидат экономических наук
электронная почта: rh767986@gmail.com,

Шакур Орудж оглы Сафаров
Азербайджанская Академия Труда и Социальных Отношений
Кандидат экономических наук
электронная почта: shakirsafarov02@gmail.com

Направления превращения Азербайджана в важный международный транспортно-логистический центр в глобальной торговой сети

Резюме

Целью исследования - является анализ международной транспортной системы, логистической инфраструктуры и транзитных возможностей Азербайджанской Республики, а также представление мер, принимаемых для их развития и перспектив.

Практическое значение исследования - стратегическое положение Азербайджанской Республики, ее роль в международных транспортных коридорах и транзитный потенциал напрямую влияют на экономическое, социальное и геополитическое развитие страны. Поставленные задачи в сфере международных перевозок направлены на повышение роли Азербайджана в мировой торговой системе и выход на лидирующие позиции в сфере транспорта и логистики.

Методология исследования - исследования и проекты, реализуемые в целях развития международной транспортной системы Азербайджанской Республики, требуют особых методологических подходов. Данная методология обеспечивает комплексный подход к совершенствованию транспортной инфраструктуры, повышению транзитного потенциала и укреплению позиций в международной торговле.

Результаты исследования - реформы и проекты, реализуемые Азербайджанской Республикой в системе международного транспорта и логистики, позволили стране добиться значительных успехов в этой области. Создание разветвленной транспортной инфраструктуры, увеличение транзитного потенциала и предоставление услуг на уровне международных стандартов

позволят Азербайджану стать ключевым участником мировой транспортной сети.

Оригинальность и научная новизна исследования - реализуемые Азербайджанской Республикой меры и проекты в международной транспортно-логистической системе создали условия для превращения страны в важный центр мировой торговой сети. Геополитическое положение Азербайджана как важного транспортного моста между Азией и Европой увеличило потенциал страны в сфере транзита и логистики. Реформы, проводимые для реализации этого потенциала, имеют стратегическое значение для расширения международных торговых связей и укрепления позиций на мировых рынках.

Ключевые слова: международная транспортная система, логистическая инфраструктура, транзитный потенциал, стратегическое положение, транспортные коридоры, международные перевозки, экономическое развитие.

Rovshan Agahuseyn Hasanov
PhD in Economics, Azerbaijan Universiti of Cooperation,
e-mail: rh767986@gmail.com,

Shakur Oruc Safarov
PhD in Economics, Azerbaijan Academy of Labor and Social Relations
e-mail: shakirsafarov02@gmail.com

Directions for Azerbaijan to become an important international transport and logistic center in the global trade network

Summary

The purpose of the research - to analyze the international transport system, logistics infrastructure and transit opportunities of the Republic of Azerbaijan, to present the measures taken and prospects for their development.

The practical significance of the research - the strategic position of the Republic of Azerbaijan, its role in international transport corridors and transit potential directly affect the economic, social and geopolitical development of the country. The tasks set in the field of international transport are aimed at increasing the role of Azerbaijan in the global trade system and achieving a leading position in the field of transport and logistics.

Research methodology - research and projects carried out in the direction of developing the international transport system of the Republic of Azerbaijan require specific methodological approaches. This methodology provides a comprehensive approach to improving transport infrastructure, increasing transit potential and strengthening the position in international trade.

The results of the research - The reforms carried out by the Republic of Azerbaijan in the international transport and logistics system and the projects implemented have created conditions for the country to achieve significant successes in this area. The establishment of an extensive transport infrastructure, increasing transit potential and providing services in accordance with international standards allow Azerbaijan to become one of the main participants in the global transport network.

The originality and scientific novelty of the research - The measures and projects implemented by the Republic of Azerbaijan in the international transport and logistics system have created conditions for the country to become an important center in the global trade network. The geopolitical position of Azerbaijan, its location as an important transport bridge between Asia and Europe, has increased the country's potential in the field of transit and logistics. The reforms implemented to realize this potential are of strategic importance for the expansion of international trade relations and strengthening its position in world markets.

Keywords: international transport system, logistics infrastructure, transit potential, strategic position, transport corridors, international transportation, economic development.

UOT 336.7

Aygün Tapdıq qızı MƏMMƏDOVA
Azərbaycan Kooperasiya Universitetinin
“Maliyyə və bank işi” kafedrasının baş müəllimi
E-mail: akifrevan@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2025.004.358

BANK RİSKLƏRİNİN MÜASİR ŞƏRAİTDƏ İDARƏ OLUNMASI

Xülasə

Mövzunun aktuallığı: Müasir bank sistemi hər bir ölkənin milli iqtisadiyyatının vacib sahələrindən biridir. Azərbaycan Respublikasının bank sistemində əsaslı islahatlar həyata keçirilmişdir. Bank sistemi bazar iqtisadiyyatının tələbləri baxımından yenilənmişdir. Ölkədə maliyyə bazarlarının fəaliyyətinin təmin olunması kredit təşkilatlarının milli iqtisadiyyatın idarə edilməsində rolunun artmasına səbəb olur, maliyyə münasibətləri sistemində kreditin rolu da artmaqda davam edir.

Tədqiqatın məqsədi: “Bank risklərinin müasir şəraitdə idarə olunması” mövzusunda tədqiqat respublikada bank fəaliyyətində yaranan risklərin idarə olunması siyasətinin mahiyyətini müəyyən etməyə imkan verir.

Tədqiqatın metodologiyası: Tədqiqatın informasiya bazasını Azərbaycan Respublikasının Mərkəzi Bankının, ölkədə fəaliyyət göstərən Kommersiya Banklarının, Dövlət Statistika Komitəsinin, Dünya Bankının, Beynəlxalq Valyuta Fondunun material və məlumatları, illik hesabatları, statistik məlumatları, bank riskləri ilə bağlı normativ-hüquqi aktları, həm də müxtəlif yerli və xarici iqtisadçı alimlərin fikirləri, iqtisadiyyata dair müxtəlif aktual qəzet və jurnalların məlumatları təşkil edir.

Tədqiqatın nəticələri bank sektorunda kredit risklərinin idarə olunması problemlərinin həlli istiqamətində səmərəli təkliflərin verilməsidir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi bankların risklərinin idarə olunması üzrə elmi-analitik tədqiqatdir.

Açar sözlər: Bazar iqtisadiyyatı, bank, risklər, kredit, valyuta, faiz, biznes.

Giriş

Müasir bank sistemi istənilən ölkənin milli iqtisadiyyatının ən mühüm sahələrindən biridir. Azərbaycanın bank sistemində müəyyən dəyişikliklər baş verib. Bank sisteminin bütün sahələri dəyişdirilib. Maliyyə bazarlarının yaradılması kredit təşkilatlarının milli iqtisadiyyatın idarə edilməsində rolunda əsaslı dəyişikliklər, iqtisadi münasibətlər sistemində kreditin rolunun artması deməkdir. Kredit bank işinin bünövrəsinə və onun fəaliyyətinin qiymətləndirilməsinin əsasına çevrilmişdir.

Kredit məhsuldarlığın inkişafına kömək edir və reproduktiv inkişaf üçün kapital mənbələrinin formalaşmasını sürətləndirir. Digər tərəfdən, inkişaf edən bazar iqtisadiyyatı şəraitində kreditlər müəyyən risklərlə üzləşir. Müasir dövrdə bank sektorunda risk problemi xüsusilə qabarıqdır və təcili olaraq idarə olunmalıdır. Beynəlxalq təcrübə göstərir ki, banklarda korporativ idarəetmə, risklərin idarə edilməsi və daxili nəzarət problemləri əksər hallarda ayrı-ayrı banklarda böhranlara gətirib çıxaracaq və bank sektorunun maliyyə sabitliyini təhlükə altına salacaq. Bu gün bank biznesinin sürətli inkişafı ilə risklərin idarə edilməsi məsələləri Azərbaycanın bank sisteminin vəziyyətinə mənfi təsir göstərən ciddi amillərdən birinə çevrilir.

Bazar iqtisadiyyatı şəraitində bank sənayesi risklərinin idarə edilməsinin təhlili

Hazırda bank sektorunda risk problemi idarə olunmalıdır.Tədqiqatlar göstərir ki, banklarda korporativ idarəetmə, risklərin idarə edilməməsi və daxili nəzarət problemləri əksər hallarda ayrı-ayrı kommersiya banklarında iflasa gətirib çıxaracaq və ümumilikdə bank sektorunun maliyyə

sabitliyini təhlükə altına salacaq. Bu gün bank biznesinin sürətli inkişafı ilə risklərin idarə edilməsi məsələləri Azərbaycanın bank sisteminin fəaliyyətinə təsir göstərən ciddi amillərdən birinə çevrilir. Qeyd etmək lazımdır ki, müasir bank sistemi risksiz ola bilməz. Hər bir bank əməliyyatı riski ehtiva edir. Bank riski tamamilə aradan qaldırıla bilməz. Kommersiya bankının qəbul etdiyi risk səviyyəsi nə qədər yüksəkdirsə, onun potensial mənfəəti də bir o qədər yüksək olmalıdır. Eksperimental banklarda əsas vəzifə riskləri tam aradan qaldırmaq deyil, onları proqnozlaşdırmaq, qiymətləndirmək və azaltmaqdır. Risklər müəyyən edilməli və ölçülməlidir. Əgər risklərin qiymətləndirilməsi düzgün aparılmırsa və ya risklərin aradan qaldırılması üçün effektiv tədbirlər görülə bilmirsə, bank üçün mənfi nəticələr yarana bilər.

Bankların üzləşdiyi müxtəlif risklər arasında faiz dərəcəsi riski, kapital riski, valyuta riski, kredit riski, bazar riski, likvidlik riski və əməliyyat xərcləri riski daha əhəmiyyətlidir. Beləliklə, bank sektorunda risklərin idarə edilməsi üzrə bankların əsas vəzifələri aşağıdakılardır:

1) Mümkün riskləri müəyyən etmək;

2) Mümkün zərərin miqyasını qiymətləndirmək;

3) İtkilərin qarşısını almaq və ya kompensasiya etmək yollarını tapmaq.

Riskin təhlili onun mənbələrini və səbəblərini müəyyən etməklə başlayır. Bu məqamda hansı mənbələrin üstünlük təşkil etdiyini müəyyən etmək vacibdir. Hesablanmamış risklər həmişə analitik üsullarla qarşısı alına bilən itkilərə və zərərlərə səbəb olur. Eyni zamanda, riski qiymətləndirərkən intuisiyaya güvənmək lazımdır. Bu, riski hesablamaq üçün kifayət qədər məlumat olmadıqda xüsusilə vacibdir. Bu zaman intuisiya və hesablama bir-birinə qarışır. Banklar fəaliyyətləri zamanı bir çox müxtəlif risk növlərinə məruz qalırlar ki, bu risklər onların harada və nə vaxt baş verməsindən, səviyyəsinə təsir edən xarici və daxili amillərdən, təhlil və təsvir üsullarından asılı olaraq dəyişir. Bundan əlavə, müxtəlif risk növləri bank fəaliyyətinə təsir göstərmək üçün bir-biri ilə qarşılıqlı əlaqədə olur. Qeyd etmək lazımdır ki, müxtəlif növ maliyyə,bank risklərinin təhlili və idarə olunması üçün bir sıra normativ-hüquqi aktlar mövcuddur.

Risklərin idarə edilməsi həmişə riskin kompensasiyası demək deyil. Risk nəzəriyyəsinin əsas müddəalarından birinə görə, maliyyə təşkilatının rəhbərliyi minimum risk səviyyəsinə yox, optimal səviyyəyə çatmağa çalışmalıdır. Risk kompensasiyası həmişə müəyyən bir xərclə bağlıdır. Maliyyə təşkilatının planlaşdırılan mənfəəti və ya onun mövcudluğu üçün zəruri olan mənfəətin məbləği birbaşa risk strategiyalarının və siyasətlərinin həyata keçirilməsi ilə bağlı olmamalıdır. Maliyyə sektorunda subyektlərin fəaliyyəti zamanı yaranan risklərin təsnifatı sayəsində analitiklər onları müəyyən meyarlara görə ayırmaq və təhlilin məqsədlərinə uyğun olaraq homogen klasterlər (qruplar) yaratmaq imkanı əldə edərək, konkret təhlil və optimallaşdırma üsullarını səmərəli tətbiq etməyə imkan verir.

Kredit riskinin idarə edilməsinə nail olmaq üçün idarəetmənin bütün səviyyələri tərəfindən başa düşülən dəqiq müəyyən edilmiş kredit riskinin qiymətləndirilməsi və hesabat vermə üsullarının yaradılması lazımdır. Kredit təsdiqləndikdən sonra Risklərin İdarə Edilməsi Departamenti kredit riskinin monitorinqi üzrə məsuliyyəti öz üzərinə götürür.

Banklar ənənəvi kredit riskini idarə etmək üçün aşağıdakı funksiyaları yerinə yetirməlidir:

1) Qarşı tərəfin kredit müqaviləsinin şərtlərinə əməl etməsinə nəzarət etmək;

2) Müştərilərin fəaliyyətlərində baş verən dəyişiklikləri qiymətləndirmək üçün onlarla müntəzəm görüşlər təşkil etmək;

3) Kreditin yalnız kredit müqaviləsində göstərilən məqsədlər üçün istifadə olunmasını davamlı olaraq yoxlamaq;

4) Müştərilərin və onların zaminlərinin maliyyə vəziyyətini bütün mövcud məlumatlardan istifadə etməklə izləmək;

5) Zəruri hallarda problemli kreditlər üçün müvafiq prosedurları həyata keçirmək.

Daha yüksək səviyyədə, “ənənəvi” üsullarla yanaşı, daxili və xarici kredit reytinqi sistemləri, kreditlərin ödənilməməsi ehtimalları və ödəniş dərəcələri əsasında “riyazi” üsullarla kredit riski idarə oluna bilər.Bu üsul əməliyyat nəticələrini və kapital ayırmalarını hesablamağa imkan verir. [9]

Kredit riskinin kəmiyyətinin müəyyən edilməsi yalnız bir müştərinin kredit borcunu ödəməməsi ehtimalının hesablanmasından daha çoxunu əhatə edir. O, həmçinin xüsusi müştərilər və ya sənayelərlə bağlı risk konsentrasiyalarını və girov dəyərlərindəki dəyişiklikləri əks etdirməlidir. Bu cür məlumatlar bütün kredit portfeli və ya fərdi kreditlər üzrə riski hesablamaq üçün təhlil edilməlidir. [10]

Qlobal iqtisadi sistemdə baş verən dəyişikliklər kontekstində müxtəlif maliyyə institutlarının və kommersiya qurumlarının fəaliyyətindəki tendensiyalar çox aydın görünür. Maliyyə bazarı subyektlərinin fəaliyyət mühiti onların fəaliyyəti zamanı yaranan situasiyalarda qeyri-müəyyənlik və qeyri-müəyyənlik ilə xarakterizə olunduğundan riskin artması ilə əlaqələndirilir. Maliyyə bazarları kifayət qədər mürəkkəb və əhatəli anlayışdır, çünki fond bazarı ilə yanaşı, sığorta bazarları, bank, pensiya fondları bazarları, dövlət borc bazarları, investisiya bazarları, vençur kapital bazarları - ümumiyyətlə, kapitalın hərəkət etdiyi, kapitalın cəlb olunduğu, cəmləşdiyi, yenidən bölüşdürüldüyü və kapital axınının idarə olunduğu bütün bazarları əhatə edir. Maliyyə bazarının müxtəlif hissələri istənilən sivil, iqtisadi cəhətdən inkişaf etmiş ölkənin mühüm hissəsidir. Maliyyə alətlərinin istifadəsi vasitəsilə kapital və müvəqqəti istifadəsiz maliyyə resursları milli iqtisadiyyatlar və qlobal maliyyə bazarları daxilində yenidən bölüşdürülür.[5]

Eyni zamanda, vəsaitlərin yaradılması və istifadəsi prosesi adətən müxtəlif maliyyə risklərinin yaranması ilə sıx bağlıdır. Məhz bir çox praktik situasiyalarda risklərin qaçılmazlığı onların iqtisadiyyatda son dərəcə geniş yayılmasını şərtləndirir. Məsələn, 2008-ci ildə ABŞ-ın mənzil bazarında ipotekanın çökməsi ilə başlayan qlobal maliyyə böhranı risklərin idarə edilməsinin vacibliyini daha da qabardıb. Bəzi banklar müflis oldu, bəziləri simvolik olaraq rəqiblər tərəfindən mənimsənildi, bəziləri isə strateji investorlardan və ya dövlətdən yeni kapital cəlb etmək məcburiyyətində qaldı.

İqtisadiyyatın real sektoru da böhrandan təsirlənir: məhsullarına tələbat kəskin şəkildə azaldığından və bank kreditləri və ya istiqrazlar vasitəsilə yenidən maliyyələşdirmə həddən artıq bahalaşan və ya qeyri-mümkün olan bir çox şirkətlər borclarını ödəməkdə problemlərlə üzləşirlər.

Bu şirkətlərin səhmdarlarının yüksək səviyyəli menecerlərinə məntiqli və əsaslı sual vermək hüququ var. Bu riskləri qabaqcadan görmək, gözləmək və böyük itkilərin qarşısını almaq olar. Nəzərə almaq lazımdır ki, ölkə iqtisadiyyatında bu vəziyyətin aradan qaldırılması və onun daha da inkişafı bütün iqtisadi sistemin və bu sistemin ən mühüm elementi olan maliyyə institutlarının sabitlik səviyyəsinin yüksəldilməsini tələb edir. A.V.Mertens müəllifi olduğu elmi əsərində maliyyə institutunu “əsas fəaliyyəti maliyyə alətləri ilə əməliyyatlar təşkil edən təşkilat” kimi müəyyən edir. Sistemli risklərin idarə edilməsi olmadan maliyyə institutlarının müxtəlif maliyyə risk faktorlarının davamlı təsadüfi təsiri altında strateji və taktiki məqsədlərə nail olunmasını təmin etmək üçün azad seçim və rəqabət prinsiplərinə əsaslanan bazarda səmərəli fəaliyyət göstərməsi mümkün deyil. [10]

Likvidlik riskinin idarə edilməsində likvidlik məsələləri ilə məşğul olmaq üçün aydın prosedurlar olmalıdır. Bu prosedurlar bankın ümumi risklərinin idarə edilməsi qaydalarının bir hissəsini təşkil etməlidir. Gələcək maliyyələşdirmə tələblərini müəyyən etmək üçün risk menecmenti hər bir valyutada gözlənilən pul vəsaitlərinin hərəkətini qiymətləndirməli və monitorinq etməlidir. Bankın likvidliklə bağlı ehtiyat planlaşdırılması prosesinə bazar likvidliyi və ya bazar likvidliyindəki itkilər nəticəsində yaranan likvidlik ehtiyaclarının ödənilməsi üçün alternativ strategiyalar daxil edilməlidir. Bankların fəaliyyət göstərdiyi bazarlarda likvidlik riskləri mütəmadi olaraq qiymətləndirilməlidir. Müvafiq hallarda, bazar likvidliyi riski bazar mövqeyindən çıxmaq üçün gözlənilən vaxtı əks etdirən risk altında olan dəyər modellərinə daxil edilməlidir.Likvidlik fərqi riski (müxtəlif zaman dövrlərində və müxtəlif valyutalarda gözlənilən pul vəsaitlərinin daxilolmaları və xaricolmaları arasındakı fərq) gələcək likvidlik fərqi dövründə pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış dəyərinin monitorinqi və müvafiq faiz dərəcələrində dəyişikliklər nəzərə alınmaqla ayrıca nəzərə alınmalıdır. [8]

Faiz dərəcəsi riski faiz dərəcələrindəki mənfi dəyişikliklərin bankın maliyyə vəziyyətinə təsir

göstərməsi riskinə aiddir. Əgər bank borcları üzrə faiz dərəcəsi təklif olunan kreditlər üzrə faiz dərəcəsindən artıq olarsa, banklar zərər verə bilər.Buna görə də risk bankın gəlirlərinə və onun aktivlərinin, öhdəliklərinin və balanslaşdırma alətlərinin dəyərinə təsir göstərir.

Faiz dərəcəsi riskinin əsas formaları aşağıdakılardır:

1) Bankın aktivləri, öhdəlikləri və balansdankənar əməliyyatlar üçün yeni qiymətlərin müəyyən edilməsi riski (üzən faiz dərəcələri) və şərtlər (sabit faiz dərəcələri) ilə yeni qiymətlər arasındakı fərq;

2) Gəlir əyrisinin formasında dəyişikliklər nəticəsində yaranan gəlir əyrisi riski;

3) Ayrı-ayrı veksellər üzrə faizlərin səhv hesablanması və ödənilməməsinin əsas riski.

Faiz dərəcəsi riskinin idarə edilməsinə bankın aktiv və öhdəliklərinin idarə edilməsi daxildir. Bu idarəetmənin özəlliyi ondan ibarətdir ki, o, ilk növbədə bank portfelinin kredit riski və likvidlik tələbləri, sonra isə digər bankların qiymət rəqabəti ilə məhdudlaşdırılır.

Öhdəliklərin idarə edilməsi çətinləşir, çünki bankların istənilən vaxt müştəriləri və digər kreditorları arasında uğurla yerləşdirə biləcəyi borc alətlərinin ölçüsü və seçimi məhduddur. Risklər müddətinə görə retrospektiv risklərə, cari risklərə və gələcəyə hesablanmış risklərə bölünür.

Valyuta riski, valyuta məzənnələrinin dəyişməsi nəticəsində bankların çəkdiyi itkilər riskini nəzərdə tutur. Valyuta riskinin idarə edilməsində və tənzimlənməsində əsas konsepsiya valyuta mövqeləşdirməsidir. Valyuta mövqeyi bankın xarici valyutada olan öhdəliklərinin tələblərə nisbətini ifadə edir. Qapalı (paritet olduqda) və açıq (satılan və alınan xarici valyutanın məbləğləri uyğun gəlmirsə) valyuta mövqeləri var.

Valyuta riski bankın açıq valyuta mövqeləri ilə bağlıdır. Nəzərə alın ki, borc tələbdən artıq olarsa, valyuta mövqeyi qısa olacaq. Uzun valyuta mövqeyi o zaman yaranır ki, valyuta almaq tələbi valyutanı satmaq öhdəliyini üstələyir.

Valyuta mövqeləri gün ərzində dəyişdiyinə görə banklar həmin valyuta mövqeyinin valyuta riskini və həmin günün məzənnəsi ilə mövqe bağlanarsa, mümkün nəticələrini qiymətləndirirlər. Valyuta mövqelərinin hesablanması onun müxtəlif növ aktiv və öhdəliklər və əməliyyat növləri üzrə aparılması ilə çətinləşir.

Valyuta riskinin idarə edilməsində əsas amil potensial riskin məhdudlaşdırılması üsuludur. Bu yanaşmaların məzənnə dəyişikliyinə, bankın ümumi siyasətində və risk profilində potensial dəyişikliklərə tətbiqi mütəmadi olaraq nəzərdən keçirilməlidir.

Limitlərin müəyyən edilməsi ümumi risk profilini nəzərə almalı və kapitalın adekvatlığı, likvidlik, kredit qabiliyyəti, bazar riski və faiz dərəcəsi riski kimi aspektləri əks etdirməlidir.Bazel Komitəsinin bank tənzimləyicilərinə tövsiyələri banklar üçün lazımi limitləri müəyyən etmək və valyuta əməliyyatları üzərində daxili nəzarəti həyata keçirmək üçün tədbirlər görmək məqsədi daşıyır. Hesab edirəm ki, valyuta riskinin idarə edilməsi likvidlik riskinin idarə edilməsi və faiz dərəcəsi riski ilə bağlı uyğunsuzluq təhlili üçün oxşar prinsiplərə əsaslana bilər. Təhlilin məqsədi xarici aktivlərin və öhdəliklərin ödəmə müddətləri arasında məqbul fərqləri müəyyən etməkdir.Bu fərqi cari və gözlənilən valyuta məzənnələri, faiz dərəcələri, bank rəhbərliyinin məqbul hesab etdiyi risk-gəlir nisbəti kimi əsas göstəricilər əsasında qiymətləndirmək olar.

Bankın riskin bütün forma və növlərinə tab gətirmək qabiliyyəti əsasən onun yüksək səviyyəli menecerlərinin təcrübəsindən asılıdır. Direktorlar Şurası risklərin idarə edilməsi prosesinin əsas iştirakçısıdır.Onun öhdəliklərinə risklərin idarə edilməsi strategiyalarının işlənib hazırlanması, kapitalın tərkibinin və risklərin qiymətləndirilməsi və idarəetmə yanaşmalarının təsdiq edilməsi, strategiyanın bütün səviyyələrdə bölüşdürülməsi şərti ilə effektiv fəaliyyət göstərən risklərin idarə edilməsi çərçivəsinin yaradılması daxildir. [8]

Bu halda, Direktorlar Şurası əməliyyat fəaliyyətini bank menecerinə həvalə edərkən yalnız müəyyən etdiyi strategiyaların həyata keçirilməsinə nəzarəti həyata keçirir.

Risklərin idarə edilməsinin əsas məzmununa aşağıdakılar daxildir:

- ✓ Risklərin idarə edilməsinə həsr olunmuş təşkilati strukturun yaradılması;
- ✓ Risklərin idarə edilməsi strategiyalarının hazırlanması;

- ✓ Müvafiq risk səviyyələrinin müəyyən edilməsi üçün göstəricilər;
- ✓ Risk təhlilini nəzərə alaraq biznes qərarları qəbul edin.

Bank rəhbərliyi özünün “risk strategiyası” nı hazırlayır:

- ✓ Əməliyyatları yerinə yetirərkən risk səviyyəsinə təsir edən amilləri müəyyən etmək;
- ✓ Müəyyən edilmiş amillərin riskə təsir imkanlarının təhlili;
- ✓ Xüsusi risk növlərinin qiymətləndirilməsi ;
- ✓ Optimal risk növünün müəyyən edilməsi;
- ✓ Fərdi tədbirləri müvafiq risk səviyyəsinə uyğunluq baxımından təhlil etmək;
- ✓ Riskin azaldılması tədbirlərinin hazırlanması.

Bank risklərinin idarə edilməsi üzrə beynəlxalq standartlar ümumiyyətlə üç sahəyə bölünür:

- ✓ Şəffaflığı təmin edən makroiqtisadi siyasətlər,
- ✓ Bazarın institusional strukturu,
- ✓ Maliyyə nəzarəti.

Yuxarıdakı tendensiyalar göstərir ki, müasir istehsalat logistikasının inkişafı çoxşaxəlidir: bir tərəfdən yeni texnologiyalar və rəqəmsal sistemlər logistikanı avtomatlaşdırır və ağıllandırır, digər tərəfdən müştəri yönümlülük və dayanıqlılıq kimi meyarlar logistika modellərinin yenidən formalaşdırılmasını tələb edir.

Rəqəmsal transformasiya və logistika 4.0 texnologiyaları

Rəqəmsal transformasiya anlayışı müəssisələrin rəqabət üstünlüyü qazanmaq üçün müasir rəqəmsal texnologiyaları biznes proseslərinə geniş şəkildə tətbiq etməsini ifadə edir. Logistika sahəsində rəqəmsal transformasiya bəzən “Logistika 4.0” termini ilə də ifadə olunur və Sənaye 4.0 konsepsiyasının təchizat zəncirinə tətbiqi kimi başa düşülür. Bu transformasiyanın əsas komponentləri sırasında Əşyaların İnterneti (IoT), böyük məlumatlar analitikası (Big Data), süni intellekt (AI), maşın öyrənməsi, bulud texnologiyaları, blokçeyn, avtomatlaşdırma və s. xüsusi yer tutur. Bu texnologiyaların məqsədi logistika əməliyyatlarını daha ağıllı, sürətli, səmərəli və çevik etməkdir.

IoT – sensorlar və qurğular şəbəkəsi – logistika proseslərində inqilabi dəyişikliklər yaradır. IoT vasitəsilə təchizat zəncirinin hər bir halqasını – nəqliyyat vasitələrini, konteynerləri, anbar rəflərini, hətta ayrı-ayrı məhsulları real vaxtda onlayn izləmək mümkün olur [7]. Bu texnologiya logistika sisteminə misli görünməmiş görünürlük (visibility) və əlaqəlilik (connectivity) bəxş edir. IoT sensorları yüklərin temperaturu, rütubəti, mövqeyi, hərəkət sürəti və s. kimi parametrləri davamlı ölçərək bulud platformalarına göndərir. Şirkətlər bu məlumatlardan istifadə edərək anbaan yük axınlarını izləyir, gecikmə və ya fors-major kimi halları dərhal aşkarlayır və problemlərə çevik reaksiya verir. Məsələn, ağıllı etiketlər (smart labels) – GPS, RFID və s. Texnologiyaları özündə birləşdirən etiketlər – yüklərin dünyanın istənilən nöqtəsində izlənməsini asanlaşdırır və müxtəlif qurğular arasında avtomatik məlumat mübadiləsinə imkan yaradır. DHL şirkətinin proqnozlarına görə, “ağıllı çap əsası” (Smart Printables) adını verdikləri yeni nəsil etiket texnologiyası yaxın gələcəkdə logistika sektorunda böyük təsir doğuracaq, çünki qlobal miqyasda tam izlənə bilmə və məlumat toplama funksionallığı təmin edəcək. IoT-nin logistika üçün əhəmiyyətini vurğulayan ekspertlər qeyd edirlər ki, bu texnologiya təchizat zəncirindəki hər bir halqanı birləşdirərək daha şəffaf, səmərəli və operativ logistika mühiti formalaşdırır [7].

“OZ Mikron” müəssisəsinin logistika sisteminin təkmilləşdirilməsi üzrə aparılan tədqiqatda tam robotlaşdırmadan bəhs olunmasa da, avtomatlaşdırılmış nəqliyyat və monitorinq sistemlərinin

rolu vurğulanmışdır. Məsələn, şirkət marşrutların optimallaşdırılması və nəqliyyat vasitələrinin izlənməsi üçün telemetriya və cəhd planlama sistemləri tətbiq etmişdir ki, bu da sürətli və az xərcli çatdırılma tələblərinə uyğunlaşmağa yardımçı olmuşdur. Həmçinin, logistik proseslərin rəqəmsallaşdırılması şirkət daxilində dəqiqlik və səmərəlilik mədəniyyəti formalaşdırmış, bütün proseslərin real-vaxt monitorinqi “bottleneck”lərin tez müəyyənləşib aradan qaldırılmasına şərait yaratmışdır. Bu təcrübə göstərir ki, avtomatlaşdırma və rəqəmsallaşma yalnız texniki təkmilləşmə deyil, həm də təşkilati dəyişikliyə – daha məlumatlı, çevik və dəqiq iş mədəniyyətinə gətirib çıxarır [4].

Paylama strategiyaları və təchizat zəncirinin optimallaşdırılması

İstehsalat müəssisələrinin logistika sistemlərinin təkmilləşdirilməsi təkcə texnologiya tətbiqi ilə bitmir; eyni zamanda şəbəkə planlaması və paylama strategiyalarının düzgün qurulması tələb olunur. Yəni məhsulların istehsal nöqtəsindən son müştəriyə qədər olan yolunun effektiv təşkili üçün optimal paylama şəbəkəsi dizaynı, anbarların (distribusiya mərkəzlərinin) yerləşdirilməsi, nəqliyyat kanallarının seçimi kimi qərarlar strateji əhəmiyyət daşıyır. Mərkəzləşdirilmiş və regional distribusiya modellərinin seçimi strateji baxımdan mühümdür. Mərkəzləşdirilmiş modeldə şirkət bütün məhsulları mərkəzi anbarda toplayır və oradan müştərilərə göndərir. Bu, ehtiyatların konsolidasiyasına, yüksək dəyərli və tələbi proqnozlaşdırılması çətin olan mallar üçün stok səviyyəsini azaltmağa imkan verir. Drop-shipping isə mərkəzləşdirmənin bir növüdür və malların birbaşa istehsalçıdan müştəriyə çatdırılmasını nəzərdə tutur. Bu üsul yüksək dəyərli, az satılan məhsullar üçün effektivdir, lakin nəqliyyat məsafəsi və xərcləri artır. Çoxçeşidli və ya yüksək tələbatlı məhsullar üçün isə regional anbarlar xərcləri azaltmağa və çatdırılma sürətini artırmağa kömək edir [5].

Çatdırılma strategiyalarının seçimi də optimallaşdırmaya təsir edir. Müştəriyə çatdırılma sxemi olaraq bir neçə variant ola bilər:

- “Qapıdan qapıya” çatdırılma (şirkətin öz nəqliyyatı və ya kuryer xidməti ilə birbaşa müştəriyə),
- “Özün götürmə” (müşərinin zavoddan/anbardan özü malları götürməsi),
- Kombinə edilmiş sxemlər (məs., məhsulun bir hissə məsafəsini dəmir yolu və ya dəniz yolu ilə göndərilib, qalanını müştərinin özü götürməsi və s.).

Kvaşina O.N.-ın “OZ Mikron” üzrə apardığı tədqiqatda üç müxtəlif çatdırılma sxeminin müqayisəsi təqdim olunur. Müəssisə Velikiye Lukidən Moskva regionundakı bir müştəriyə (Tula şəhəri, ~10 ton yük) məhsul göndərilməsi üçün alternativləri dəyərləndirmişdir:

1. Şirkətin avtonəqliyyatı ilə “qapıdan qapıya” çatdırılma – bütün 1079 km məsafə yük maşını ilə daşınır.
2. Müştərinin öz nəqliyyatı ilə “özün götürmə” – yəni Mikron məhsulu zavodda təhvil verir, qalan məsrəfləri müştəri öz boynuna götürür.
3. Kombinə olunmuş variant + özün götürmə – yük əvvəl 641 km dəmir yolu ilə göndərilir, sonra təyinat nöqtəsinə qədər qalan 230 km məsafəni müştəri özü (avtonəqliyyatla) aparır.

Bu sxemlərin xərc, sürət və risk göstəriciləri Cədvəl 1-də müqayisəli şəkildə verilmişdir.

Cədvəl 1.

Mikron şirkətində müxtəlif çatdırılma sxemlərinin müqayisəsi

Göstərici	Avto “qapıya” (1079 km tam avto)	Avto “özün götür” (müştəri avtosu)	Kombinə (641 km dəmiryolu + 230 km avto)
1. Daşıma xərci, rubl	49 634	32 370	20 361
1 km-ə düşən xərc, rubl	46	30	21
Çatdırılma müddəti, gün	1	2–5	2–3
Çatdırılmada fors-major riski	Aşağı	Orta	Yüksək
Yükün zədələnmə riski	Aşağı	Aşağı	Yüksək
Qrafikə əməl etmə etibarlılığı (5 ballıq)	5	3	4i

Mənbə: [3, s.56]

Yuxarıdakı müqayisədən göründüyü kimi, fərqli müştərilər üçün optimal çatdırılma sxemi müxtəlif ola bilər. Birinci sxem ən sürətli və etibarlı olsa da, xərc ən yüksəkdir. Üçüncü sxem ən ucuzdur, lakin risklər çox və sürət nisbətən aşağıdır. Hər bir müştəri öz prioritetlərinə uyğun variantı seçməlidir – bəzisi üçün sürət və etibarlılıq xərcdən daha önəmli ikən, digəri üçün xərc qənaəti əsas ola bilər. Müştəri mərkəzli logistika baxımından müəssisə hər üç seçimi təqdim etməklə müştərinin özünə uyğun qərar verməsinə imkan yarada bilər. Mikron nümunəsində də vurğulanır ki, “hər bir müştəri üçün sərfəli olan çatdırılma sxemi onun daşınma xidmətinin dəyəri, vaxt tələbi və risklərə verdiyi üstünlüklərdən asılı olaraq fərqlidir”. Şirkət buna görə fərqli şərtlər təklif etməklə müştəri bazasını genişləndirə və məmnuniyyəti artıra bilər. Məsələn, analizin nəticəsinə görə Mikronun 2015-ci ildə müştərilərinin 42%-i öz nəqliyyatı ilə “özün götürmə” üsuluna üstünlük vermiş, qalan 54%-i isə çatdırılmanı Mikrona etibar etmişdir. Bu da göstərir ki, xeyli hissə müştəri baha olsa da rahatlığı (qapıya çatdırılmanı) seçir, digərləri isə qənaətə önəm verib öz logistikalarını qururlar [3].

Paylama strategiyalarının optimallaşdırılmasında digər vacib yanaşma marşrut optimallaşdırması və konsolidasiyadır. Xüsusilə, bir müəssisə eyni istiqamətdə çoxlu kiçik sifarişlər göndərirsə, bunları konsolidasiya edərək “dairəvi marşrutlar” təşkil etmək səmərəli ola bilər. Mikron misalında, şirkət Moskva bölgəsindəki bir neçə müştərinin sifarişini bir böyük yük maşınına yığıb dairəvi bir reyslə çatdırmaq imkanı hesablamışdır. Belə ki, ayrı-ayrılıqda 10 tonluq sifariş yarımyük gedib 46 920 rubl xərci olacaqdı, lakin Zveniqorod və Tver kimi yolda yerləşən şəhərlərdən əlavə sifarişləri eyni maşına yükləməklə (tam 20 ton) ümumi xərc 85 284 rubldan 115 000 rubla yüksəlsə də, ton başına düşən xərc əhəmiyyətli dərəcədə azalmışdır. Hesablamalar göstərdi ki, belə doldurma (doukoplektasiya) sayəsində bir reysə 29 716 rubl qənaət əldə edilir və bu təcrübənin ildə 5 dəfə təkrarlanması illik ~148 min rubl qənaət deməkdir. Bu cür rəqəmlər konsolidasiya və marşrut optimallaşdırmasının bir istehsalat müəssisəsi üçün necə əhəmiyyətli fayda verə biləcəyini konkret nümayiş etdirir.

Şirkətlər həmçinin distribusiya mərkəzlərinin coğrafi yerləşimi üzərində optimallaşdırma aparırlar. Qlobal şirkətlər üçün sual yaranır: anbarları əsas bazarlara yaxın harada açmalı? Bəzi hallarda böyük bir bazara xidmət etmək üçün həmin bazarın kənarında xüsusi bir paylama mərkəzi qurmaq səmərəli olur. Mikron nümunəsinə qayıtsaq, analiz göstərib ki, Moskva və ətrafı şirkətin satışlarının ~53.65%-ni təşkil edir. Bu səbəbdən, Moskva ətrafında (Podmoskovye-də) “Mikron-MSK” adlı rəsmi distribyutorun bazasında bir distribusiya mərkəzinin qurulması şirkət üçün perspektivli görülüb. Belə mərkəz yaradılsa, Mikron Pskovdakı zavodundan məhsulları öz iri yük maşınları ilə həmin mərkəzə böyük partiyalarla daşıya, oradan isə Moskva şəhəri və qonşu regiondakı müştərilərə daha kiçik partiyalarla, qısa məsafələrlə çatdırmaq mümkün olacaq. Bu addım həm nəqliyyat xərcini, həm də çatdırılma vaxtını azalda bilər.

Dayanıqlı logistika və yaşıl təchizat zənciri

Son illərdə qlobal miqyasda logistika sistemlərinin təkmilləşdirilməsi mövzusunda dayanıqlılıq amili xüsusi önəm qazanmışdır. Dayanıqlı logistika dedikdə, ekoloji, iqtisadi və sosial baxımdan məsuliyyətli logistika praktikaları nəzərdə tutulur. Ənənəvi logistika paradiqmaları (müştəri yönümlülük, “tam vaxtında” çatdırılma və s.) müştəri tələblərini qarşılamış olsa da, onların ətraf mühitə mənfi təsirləri artıq kritik nöqtəyə çatıb. Yol nəqliyyatının havaya atdığı emissiyalar, tıxaclar, fosil yanacaq istifadəsi, səs-küy, tullantılar – bütün bunlar cəmiyyətin logistika sektorundan daha yaşıl həllər tələb etməsinə səbəb olur. Məlumdur ki, logistika əməliyyatlarının ən böyük ekoloji yükü nəqliyyat sektorundan gəlir. Avropa statistikasına görə, nəqliyyat istixana qazı emissiyalarının 25%-nə qədərini təşkil edir və bunun 72%-i yol nəqliyyatının payına düşür, yük avtomobilləri isə bu emissiyaların təxminən 30%-nə səbəb olur. Şəhərlərdə son-mil çatdırılmaları da həm tıxac, həm də səs-küy və çirklənmə yaradır. Bu vəziyyət logistika sahəsində ciddi dəyişikliklərə və yeni strategiyalara ehtiyac olduğunu göstərir [6]

Beynəlxalq səviyyədə bir çox təşəbbüslər var ki, lojistika sektorunu dayanıqlı inkişafa təşviq edir. BMT-nin 2030 gündəliyindəki Dayanıqlı İnkişaf Məqsədlərindən bir neçəsi bilavasitə

logistika ilə əlaqədardır – sənayedə innovasiya və infrastruktur (SDG 9), dayanıqlı şəhər və icmalar (SDG 11), məsul istehlak və istehsal (SDG 12), iqlim dəyişikliyinə qarşı tədbirlər (SDG 13) və s.. Loqistika şirkətləri və istehsalçılar öz ESG (Environmental, Social, Governance) hədəfləri çərçivəsində təchizat zənciri üzrə karbon emissiyalarını azaltmaq öhdəlikləri götürürlər. Məsələn, bir çox qlobal şirkət elan edib ki, Scope 3 (təchizat zənciri üzrə dolayı emissiyalar) qazlarının 2040-2050-ci illərə qədər net-sıfıra endirilməsi məqsədini daşıyırlar [8]. Bu kimi öhdəliklər logistika əməliyyatlarının təməl şəkildə dəyişəcəyinin göstəricisidir.

Kvaşina O.N. monoqrafiyasında dayanıqlı logistika mövzusu birbaşa hədəf olmasa da, onun tövsiyə etdiyi bəzi tədbirlər həm də dayanıqlılığa xidmət edir. Məsələn, Moskva ətrafında distribusiya mərkəzinin qurulması təkcə iqtisadi səmərəlilik yox, həm də yük maşınlarının qət etdiyi məsafəni azaltmaqla emissiyanı azaldacaq. Eyni zamanda, dairəvi marşrutların tətbiqi yolda qət edilən məsafəni azaldaraq yanacaq sərfini aşağı salır. Müştərilərin birgə yüklənməsi eyni prinsipə xidmət edir. Bu nümunələr göstərir ki, bəzən sırf kommersiya məqsədi ilə həyata keçirilən optimallaşdırmalar da ekoloji fayda gətirə bilər (win-win effekti). Əsas odur ki, logistika planlamasında “yaşıl düşüncə tərzi” inteqrasiya olunsun – yəni hər bir qərar verərkən, bunun ətraf mühit və cəmiyyət üçün də nəticələri nəzərə alınsın. Beləliklə, dayanıqlı logistika qlobal logistika sistemlərinin gələcəyində mərkəzi rola malikdir. Gələcək perspektiv ondan ibarətdir ki, intermodal nəqliyyat şəbəkələri (qitələrarası və regional yük axınları üçün) ilə şəhər logistika sistemləri (yerli paylamalar üçün) bir-birinə sıx inteqrasiya ediləcək və hamısı birlikdə emissiyasız və səmərəli logistika infrastrukturu formalaşdıracaq. Bu yolda innovativ həllər, güclü tərəfdaşlıqlar (dövlət-özəl, fərqli şirkətlər arasında əməkdaşlıq) və bəzən də mövcud təcrübələrin tamamilə yenidən düşünülməsi tələb olunur [6].

Müştəri mərkəzli logistika və xidmət keyfiyyəti

İstehsalat müəssisələri təkcə məhsul istehsal etmirlər, həm də o məhsulun doğru zamanda, doğru yerə və doğru şərtlərlə çatdırılmasını təmin etməlidirlər. Müştərilər isə bu logistika xidmətini məhsulun ayrılmaz tərkib hissəsi kimi qiymətləndirirlər. Müştəri məmnuniyyətinin formalaşmasında məhsulun keyfiyyəti və qiyməti ilə yanaşı, logistika xidmətinin keyfiyyəti böyük rol oynayır. Tədqiqatlar göstərir ki, logistika xidmətinin operativliyi, etibarlılığı, məlumatlandırma səviyyəsi, fərdiləşdirmə imkanı, personalın ünsiyyət keyfiyyəti kimi amilləri müştərinin ümumi məmnuniyyətinə əhəmiyyətli təsir edir. Xüsusilə e-ticarətin yüksəlişi ilə logistika xidmətinin səviyyəsi birbaşa müştəri loyallığı və təkrar alış niyyətini müəyyənləşdirən faktor kimi çıxış edir [9].

Müştəri mərkəzli logistika modeli dedikdə, logistika proseslərinin müştərinin ehtiyac və arzularına uyğun qurulması nəzərdə tutulur. Bu, bir neçə aspektdə özünü göstərir:

1. Müasir müştəri məhsulu mümkün qədər tez istəyir və təyin olunmuş vaxt qrafikinə riayət edilməsini tələb edir. Vaxtında çatdırılma logistika xidmətinin ən əsas göstəricilərindən biridir. Bir çox sənayedə (xüsusən avtomobil istehsalı kimi B2B sahələrində) JIT prinsipi hökm sürür – yəni gecikmə bütün zənciri poza bilər. B2C sektorunda da iki günə, bir günə hətta bir neçə saata çatdırılma standartları formalaşıb. Amazon Prime kimi xidmətlər sayəsində istehlakçılar sürətli çatdırılmanı adi hal kimi qəbul etməyə başlayıblar. Buna görə istehsalçılar öz logistika zəncirlərini bu tələbləri qarşılamağa uyğunlaşdırmağa çalışırlar. Yuxarıda DHL-dən gətirilən sitatda da qeyd olunurdu: “Müasir müştəri məhsulun tez çatdırılmasında iqtisadi cəhətdən maraqlıdır”[3] – yəni alıcı bir qədər artıq xərc hesabına olsa belə daha tez təslimata üstünlük verir, çünki bu onun öz biznesinə və ya rahatlığına fayda gətirir.

2. Müştəri mərkəzli yanaşma o deməkdir ki, fərqli müştərilərə fərqli logistika həlləri təklif oluna bilər. Kiminə ultra-sürətli çatdırılma, kiminə ucuz amma yavaş çatdırılma uyğun gəlir; kiminə qapıya xidmət, kiminə anbardan götürmə variantı daha sərfəli ola bilər. Şirkətlərin və logistika provayderlərinin qarşısında duran vəzifə – bu müxtəlif tələbləri modulyar xidmət paketləri şəklində təqdim etməkdir. Misal üçün, ekspress çatdırılma, standart çatdırılma, iqtisadi çatdırılma kimi seçimlər təklif edilir; və ya müştəri istəsə, əlavə ödənişlə göndərmə vaxtını, marşrutu, hətta çatdırılma vaxt pəncərəsini özü təyin edə bilər. Bu cür seçimlər müştəriyə nəzarət

hissi verir və məmnuniyyəti artırır.

3. Müştərilər sifariş etdikləri məhsulun harada olduğunu, nə zaman çatacağını bilmək istəyirlər. Göndərişin izlənməsi (track-and-trace) imkanı artıq logistika xidmətinin olmazsa-olmazıdır. Yükün yolda gecikməsi halında dərhal xəbərdarlıq edilməsi, problemlər çıxarsa müştərinin sürətli dəstək ala bilməsi də vacibdir. Bu, informasiya keyfiyyəti aspektidir və araşdırmalara görə müştəri məmnuniyyətinə ciddi təsir edir. Müasir logistika sistemləri müştəriyə veb və ya mobil tətbiq üzərindən real vaxt məlumat ötürür, kuryerin yerini göstərir, təslimat vaxt intervalını əvvəlcədən bildirir və s.

4. Müştəri mərkəzli modelin davamlı təkmilləşməsi üçün müştərilərdən davamlı geribildirim toplamaq lazımdır. Mikron şirkətinin tədqiqatında bununla bağlı maraqlı addım atılmışdı – onlar 10 müştərini sorğulayaraq logistika xidmətinin müxtəlif cəhətlərini 10 ballıq şkala ilə qiymətləndirməyi xahiş etmişdilər. Sorğuda çatdırılmanın tamlığı, vaxtında olması, sənədləşmənin düzgün aparılması, razılaşdırılmış şərtlərə əməl olunması kimi meyarlar qiymətləndirilib. Nəticədə müştərilərin ümumən xidmətlərdən razı olduğu (təxminən 9.2-9.4 ortalama bal) üzə çıxsa da, bəzi meyarlarda (məs., ideal şərtlərə əməl olunması) balın nisbətən aşağı olduğu müəyyən edilib. Bu cür məlumatlar şirkətə hansı sahədə inkişaf ehtiyacı olduğunu göstərir. Ümumiyyətlə, logistika xidmət keyfiyyətinin ölçülməsi üçün LSQ modelləri mövcuddur və şirkətlər periodik olaraq müştəri sorğuları, KPI təhlilləri apararaq özlərini qiymətləndirməlidir. Burada məqsəd müştəri məmnuniyyəti ilə logistika əməliyyatları arasındakı əlaqəni anlamaq və zəif həlqələri gücləndirməkdir.

Müştəri məmnuniyyətinin artırılması, yalnız müştərini xoşbəxt etmək üçün deyil, həm də kommersiya faydası gətirdiyi üçün əhəmiyyətlidir. Məmnun müştəri yenidən həmin şirkətlə işləmək (və ya məhsul almaq) istəyir, müsbət ağızdan-ağıza (word-of-mouth) təsir yaradır, hətta bəzi hallarda daha yüksək ödəniş etməyə razı olur (əgər üstün logistika xidməti alacağına inanırsa). PLOS One jurnalında 2023-də dərc edilmiş bir araşdırma, logistika xidmət keyfiyyətinin müxtəlif komponentlərinin müştəri məmnuniyyətinə müsbət təsir etdiyini və məmnun müştərinin logistika xidmət provayderini təkrar seçmə ehtimalının yüksək olduğunu təsdiqləmişdir. Yəni loyal müştəri bazası formalaşdırmaq üçün logistika mühüm rol oynayır.

Mikronun logistika təcrübəsində müştəri mərkəzli yanaşmaya aid bir nüansı da xatırladaq: onlar müştərilərin prioritetlərinə görə fərqli çatdırılma sxemləri təklif etməyi müzakirə etmişdilər (Cədvəl 1-dəki kimi). Bu, əslində müştəriyə seçim azadlığı vermək deməkdir. Kvaşina yazır ki, "hər müştəri üçün optimal çatdırılma variantı onun nəqliyyat xidmətinin dəyəri, çatdırılma vaxtı, risk səviyyəsi kimi meyarları necə sıralamasından asılı olaraq fərdidir" [3].

Bütün əməkdaşlar gördükləri işin son müştəri məmnuniyyətinə təsir etdiyini dərk etməlidir. Bu kontekstdə "daxili müştəri" yanaşmasının tətbiqi, yəni hər bölmənin növbəti mərhələnin və yekunda xarici müştərinin ehtiyaclarını nəzərə alaraq fəaliyyət göstərməsi vacibdir. Mikron müəssisəsi üzrə aparılan tədqiqat göstərir ki, əməkdaşların motivasiyası və komanda əsaslı təlim inteqrə olunmuş idarəetmənin formalaşmasında mühüm rol oynayır. Nəticə etibarilə, motivə olunmuş və məlumatlı kollektiv müştəri xidmətinin keyfiyyətinin yüksəldilməsinin əsas şərtidir [4].

Nəticə

Məqalədə müasir istehsalat müəssisələrində logistika sistemlərinin təkmilləşdirilməsi qlobal trendlər və gələcək perspektivlər kontekstində təhlil edilmişdir. Aparılan araşdırma göstərir ki, logistika artıq yalnız əməliyyat funksiyası deyil, müəssisələrin rəqabət qabiliyyətini formalaşdıran strateji alətə çevrilmişdir. Logistika xərclərinin optimallaşdırılması, xidmət səviyyəsinin yüksəldilməsi və bazar dəyişikliklərinə çevik reaksiya imkanları müəssisələrin kommersiya uğurunda həlledici rol oynayır.

Tədqiqat nəticələrinə əsasən, ERP sistemlərinin tətbiqi və rəqəmsal inteqrasiya logistika proseslərinin şəffaflığını və idarəetmə səmərəliliyini artırır, avtomatlaşdırma və robot texnologiyaları isə əməliyyat xərclərini azaldaraq məhsuldarlığı yüksəldir. Paylama şəbəkələrinin optimallaşdırılması və çevik çatdırılma modelləri, Mikron müəssisəsinin təcrübəsində də göründüyü kimi, həm

xərclərə qənaət, həm də müştəri məmnuniyyətinin artmasına imkan yaradır. Eyni zamanda, dayanıqlı və müştəriyönümlü logistika yanaşmaları müəssisələrin uzunmüddətli inkişafı üçün zəruri şərt kimi çıxış edir.

Nəticə etibarilə, müasir istehsalat müəssisələrinin rəqabətə davamlılığı logistika sistemlərinin texnoloji, strateji və ekoloji aspektlər üzrə kompleks şəkildə təkmilləşdirilməsindən asılıdır. Qlobal trendlərin düzgün tətbiqi müəssisələrə həm bazar mövqeyini gücləndirmək, həm də davamlı iqtisadi inkişafı təmin etmək imkanı verir.

ƏDƏBİYYAT

1. Ağayev Z. (2024). Logistika sisteminə sistemli yanaşma və onun təkmilləşdirilməsi. XI Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumu, Bakı, Azərbaycan, 853–857.
2. Mahmudlu S. A. (2022). “Firmadaxili rəqabətin potensial logistik təminatı”, Magistr dissertasiyası, Azərbaycan Dövlət İqtisad Universiteti, 74 səh.
3. Квашина, О. Н. (2016). “Совершенствование логистики ЗАО «ОЗ «Микрон» г. Великие Луки Псковской области” [Монография]. Великие Луки: ФГБОУ ВО «Великолукская ГСХА», Экономический факультет, Кафедра «Экономика, менеджмент и торговое дело».
4. Canon, J. G. F., dos Santos, R. J. R., de Carvalho, V. D. H., Monte, M. B. D. S., & de Barros, T. L. (2025). “Integrated Logistics Management Through ERP System: A Case Study in an Emerging Regional Market”. Logistics, 9(2), 59.
5. Chopra S. (2003). “Designing the Distribution Network in a Supply Chain” – Northwestern University, 42 p.
6. Clarivate Analytics (2022). “Sustainable logistics are key to a sustainable future” – Blog by Milovan Kovač, https://clarivate.com/academia-government/blog/sustainable-logistics-are-key-to-a-sustainable-future/
7. DHL Logistics Trend Radar (2024). “Four Logistics Trends to Watch in 2024” – DHL Delivered (DHL, 2023) https://www.dhl.com/global-en/delivered/global-trade/four-logistics-trends-to-watch-in-2024.html
8. KPMG (2023). “Supply Chain Trends 2024: The digital shake-up” – KPMG Insights, https://kpmg.com/xx/en/our-insights/ai-and-technology/supply-chain-trends-2024.html
9. Lin, X., Mamun, A. A., Yang, Q., & Masukujjaman, M. (2023). “Examining the effect of logistics service quality on customer satisfaction and re-use intention”. PloS one, 18(5), e0286382.
10. Modula (2024). “15 Types of Warehouse Robotics For Optimal Efficiency” – Modula Blog, https://modula.us/blog/warehouse-robotics/

Мухаммед Джалаладдин оглы Юсифов
докторант, Бакинский Университет Бизнеса
E-mail: mahammadyusufov@gmail.com

Совершенствование логистических систем в современных производственных предприятиях: тренды и перспективы

Резюме

Цель исследования – определить основные направления совершенствования логистических систем на современных производственных предприятиях, а также проанализировать влияние глобальных логистических трендов и процессов цифровой трансформации на эффективность деятельности и конкурентоспособность предприятий.

Методология исследования – в процессе исследования использованы системный подход, описательно-аналитический метод, методы сравнительного анализа и оценки.

Значение применения исследования – полученные результаты имеют практическую значимость для оптимизации логистических процессов, снижения издержек, совершенствования распределительных сетей и формирования клиентоориентированных логистических стратегий на производственных предприятиях.

Результаты исследования – установлено, что внедрение ERP-систем, автоматизация и интеграция устойчивых логистических решений способствуют повышению эффективности производственных и распределительных процессов. Опыт предприятия «Микрон» показывает, что гибкость логистических систем оказывает положительное влияние на уровень удовлетворенности клиентов.

Уникальность и научная новизна исследования – заключается в комплексном и системном анализе современных логистических трендов в контексте производственных предприятий, а также в получении практических выводов по совершенствованию логистических систем на основе реального опыта предприятия.

Ключевые слова: логистика, совершенствование, планирование, производство, конкурентоспособность, управление.

Mahammad Jalaladdin Yusifov
PhD student,, Baku Business University
E-mail: mahammadyusufov@gmail.com

Improvement of logıstıcs systems ın modern manufacturıng enterprıses: trends and prospects

Summary

The purpose of the research. The purpose of this study is to identify the main directions for improving logistics systems in modern manufacturing enterprises and to analyze the impact of global logistics trends and digital transformation processes on the operational efficiency and competitiveness of enterprises.

Methodology of the research. The research methodology is based on a systems approach, descriptive-analytical method, comparative analysis, and evaluation methods.

The importance of research application. The obtained results have practical significance for optimizing logistics processes, reducing costs, improving distribution networks, and developing customer-oriented logistics strategies in manufacturing enterprises.

Results of the research. The findings indicate that the implementation of ERP systems, automation, and the integration of sustainable logistics solutions significantly enhance the efficiency of production and distribution processes. The experience of the Micron enterprise demonstrates that flexibility in logistics systems has a positive effect on customer satisfaction.

Uniqueness and scientific novelty of the research. The study is characterized by a comprehensive and systematic analysis of modern logistics trends in the context of manufacturing enterprises, as well as by the derivation of practical conclusions on improving logistics systems based on real enterprise experience.

Key words: logistics, improvement, planning, manufacturing, competitiveness, management.

UOT: 3.33.338

Müşfiq Qabil oğlu NAĞIZADƏ
Odlar Yurdu Universiteti, MBA,
Beynəlxalq Maliyyə və Valyuta-Kredit Münasibətləri II kurs magistrantı
E-mail: musfiqnagi@gmail.com,

Elmi Rəhbər: i.f.d. Esmira Mirməmməd qızı ƏHMƏDOVA
ahmedovaesmira@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.004.389

ÖLKƏLƏRİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA AÇIQ İNNOVASİYANIN TƏSİRİ: MAKRO VƏ MİKROSƏVİYYƏDƏ TƏTBİQ İMKANLARI

Xülasə

Tədqiqatın məqsədi - açıq innovasiya modelinin ölkələrin sosial-iqtisadi inkişafına təsirini həm makro, həm də mikrosəviyyələrdə təhlil etmək və bu modelin Azərbaycan iqtisadiyyatı üçün tətbiq imkanlarını müəyyənləşdirməkdir.

Metodologiya - Tədqiqatda əsasən nəzəri-analitik yanaşmadan istifadə edilmişdir. Beynəlxalq təcrübənin müqayisəli təhlili aparılmış, Almaniya, ABŞ və Cənubi Koreya nümunələri əsasında praktik modellər araşdırılmış və Azərbaycan üzrə mövcud statistik məlumatlar əsasında qiymətləndirmə həyata keçirilmişdir.

Tətbiqi əhəmiyyəti - Tədqiqatda açıq innovasiya modeli yalnız texnoloji yenilik aləti kimi deyil, həm də strateji iqtisadi transformasiya vasitəsi kimi qiymətləndirilmişdir. Məqalədə Azərbaycan üçün konkret siyasət tövsiyələri və inkişaf istiqamətləri təklif olunmuş, bu da onun həm elmi, həm də praktiki dəyərini artırır.

Tədqiqatın nəticələri - açıq innovasiya modelinin iqtisadi sistemlərin çevikliyini, rəqabət qabiliyyətini və texnoloji tərəqqisini artırdığını göstərir. Əldə olunan nəticələr həm elmi, həm də təcrübi əhəmiyyətə malikdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi ondan ibarətdir ki, burada açıq innovasiya modeli ilk dəfə olaraq ölkə səviyyəsində iqtisadi transformasiya vasitəsi kimi təqdim olunur və Azərbaycana uyğun konkret strateji tətbiq mexanizmləri irəli sürülür. Tədqiqatda açıq innovasiya modelinin Azərbaycan iqtisadiyyatında tətbiqi imkanları ilk dəfə sistemli şəkildə həm beynəlxalq təcrübə, həm də milli göstəricilər əsasında müqayisəli təhlil edilmişdir.

Açar sözlər: açıq innovasiya, iqtisadi inkişaf, elmi-tədqiqat və inkişaf (R&D), startaplar, rəqəmsal transformasiya, innovasiya siyasəti.

Giriş

Müasir dövrdə ölkələrin iqtisadi inkişaf strategiyaları yeni çağırışlarla qarşı-qarşıyadır. Ənənəvi sənaye modelləri və təktərəfli istehsal yanaşmaları artıq öz effektivliyini itirərək, daha çevik, bilik əsaslı və texnologiya yönümlü iqtisadi sistemlərlə əvəz olunur. Bu transformasiyanın əsas mərkəzində isə innovasiya dayanır. İqtisadiyyatın rəqabət qabiliyyətini təmin etmək, dayanıqlı inkişafı təmin etmək və yüksək əlavə dəyər yaratmaq üçün innovasiyanın davamlı şəkildə dəstəklənməsi vacibdir. Son illərdə innovasiyaya yanaşmada diqqətəlayiq bir dönüş yaşanmaqdadır. Ənənəvi “qapalı innovasiya” modelləri - yəni yalnız daxili resurs və biliklərə əsaslanan tədqiqat və inkişaf metodları - öz yerini daha çevik və əməkdaşlıq əsaslı sistemlərə, yəni açıq innovasiya modellərinə verir. Bu modellərdə ideyalar və texnoloji həllər yalnız bir təşkilat daxilində deyil, müxtəlif tərəfdaşlar, o cümlədən universitetlər, fərdi tədqiqatçılar, startaplar və hətta rəqiblərlə qarşılıqlı əməkdaşlıq yolu ilə yaradılır və bölüşdürülür.

Açıq innovasiya anlayışı və iqtisadi modellərdə yeri. Müasir iqtisadi sistemlərdə innovasiyanın rolu heç zaman bu qədər həlledici olmamışdır. Qlobal rəqabət, texnoloji inqilablar və sürətlə

dəyişən bazar şərtləri qarşısında şirkətlər və dövlətlər daha çevik, yaradıcı və nəticəyönümlü yanaşmalara ehtiyac duyurlar. Bu çağırışlara cavab olaraq inkişaf etdirilən açıq innovasiya modeli 2003-cü ildə professor Henry Chesbrough tərəfindən sistemli şəkildə konseptuallaşdırılmış və daha sonra müasir iqtisadi idarəetmənin əsas sütunlarından birinə çevrilmişdir. [4, s. 21–29]

Açıq innovasiyanın konseptual əsasları. Açıq innovasiya ənənəvi qapalı innovasiya modellərindən fərqli olaraq, ideyaların yalnız daxildən gəlməli olduğu fikrini rədd edir. Bunun əvəzinə açıq innovasiya yanaşması həm daxili, həm də xarici ideya mənbələrinin birgə işlənməsini və tətbiqini təşviq edir. Chesbrough bu konsepsiyanı belə izah edir: “Şirkətlər öz sərhədlərinin xaricində yaranan bilik və texnologiyalardan istifadə etməklə innovasiyanı daha sürətli və səmərəli şəkildə inkişaf etdirə bilərlər.” [4, s. 26] Bu modeldə əsas vurğu açıq bilik axınına və əməkdaşlığa əsaslanan dəyərləndirmə prosesinə yönəlir. Artıq müəssisələr yalnız öz tədqiqat qruplarının inkişaf etdirdiyi texnologiyalara deyil, həm də bazarda mövcud olan, bəzən isə rəqiblər tərəfindən yaradılan ideyalara da açıq olmalı və onları daxili proseslərə inteqrasiya etməlidirlər.

Qapalı və açıq innovasiya: müqayisəli baxış

Qapalı modeldə şirkətlər öz tədqiqat laboratoriyalarında yeni məhsul və texnologiyaları inkişaf etdirməyə çalışır, bu isə həm yüksək maliyyə vəsaiti, həm də zaman tələb edir. Açıq model isə bu prosesi sürətləndirir, çünki müxtəlif mənbələrdən biliklər toplanaraq daha sürətli nəticəyə gəlinir. Açıq innovasiyanın müxtəlif formaları mövcuddur və hər biri fərqli əməkdaşlıq yanaşmalarına əsaslanır. Daxiletmə yönümlü innovasiya (Inbound) xarici ideya və texnologiyaların daxili proseslərə cəlb edilməsini nəzərdə tutur. Məsələn, universitetlərdən əldə edilən patentlərin məhsula çevrilməsi bu modelə aiddir. Çıxış yönümlü innovasiya (Outbound) isə şirkətin öz texnologiyasını və ideyasını digər tərəfdaşlarla paylaşaraq gəlir əldə etməsi və ya strateji əlaqələr qurması ilə xarakterizə olunur. Birləşdirilmiş model (Coupled) isə daxili və xarici əməkdaşlıqların birgə istifadəsinə əsaslanır. Bu modellər şirkətlərin resurslarını daha səmərəli istifadə etməsinə, yeni bazarlara çıxmasına və innovasiyaların bazara çıxma müddətini azaltmasına kömək edir. İqtisadi modellərdə açıq innovasiyanın rolu iqtisadi modellərə təklif və tələb zəncirində şəffaflıq, çeviklik və reaksiya sürəti gətirir. Xüsusilə bilik əsaslı iqtisadiyyatda innovasiya təkcə texnoloji deyil, həm də sosial və təşkilati transformasiyanın əsas vasitəsinə çevrilir. Bu modelin tətbiqi ölkələrə əlavə dəyərin və təkrar innovasiya potensialının artmasına, resurs optimallaşdırması kimi üstünlükləri qazandırır. Qlobal praktikada açıq innovasiya modeli bir çox ölkələrin iqtisadi inkişaf siyasətlərində mərkəzi yer tutur. Xüsusilə inkişaf etmiş ölkələrdə bu model yalnız texnologiya şirkətləri tərəfindən deyil, həm də dövlət qurumları, universitetlər və sənaye assosiasiyaları tərəfindən geniş şəkildə tətbiq edilir. Bu təcrübələr açıq innovasiyanın yalnız nəzəri konsepsiya deyil, praktiki tətbiq sahəsi və uğurlu iqtisadi artım vasitəsi olduğunu sübut edir. Bu ümumi mənzərəni daha da dəqiqləşdirmək üçün bəzi ölkələrin uğurlu təcrübələrinə nəzər salmaq faydalı olar. Almaniya nümunəsi açıq innovasiya sahəsində elm və sənaye sinerjisinin uğurlu modelini təqdim edir. Bu ölkədə innovasiya fəaliyyəti sistemli şəkildə dövlət, sənaye və universitetlər arasında əməkdaşlığa əsaslanır. Fraunhofer Tədqiqat İnstitutları bu modelin əsas dayaq nöqtələrindən biridir. Fraunhofer modeli çərçivəsində institutlar bir tərəfdən özəl şirkətlərlə birgə layihələr həyata keçirir, digər tərəfdən isə universitetlərlə elmi bilikləri birləşdirərək innovativ texnologiyaların inkişafını təmin edirlər. Eyni zamanda, bu fəaliyyətlər dövlət dəstəyi ilə müşayiət olunur. Statistik məlumatlara əsasən, 2022-ci ildə Almaniyada açıq innovasiya əsasında reallaşan texnologiyaların ümumi ticarət həcmi 18 milyard avro təşkil etmişdir. Bu modelin nəticəsi olaraq məhsulların bazara çıxış müddəti orta hesabla 28% azalmış, yeni iş yerlərinin sayı isə 3 il ərzində 14% artmışdır (Fraunhofer Jahresbericht, 2023). Cənubi Koreya nümunəsi startaplar və texnoloji nəhənglər arasında qurulan körpü modeli ilə seçilir. Bu ölkədə açıq innovasiya startap inkişaf proqramlarının əsas dayağı kimi qəbul olunur. Samsung və LG kimi böyük texnologiya şirkətləri həm yerli, həm də xarici startaplarla əməkdaşlıq edərək innovativ məhsullar hazırlayır. Bu şirkətlər öz daxili tədqiqat və inkişaf bölmələri ilə yanaşı, açıq innovasiya ekosistemlərindən də fəal şəkildə istifadə edirlər. Yalnız Samsung-un 2021-ci ildə fəaliyyət göstərən açıq innovasiya platforması vasitəsilə 70-dən çox yeni texnologiya

kommersiyalaşdırılmışdır. Bu sahədə “Samsung NEXT”, “C-Lab Outside” və “Open Collaboration” kimi təşəbbüslər xüsusi rol oynayır. ABŞ təcrübəsi isə açıq innovasiyanın təbii və dinamik inkişaf etdiyi mühiti – Silikon Vadisini özündə əks etdirir. Minlərlə startap, universitet, investisiya fondu və korporasiya arasında mövcud olan sıx əlaqələr bu modelin effektivliyini təmin edir. Şirkətlər bu yolla təkcə yeni texnologiyalar əldə etmir, həm də rəqəmsal transformasiyanı sürətləndirirlər. Məsələn, Google 2021-ci ildə 27 universitetlə açıq innovasiya çərçivəsində əməkdaşlıq etmiş və nəticədə 14 yeni məhsul bazara çıxarılmışdır. Microsoft, IBM və Apple kimi texnologiya nəhəngləri də müxtəlif açıq innovasiya yarışmaları və hackathonlar vasitəsilə minlərlə yeni ideyanı cəlb edir və bu ideyaları innovativ həllərə çevirirlər. OECD-nin 2023-cü il innovasiya hesabatına əsasən, açıq innovasiya modelini effektiv şəkildə tətbiq edən şirkətlərdə məhsuldarlıq səviyyəsi orta hesabla 17% daha yüksək olur. Bu şirkətlərin yeni bazarlara çıxış qabiliyyəti 2.5 dəfə artır, texnologiyaların bazara çatma müddəti isə orta hesabla 40% daha az olur. Bu faktlar açıq innovasiyanın iqtisadi səmərəliliyini və strateji əhəmiyyətini bir daha təsdiqləyir.

Azərbaycan iqtisadiyyatında açıq innovasiyanın mövcud vəziyyəti

Azərbaycan Respublikasında innovasiya siyasəti son illərdə dövlət səviyyəsində xüsusi diqqət mərkəzinə çevrilmişdir. [5, s. 12–20] Neft və qaz sektoruna əsaslanan iqtisadi modeldən daha çox bilgi əsaslı və texnologiya yönümlü iqtisadiyyata keçid strategiyası çərçivəsində innovasiyaya, xüsusilə də açıq innovasiya modellərinə maraq artmaqdadır. Lakin bu sahədə hələ də inkişaf etməli olan çoxlu istiqamətlər mövcuddur. Milli strategiyalarda innovasiya prioriteti: Azərbaycanın iqtisadi inkişafını istiqamətləndirən əsas sənədlərdən biri olan “Milli iqtisadiyyat və əsas sektorlar üzrə Strateji Yol Xəritəsi” və “Rəqəmsal inkişaf və nəqliyyat strategiyası 2022–2026” innovasiyanı və texnoloji yeniliyi əsas hədəflərdən biri kimi təqdim edir. [6, s. 44–50]

Bu sənədlərdə rəqəmsal transformasiya və texnologiyaların tətbiqi, tədqiqat və inkişafın dəstəklənməsi, startap və inkubasiya proqramlarının gücləndirilməsi kimi istiqamətlər vurğulanır. Lakin açıq innovasiya modeli bu strategiyalarda birbaşa deyil, dolayı şəkildə əhatə olunur. Azərbaycan Respublikasında açıq innovasiyanın təşviqi üçün yaradılmış bəzi qurumlar və təşəbbüslər mövcuddur.

INNOLAND İnnovasiya Mərkəzi startapların inkişafı üçün inkubasiya, akselerasiya və coworking xidmətləri göstərir. SABAH.lab isə gənc tədqiqatçılar və tələbələr üçün innovasiya yönümlü layihələrin inkişafı üçün platforma yaradır. High Tech Park və İT Park texnoloji məhsulların hazırlanması və kommersiyalaşdırılması üçün dəstək verir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən təşkil edilən InnoWeek və Take Off Baku kimi tədbirlər açıq innovasiya tərəfdaşlıqlarını təşviq edir. Statistikaya nəzər salsaq, 2022-ci ildə Azərbaycanda rəsmi olaraq qeydiyyata alınmış startapların sayı təxminən 120 olmuşdur. Ümumi Daxili Məhsulda (ÜDM) tədqiqat və inkişaf (R&D) xərclərinin payı təqribən 0.2%-dir. Müqayisə üçün qeyd edək ki, OECD ölkələrində bu göstərici 2–3% arasında dəyişir.

Ali təhsil müəssisələri ilə sənaye sektoru arasında birgə layihələrin sayı aşağı səviyyədədir və sistemli xarakter daşımır. İnnovasiya yönümlü şirkətlərin İT sektorunda payı isə 2021-ci ildə 9.4% təşkil etmişdir (AR Dövlət Statistika Komitəsi). Bu statistikalar göstərir ki, ölkədə açıq innovasiya üçün hüquqi və təşkilati əsaslar mövcuddur, lakin real tətbiq və sistemli inkişaf hələ ilkin mərhələdədir. Əsas çətinliklər və maneələrə misal olaraq, elmi-tədqiqat institutları ilə biznes sektoru arasında əməkdaşlıq zəifdir, nəticədə universitetlərdə yaranan ideyalar tez-tez bazara çıxarıla bilmir. Əqli mülkiyyətin qorunması sistemi qeyri-effektivdir, bu isə tədqiqatçıların ideyalarını bölüşməkdən çəkinməsinə səbəb olur.

Startaplar üçün maliyyələşmə mənbələri məhduddur, xüsusilə erkən mərhələdə olan innovativ layihələr kommersiya dəstəyi ala bilmirlər. Təşkilati və institusional struktur parçalanmış vəziyyətdədir və açıq innovasiya üzrə vahid koordinasiya mexanizmi mövcud deyil. Bütün çətinliklərə baxmayaraq, Azərbaycan gənc və texnologiyaya maraqlı əhali strukturu, təhsil islahatları və dövlətin rəqəmsallaşma siyasəti fonunda açıq innovasiya modelini inkişaf etdirmək üçün əhəmiyyətli potensiala malikdir.

Əgər bu potensial sistemli şəkildə istifadə olunarsa, açıq innovasiya Azərbaycanın qeyri-neft sektorunun inkişafında və yeni iqtisadi modelə keçidində qaldıra biləcək əsas dayaq nöqtələrindən biri ola bilər. Açıq innovasiya vasitəsilə strateji inkişaf imkanları təkcə texnologiya şirkətlərinin deyil, bütövlükdə ölkənin iqtisadi inkişaf dinamikasını dəyişdirə biləcək sistemli yanaşmadır. Bu modelin tətbiqi rəqabət gücünü artırmaqla, əmək bazarının keyfiyyətini yüksəltməklə və milli innovasiya sistemini gücləndirməklə, iqtisadiyyatın transformasiyasına real töhfələr verə bilər.

Azərbaycanın qeyri-neft sektorunu inkişaf etdirmək və qlobal iqtisadi sistemə daha effektiv inteqrasiya etmək üçün açıq innovasiya modeli geniş imkanlar yaradır. Regional və sektoral iqtisadi transformasiya açıq innovasiya modelinin ölkə üzrə balanslı və inklüziv şəkildə tətbiqini tələb edir. Bu model yalnız Bakı və mərkəzi şəhərlərlə məhdudlaşmamalı, regionlarda da geniş şəkildə həyata keçirilməlidir.

Aqrar sahədə universitetlər, texnologiya şirkətləri və fermer birlikləri arasında əməkdaşlıq formatları qurularaq birgə innovativ layihələrin icrası mümkün ola bilər. Məsələn, dron texnologiyası, torpaq analizləri və smart suvarma sistemləri üzrə layihələr kənd təsərrüfatının effektivliyini artırmağa xidmət edə bilər.


Turizm sektorunda isə rəqəmsal turizm platformalarının hazırlanması üçün universitetlər və startaplar arasında ideya yarışmaları təşkil edilə bilər ki, bu da regionların turizm potensialının innovativ üsullarla təqdim edilməsinə şərait yaradar. Energetika sahəsində isə alternativ enerji texnologiyalarının inkişafı məqsədilə dövlət qurumları və startaplar arasında açıq məlumat paylaşımı platformalarının yaradılması əhəmiyyətli ola bilər. Aşağıdakı yanaşmalar regionların iqtisadi inkişafında açıq innovasiya modelinin rolu və təsirini gücləndirə bilər:

1. Universitet–biznes–dövlət üçbucağı innovasiyanın inkişafı üçün mühüm çərçivə yaradır. İnnovasiya prosesi yalnız fərdi təşəbbüslərlə deyil, bu üçtərəfli sistemli əməkdaşlıq modeli ilə daha səmərəli şəkildə həyata keçirilə bilər. Burada universitetlər tədqiqatlar, patentlər və elmi biliklər təqdim edir, biznes sektoru bu biliklərin kommersiyalaşdırılması, praktiki tətbiqi və bazar bilikləri ilə çıxış edir, dövlət isə hüquqi çərçivə, maliyyə dəstəyi və müxtəlif təşviq mexanizmləri ilə prosesi dəstəkləyir. Bu modelə əsaslanaraq “Açıq innovasiya mərkəzləri” (Open Innovation Labs) yaradılmaqla ideyadan məhsula qədər olan yol vahid məkanda sistemləşdirilə və innovasiya ekosisteminin effektivliyi artırıla bilər.

2. Əmək bazarının keyfiyyətcə inkişafı: Açıq innovasiya əmək bazarını da keyfiyyətcə dəyişir. Çünki bu model, tənqidi düşüncə və yaradıcı yanaşma tələb edir. Komanda əməkdaşlığı və çoxşaxəli bacarıqları stimullaşdırır və gəncləri elmi tədqiqatlara və startap fəaliyyətlərinə təşviq edir, bu da nəticədə, yeni nəsil əmək bazarı və əmək tələb etməyən, eyni zamanda bilgi yaradan işçi qüvvəsi yaradır.

3. Startap mədəniyyətinin dəstəklənməsi və kommersiyalaşdırma prosesinə startapların iri şirkətlərlə əməkdaşlığı üçün açıq platformalar (bazar sorğuları, texnologiya ehtiyacları üzrə açıq elanlar), daha sonra “Proof of Concept” dəstəkləri: Yəni ideyanın texniki və iqtisadi baxımdan mümkünlüyünün test mərhələsinə dövlət dəstəyi, həmçinin, spin-off və spin-out mexanizmlərinin hüquqi və vergi əsaslarının formalaşdırılmasını (universitetlərdən çıxan layihələrin sərbəst biznesə çevrilməsi) aid edə bilərik.

4. Rəqəmsal transformasiya və açıq məlumat ekosistemi açıq innovasiyanın əsas təkanverici qüvvələrindən biridir. Rəqəmsallaşma sayəsində məlumat axını sürətlənir, əməkdaşlıq imkanları artır və innovativ həllərin tətbiqi daha əlçatan olur. Azərbaycanın e-Government təşəbbüsləri və rəqəmsal xidmətləri açıq API-lər vasitəsilə startapların istifadəsinə təqdim olunsa, yeni xidmət və məhsulların yaradılması prosesi əhəmiyyətli dərəcədə sürətlənə bilər. Bununla yanaşı, Açıq Dövlət Məlumatları Portalı (Open Data) genişləndirilməli və texniki baxımdan daha əlçatan, istifadəyə yararlı formata gətirilməlidir. Eyni zamanda, elektron hökumət API-lərinin universitet layihələri ilə inteqrasiyası təşviq edilməli, bu yolla akademik mühitlə dövlət xidmətləri arasında əməkdaşlıq gücləndirilməlidir (Şəkil 1).



Şəkil 1. Azərbaycanda və OECD ölkələrində R&D xərclərinin ÜDM-də payı (2016-2022)

Qrafikdən aydın olur ki, Azərbaycanda R&D sahəsinə ayrılan vəsaitin payı hələ də aşağı səviyyədədir. Bu, açıq innovasiyanın tətbiqi və genişləndirilməsi üçün əsas maneələrdən biridir. OECD ölkələri ilə müqayisə də göstərir ki, innovasiyaya maliyyəyönlü dəstək inkişafın təməlidir.

Nəticə

Tədqiqatın nəticələri açıq innovasiya modelinin müasir iqtisadi inkişafın strateji elementlərindən biri olduğunu təsdiqlədi. Analiz göstərdi ki, bu model bilik və texnologiyanın sərbəst dövriyyəsi, institusional əməkdaşlığın genişlənməsi və resursların optimal istifadəsi baxımından milli və qlobal iqtisadiyyatlara mühüm töhfələr verir. Qlobal təcrübələrə əsaslanaraq demək olar ki, açıq innovasiya yalnız texnoloji yeniliklərin yaradılmasına deyil, həm də iqtisadi strukturların çevikləşdirilməsinə, yeni bazar imkanlarının formalaşdırılmasına və rəqabət qabiliyyətinin artırılmasına xidmət edir. Azərbaycan kontekstində aparılan təhlil göstərdi ki, açıq innovasiyanın tətbiqi üçün ilkin təşkilati və normativ infrastruktur formalaşsa da, bu sahədə sistemli yanaşma və uzunmüddətli strategiyalar hələ tam reallaşmayıb. Elmi-tədqiqat institutları ilə biznes sektoru arasında zəif əlaqələr, əqli mülkiyyətin effektiv qorunmaması və startaplar üçün maliyyə mənbələrinin məhdudluğu bu modelin geniş tətbiqinə əngəl yaradan əsas amillərdir. Bununla belə, ölkənin rəqəmsallaşma siyasəti, gənc və texnologiyaya açıq demoqrafik quruluşu, habelə dövlətin innovasiyaya yönəlik təşəbbüsləri açıq innovasiya modelinin gələcək inkişafı üçün güclü təməl yaradır. Əgər bu potensial hüquqi, maliyyə və institusional islahatlarla dəstəklənsə, açıq innovasiya Azərbaycanın qeyri-neft sektorunun inkişafında, yüksək texnologiyalar üzrə ixtisaslaşmada və qlobal innovasiya ekosistemlərinə inteqrasiyada həlledici rol oynaya bilər.

ƏDƏBİYYAT

1. Əliyev, M. *Açıq innovasiyalar və bilik iqtisadiyyatı*. Bakı: Elm, 2021.
2. Hüseynov, T. *Rəqəmsal iqtisadiyyat və inkişaf strategiyaları*. Bakı: Nurlan, 2020.
3. OECD. *Open Innovation in Global Networks*. Paris: OECD Publishing, 2023.
4. Chesbrough, H. *Open Innovation: The New Imperative for Creating and Profiting from Technology*. Harvard Business School Press, 2003.
5. UNCTAD. *Digital Economy Report 2023: Creating a Fairer Digital Future*. Geneva: United Nations, 2023.
6. Lee, S.M., & Trimi, S. Innovation for creating a smart future. *Journal of Innovation & Knowledge*, 2021, Vol. 6(1).

7. Park, Y., Kang, M.J., & Lee, H. Open innovation strategies in Asian economies. *Asian Journal of Technology Innovation*, 2020, Vol. 28(2).
8. Altuntas, G., & Gok, M.S. Determinants of open innovation: A literature review. *Procedia - Social and Behavioral Sciences*, 2019, 195.
9. Chesbrough, H.W., Vanhaverbeke, W., & West, J. (Eds.). *Open Innovation: Researching a New Paradigm*. Oxford University Press, 2014.

Мушфиг Габиль оглы Нагизаде
Университет Одлар Юрду, Магистрант II курса МБА, по специальности Международные финансы и валютно-кредитные отношения
Э-почта: musfiqnagi@gmail.com,

Научный руководитель: к.э.н. Эсмира Мирмамед кызы Ахмедова
Э-почта: ahmedovaesmira@gmail.com

Влияние открытых инноваций на социально-экономическое развитие стран: возможности применения на макро- и микроуровнях

Резюме

Целью исследования - является анализ влияния модели открытых инноваций на социально-экономическое развитие стран как на макро-, так и на микроуровне и определение возможностей применения этой модели для экономики Азербайджана.

Методология - В исследовании в основном использовался теоретико-аналитический подход. Был проведен сравнительный анализ международного опыта, рассмотрены практические модели на примере Германии, США и Южной Кореи, а также проведена оценка на основе существующих статистических данных по Азербайджану.

Прикладная значимость - В исследовании дана оценка модели открытых инноваций не только как инструмента технологических инноваций, но и как инструмента стратегической экономической трансформации. В статье предлагаются конкретные политические рекомендации и направления развития для Азербайджана, что повышает ее научную и практическую ценность.

Результаты исследования - показывают, что модель открытых инноваций повышает гибкость, конкурентоспособность и технологический прогресс экономических систем. Полученные результаты имеют как научное, так и практическое значение.

Оригинальность и научная новизна исследования - заключается в том, что впервые модель открытых инноваций представлена здесь как инструмент экономической трансформации на уровне страны и выдвинуты конкретные стратегические механизмы реализации, подходящие для Азербайджана.

В исследовании впервые системно и сравнительно проанализированы возможности применения модели открытых инноваций в экономике Азербайджана на основе как международного опыта, так и национальных показателей. Ключевые слова: открытые инновации, экономическое развитие, научные исследования и разработки (НИОКР), стартапы, цифровая трансформация, инновационная политика.

Mushfig Qabil Nagizadeh
Odlar Yurdu University, MBA,
International Finance and Currency-Credit Relations 2nd year master's student
E-mail: musfiqnagi@gmail.com
Scientific Supervisor: Ph.D. Esmira Mirmammad Ahmadova
E-mail: ahmedovaesmira@gmail.com

